# İLAHİ RƏNG

**Şəhid Əbdülmehdi Məğfurinin həyat yoldaşı Zəhra Soltanzadənin nəqlinə əsasən**

بسم الله الرحمن الرحيم

**Kitabın adı:....................................İlahi rəng**
**Qələm alan:...........................Zöhrə Ələmdar**
**Tərcümə edən:...............................E. Rəhimi**
**Çap tarixi:...............................................2023**
**Çap növbəsi:.......................................Birinci**
**Tiraj:......................................................1000**

«Издательство Полипресс»
Тверь, Комсомольский проспект, дом 19.
Тел.: (4822) 58-19-78, 500-250,

ISBN 55-49-024519-53

# Birinci fəsil

## Yazılmayan sətirlər

Ötən illərə rəğmən hələ də məhəllə uşaqlarının gülüş səsləri qulağımda cingildəyir. Hələ də özümü Zərəndin küçə və dalanlarında dostları ilə qaçışan şən və azad qızcığaz hiss edirəm. Hansı ki, o dövrdə heç bir küçəsi kiminsə adını daşımırdı. Hələ də meyvə kimi ətirli tamı olan əlli il qabaqkı şirin günlərin həsrətini çəkirəm. Üstündən cəmi yarım əsr keçməsinə baxmayaraq sanki qərinələr ötmüşdür.

Evimiz bir növ rəngarəng rəsm əsərini xatırladan əksər tikililəri eyni forma və ölçüdə sıralanmış Zərəndin indiki "Şəhrivər 17" prospektindəki məhəllələrdən birində yerləşirdi. Özündə böyüklü-kiçikli on-on iki nəfərə yer verən bu ocaq həyət və geniş otaqları, ayrıca qış və yay

salonu, firuzə rəngli kaşılarla örtülmüş iri hovuzu könül oxşayırdı.[1]

Məhəllənin bütün sakinləri ailə sahibi olub, külfəti çox olanların da ad-sanı artıq idi. Hazırda o görkəmdən əsər-əlamət qalmadığı və anam da evimizi dəyişərək başqa evə köçdüyü halda, dar dalanları ilə səfa və səmimiyyət dolu cəmi on altı ev və ailəni bir-birinə qovuşduran məhəlləmiz yenə də mənim üçün uşaqlıq dövrünün xoş xatirələrini canlandırır. Uşaqlıqda elə düşünürdüm ki, bütün dünya zehnimdə gündəlik seyr etdiyim tablodan ibarətdir. Bizim dövrümüzdə qayğı və tərbiyəmiz bacarıqlı, dünyagörmüş anaların üzərinə düşürdü. Məsələn, müəyyən dərman bitkiləri ilə bizi müalicə edər, qarınağrısı, qəbz, zökəm və s. dərdləri türkəçarə üsulu ilə aradan qaldırardılar. Evimizdəki taxçalar anamın yığdığı müxtəlif müalicəvi otlar və şəfa əhəmiyyətli zikr və ayələr yazılmış nüsxələrlə dolu olurdu. Qapımız müraciət edənlər üçün, demək olar, əczaxanaya çevrilmişdi və hamı anama şəfa bəxş edən bir təbib gözü ilə baxır, ona etimad edirdi. Çünki anam özü də imam Rzadan (ə) şəfa almışdı.[2]

---

[1] Özüm müəlliməyəm və yoldaşımın şəhadətindən sonra şəhərin "Təlim-tərbiyə mərkəzi"nə üzv oldum.

[2] On üç yaşımda ikən anam əlacsız xəstəliyə tutuldu və Kermanın həkimləri onun müalicəsinə çarə olmadığını bildirdilər. Bu məqsədlə qardaşım Yədulla onu Tehrana aparır. Müayinə edən həkimlər bir sıra analizlərdən sonra cərrahiyyə əməliyyatı təklif edirlər. Əməliyyata neçə gün qalmış anamın istəyi ilə onlar Məşhədə ziyarətə gedirlər. Anam ziyarət zamanı müqəddəs zərihin qarşısındakı salonda ürəyi sınıq və gözləri yaşla dolu halda o həzrətə təvəssül edərkən bir ruhani şəxs ona yaxınlaşıb, ovcuna qırmızı alma qoyur. Anam ona meyvəni xam halda yeməyin zərərli olduğunu bildirərkən "Ye qızım, sağalarsan!" – deyir. Almanın ətirli iyi ani olaraq anamı düşdüyü vəziyyətdən ayıldır və onu yeyəndən sonra şəfa tapır. Onlar Tehrana qayıdandan və yeni müayinədən sonra təəccübünü gizlədə bilməyən

Mənim də uşaqlığım oyun və əyləncələrlə keçib. Səhərin xoruz banlayan vaxtından hər evin xırda-böyük uşaqları çölə atılar, hərə öz dost-tanışına qoşulandan sonra hay-küy və qışqırıq səsləri bütün küçə və məhəlləni bürüyərdi. Biz qızlar atamın tapşırığı üzrə geyim-keçimdə hicaba riayət etməli idik. Bir dəfə nənəmgilin qapısında qızlarla başıaçıq və qısaqol köynəklə oynayarkən birdən atam küçənin döngəsindən peyda oldu. Hündür qamətinin kölgəsi canıma vəlvələ salınca cəld nənəmin evinə tərəf götürüldüm. Mənim hədsiz vahiməyə düşdüyümü görən nənəm belə söylədi: "Nə oldu qızım? Kim səni incitdi? Kim sənə söz dedi? Niyə rəngin qaçıb?" Ona qısılaraq dedim: "Nənə, sən Allah, gəl, mənimlə birgə evimizə gedək!" Soruşdu: "Nə olub, axı? Kim səni incidib? De, gedib dərsini verim!" Cavab verdim: "Bu qısaqol köynəklə küçədə oynayarkən atam məni gördü. Əgər tək qayıtsam, mənə pis acıqlanacaq!" Nənəm nəfəsini dərərək dedi: "Qorxma balam, heç nə deməz!" Bu köynəyi mənə anam Məşhəddən alıb gətirmişdi və onu geyinərək uşaqların arasında nə qədər fərəhlənirdim. Nə isə, nənəmin əlindən tutub evimizə qayıtdım. Atamın gözü mənə sataşarkən "Niyə bu vəziyyətdə çölə çıxmısan?" – deyərək bərk danlamağa başladı. Bilmirəm, qorxudan idi, yoxsa xəcalətdən, nənəmin arxasında gizlənib, atamın bəyənmədiyi rəftar barədə düşünərək çaşqın halda onun ətəyini barmağıma sarıyırdım. O, daha çox anamı müqəssir bilərək ona belə acıqlanırdı: "Təqsir səndədir ki, ona belə qısaqol köynək almısan! Uşaq bunu necə anlasın! Ona nə versən, geyinəcək. Sənin ki ağlın kəsir, niyə ona

---

həkim belə soruşur: "Yəni, bu həmin xəstədir?..." Beləliklə, anam başına gələn hadisə nəticəsində Zərənd əhalisi arasında xüsusi hörmət qazanır.

belə paltar almısan ki, geyinib çölə çıxsın?!" Anam da atamı sakitləşdirərək belə deyirdi: "Zəhra indi balacadır, hələ məktəbə getmir, həddi-büluğa da çatmayıb..." Atam isə bir az da qızışıb, dilini nırçıldadaraq səsini yüksəldirdi: "Elə bu yaşdan özünü örtməlidir ki, adət eləsin və həddi-büluğa çatanda da çətinlik çəkməsin!" Həyəcandan bütün bədənim tər içində idi. Gözlərim yaşla dolu halda yalvararaq nə isə demək istəsəm də dilim tutulmuşdu, nə bir söz deyə, nə də soruşa bilirdim. Bu, atamın xisləti idi; həmişə uşaqlara göz qoyar, fərqinə varmadan hər birimiz boya-başa çatanadək tərbiyəmizlə ciddi maraqlanardı.

Zərənddə əksər uşaqlar beş-altı yaşından Quran oxumağı öyrənirdilər. Mən də hələ məktəbə getməmiş qonşu qızlarla Quran dərsinə gedirdim. Təlim aldığımız yer evimizdən neçə küçə aralıda yerləşirdi. Bir qadın müəlliməmiz vardı. Əlində həmişə boyum qədərində bir nar çubuğu olardı və lazım gəldikdə, tənbəllərin əl-ayağını qızardardı. Gözüm nar çubuğundan çox uşaqlar arasında xəcalətdən qorxurdu. Odur ki, verilən tapşırıqlara ciddi əhəmiyyət göstərər, heç vaxt tənbehə yol verməzdim. Müəlliməmiz əlavə vaxtlarda Hafizdən qəzəllər oxuyardı və söylədiyi ilk beyti bu idi:

"*Əla, ya əyyuhəs-saqi ədri kə`sən və navilha*
*Ki eşq asan nemud əvvəl, vəli oftad muşkelha!*"[1]

Hər birini təəccüblə dinləyərək heç nə anlamadığımızı gördükdə, bir qədər sükutdan sonra deyərdi: "Böyüyəndən sonra özünüz mənasını başa düşəcəksiniz."

---

[1] "Ey saqiye-eşq, doldur qədəhi kamı sirab elə!
Ki ol eşqin əvvəli asan olar, sonrası nalan!"

Təhsilə Zərəndin qızlar məktəbinə daxil olaraq başladım. Əksər müəllimələr başlarına yaylıq bağlasalar da rəsmi forma geyinmirdilər. Hər kəs məktəbə istədiyi paltarda gəlirdi. Mən də evimizdə qoyulan qayda üzrə hicablı formada gedirdim. Valideynlərim dindar idilər və bizə elə uşaqlıqdan şəri qaydaları öyrədirdilər. Elə məktəbə getdiyim yeddi yaşımdan da anamın kənarında namaz qılmağa başlamışdım. Sonralar doqquz yaşımda atam mənə çadra da aldı ki, artıq namaz-oruc kimi vacib vəzifələrə riayət edim. Doğrusu, həddi-büluğa çatdığım ilk ilin bütün ramazan ayının oruclarını tutdum. Halbuki ondan qabaqkı illərdə günaşırı tuturdum.

İl ərzində, xüsusilə ramazan, məhərrəm və səfər kimi mühüm aylarda Zərəndin bir çox evlərində dini maariflənməyə dair mərasimlər, əza məclisləri təşkil edilir, hər kəsin şəraitinə uyğun olaraq bir gündən on günədək davam edirdi.

Atam dörd yüz metrlik həyət sahəmizdə hər biri on iki metrdən ibarət on otaqlı ev tikmişdi və giriş qapısının yuxarısına da "Bismillahir-rəhmanir-rəhim" yazmışdı. Hər həftə bazar ertəsi axşamlar evimizdə dini mərasim təşkil olar və hər dəfə bir-iki ruhani söhbət edərdi. Həmin gün axşamüstü qadınlar üçün də ayrıca Quran və s. dini mövzulara dair məclis keçirilərdi. Nəzir və ya anda görə olduğunu bilmirəm, hər halda bu mərasimlər il ərzində heç vaxt ləğv edilməzdi. Ümumiyyətlə, evimiz tanınmış əksər ruhani və rövzəxanların görüş yeri idi. O gün nənəm özü də məclisin başında oturar, əlinə ağ dəsmal alıb alnına çat salan qırışlarını büzərək zar-zar ağlayardı. Həm də vəsiyyət etmişdi ki, o dəsmalı dünyadan köçəndən sonra sinəsi üzərinə qoysunlar. Mən də məhz həmin məclis və mərasimlərdə şəhidlər sərvəri imam Hüseyni (ə)

tanımışdım. Məncə, o həzrət nə bir kimsə ilə müqayisə edilə bilər, nə də bənzəri tapılar. Nənəmin ona (ə) hədsiz məhəbbəti dərin nikbinliyindən irəli gəlirdi. Həqiqətən də dəyərli məclislər idi. İştirak edənlərin sayı az olsa da hər kəsdə dərin iz qoyurdu. Atamın gözəl əxlaq və istiqanlılığı evimizi Əhli-beytin (ə) ocağına çevirmişdi və Seyyidüş-şühədaya (ə) bir xadim kimi evindən heç kimi susuz və ac yola salmazdı. Odur ki, Əhli-beytin (ə) də səxavət əli evimizə sayə salar, həyat və dolanışıqda heç vaxt çatışmazlıqla qarşılaşmazdıq.

# İkinci fəsil

**"...ki, eşq asan nemud əvvəl..."**

İbtidai altı illik təhsildən sonra ikinci təhsil pilləsinə keçdim. O zaman təhsil sistemi keçmiş qayda üzrə hər biri 6 illik iki pillədən ibarət idi. Həyatımda bir daha yeni dövr başlayırdı. Belə ki, uşaqlıq çağlarından ayrılaraq yeniyetməliyin ilkin günləri ilə üzləşirdim. Zərəndin iki mərtəbəli "Şahnaz" qızlar məktəbi "Şir və günəş" prospektində yerləşirdi. İkinci pilləyə yeni keçən şagirdlər bir növ çəkinərək nisbətən iri cüssəli yuxarı sinif şagirdlərinə ehtiramla yanaşırdılar. Qruplara bölgü zamanı hər gün tənbəlliklə evlə məktəb arasında ayaq döyən və bir ili iki ilə başa vuran şagirdlərin arasına düşdüm. Səhərlər xoruz banlayan vaxtdan ayılaraq hazırlaşar və saat 8-dən təxminən 12-yə və günorta azanınadək dərsdə oturar, ondan sonra da evə qayıdardıq. Daha sonra əlüstü ağzımıza bir şey atıb başımız yenə də saat 2-dən 4-ədək tapşırıqlara qarışardı. Məktəbli formasına uyğun olaraq əynimizə sarafan və altından qırmızı və ya ağ köynək geyinərdik. Paltarın yaxası bükülər və boyun görünməzdi.

Müəllimlər mənim kimi başına yaylıq bağlayan şagirdlərə tez-tez yerli-yersiz irad tutardılar. Əksəri də kişi olan müəllimlər arasında şah rejiminin zülm və haqsızlıqlarına qarşı dərsin gedişatında üstüörtülü tənqidini bildirən yeganə şəxs dini təlimat müəllimi idi. İl ərzində onlar geyim-keçim və sairə əhəmiyyət verməsələr də orucluqda hamısı ramazan ayının ehtiramını qoruyurdular. Hər il ramazan ayı daxil olanda cümə məscidi böyük tənəffüs zamanı məktəbin şagirdləri ilə dolur və bir çoxu vaxtını orada keçirirdi. Qapımızın zəngi vurulan kimi sinif yoldaşıma qoşulub məscidə gedir və namazımızı orada qılırdıq. Yeniyetməlik dövrünün enerjisi bizi hər cür çılğınlığa vadar edir, o qədər deyib-danışırdıq ki, axır, böyüklərin ciddi xəbərdarlığı ilə səsimizi kəsirdik. Moizələri dinləsək də deyilənlərin çoxunu anlamazdıq. Bəzi natiqlərin çıxışları çox istiqanlı olurdu və mübarək ramazan ayı onlara təbliğ üçün ən münasib zaman sayılırdı. Belə məclislər qəribə sükut və cavanların xüsusi diqqəti ilə keçirdi. O nitqlərdən birindəki bu sözlər hələ də yadımdadır: "Ölüm neçə qisimdir ki, yalnız birində insan torpağa tapşırılır. Təəssüflər olsun ki, hal-hazırda çoxları müxtəlif səbəblərə görə artıq çoxdan ölüb və sadəcə nəfəs alaraq hərəkət edir və kənarındakılar anlamır ki, daha belələrinə "fatihə" oxunmalıdır." Fikrə dalanda həmişə Əzra müəllimənizin tez-tez zümzümə etdiyi misralar yadıma düşərdi:

"*Hərgez nəmirəd an ke deləş zende şod be eşq,*
*Səpt əst dər cərideye aləm dəvame ma!*"

Adətən, orucluqda günortadan sonrakı saatları durğun və halsızlıqla keçirir, zəng vurulan kimi özümüzü tələsik

evə yetirirdik. Çox vaxt anam evdə tapılmazdı və günü oruc ağızla xəstə və dərdi olanların yanında keçir, biz bacı-qardaşlar da iftarımızı atamla birgə açırdıq.

1976-cı ildə başda şah olmaqla mənfur rejim tərəfindən təhsil ocaqlarında hicaba qadağa qoyularkən bu əmr bütün məktəblərdə, o cümlədən, bizim məktəbdə də ciddi icra edilməyə başladı. Küçə və yollarda kobudluqla qadın və qızların başından hicab çəkilib atıldığı surətdə məktəb daxilində bu məsələnin sərtliyi təbii idi. Mən özüm ailədə aldığım təlim-tərbiyə və böyüdükcə qəbul etdiyim qayda üzrə hicablı formada məktəbə gedirdim. Buna görə mənim kimilər dəfələrlə direktorun otağına çağırılır, rəftarımızın aqibəti ilə təhdid olunur, ən tərbiyəsiz təhqir və söyüşlərə məruz qalır, hicab altında min oyundan çıxan və s. adlanırdıq. Zaman keçdikcə təzyiqlər bir az da artdı və bir dəfə direktor başımdan yaylığı çəkərək dedi: "Görüm, bu ləçək altında nə var ki, onu belə möhkəm düyünləmisən?!" Doğrusu, bir bəhanə ilə başımdan nöqsan tapıb məni təhqir etmək istəyirdi. Səliqə ilə daranıb hörülən saçlarımı görəndən sonra bir söz demədi.

Rəsmi bayram və münasibətlərdə, xüsusilə "4 Aban" bayramında məcburi paradda iştirak məsələsi qabağa gələndə mənim matəm günüm idi. Nə atam icazə verirdi, nə də özüm belə mərasimlərdə yad adamların qarşısından başı açıq keçməyə razı idim. Hər dəfə cürbəcür bəhanələrlə aradan çıxırdım. 1977-ci il oktyabr ayının 26-da bütün şagirdlər sıraya düzülərkən mən bütün xəbərdarlıqlara əhəmiyyət vermədən xəbərsiz halda xidmətçinin otağında gizləndim və hamı gedəndən sonra çadramı başıma atıb başqa yolla evə qayıtdım. Ertəsi gün toplanışda mənimlə bərabər iştirak etməyənlərin adlarını bir-bir çəkərək irəli çağırdılar. Əvvəl təhqirə başladılar,

sonra da günahımızı böyük sanaraq bizə ağızlarına gələni dedilər. Direktor bizi söydükcə hər birimizi qanmaz, ləyaqətsiz, mürtəce və geridə qalmış adlandıraraq bədəvi dövrlə müqayisə elədi. Məsələni elə böyütdülər ki, sanki ölkənin birinci problemi bu idi. Mənim sükutum onu bir az da hiddətə gətirdi və xətkeşlə əlimin üzərinə elə vurdu ki, uzun müddət izi getmədi. Hər halda onu ürəyimdə dəfələrlə lənətləyərək qarşısında zərrə qədər əyilmədim. Çünki bütün bunları qabaqcadan düşünərək etmişdim və narahat ola bilməzdim.

Mənim məktəbə getməyim ailəm, xüsusilə də atam üçün çox mühüm idi. Hətta çubuqla tənbeh olunduğumuzu eşidərkən demişdi ki, həyatın ölçülərində çaş-baş qalmamaq üçün çətinliklərinin həllinə dərin baxışla yanaşmalıyam. Özü altıncı sinifə qədər oxuduğu halda həyat dərsini çox gözəl bilirdi və onu sanki mağazasındakı çötkə ilə hesablayaraq mənə ötürürdü. Odur ki, anamın məktəbə şikayətə getməyinə icazə vermədi və mənə də çətinliklərə tab gətirməyimi, heç vaxt əyilməməyi tapşıraraq dedi ki, həyatın çötkə ilə hesablanmayan min bir çətinliyi var.

# Üçüncü fəsil

## Ulduz yağışı

Mərasimlərin təşkil edildiyi "Seyyidüş-şühəda" təkyəsi evimizə yaxın idi. Məhərrəm və səfər aylarında axşamlar bir qayda olaraq anam, nənəm və bacılarımla rövzə məclislərinə gedirdik və anamın başı uşaqlara qarışan günlərdə nənəmlə gedirdim. O da yaşlı idi və gələ bilməyəndə, qonşumuz Rübabə xalaya qoşulurdum. Ora evimizə yaxın olmasına baxmayaraq atam tək getməyimə icazə verməzdi. Özüm axşamlar tək çölə çıxmağa qorxmasam da yeniyetmə bir qızın təkbaşına küçə və dalandan keçməsi qonum-qonşu arasında yaxşı sayılmırdı. Atam deyirdi ki, axşam saat 10-11-də bir qız uşağının tək qayıtmağı yaxşı deyil və yanında bir böyük olsun ki, söz-söhbət yaranmasın. Elə buna görə də bir dəfə Rübabə məni məclisə aparıb, qurtarandan sonra qapımızadək ötürməyincə yanımdan ayrılmadı.

1977-ci ilin soyuq qış günləri məsciddə Ayətullah Cəfəri ağanın istiqanlı moizələri ilə keçirdi. Çoxlarına

yalvarsam da heç kimin məni aparmağa vaxtı olmurdu. Səsucaldanlardan səsi aydın eşidilirdi. O, ayələri misal çəkərək təfsir və izah edərdi. Əlimə dəftər-qələm alıb, evin damına çıxdım. Hava qaralmışdı və qar yağırdı. Ədyalı özümə bürüyüb, maraqlı mətləbləri qeyd etməyə başladım. Bir azdan atam da yuxarı gəldi və məni belə vəziyyətdə görüb dedi: "Qızım, donarsan, xəstələnərsən!" Mən də dedim: "Narahat olma, heç nə olmaz. Özümü yaxşı bürümüşəm." Hər halda narahatçılığı yersiz deyildi və belə hallar tez-tez baş verirdi.

Məclislərə get-gəllər istər-istəməz mən yaşda qıza diqqətin artması və elçilərin çoxalmasına səbəb olurdu. Mənim isə hamısına cavabım qəti "yox" idi. Elə ibtidai təhsil dövründən hicaba ciddi əhəmiyyət verməyim, bütün xəbərdarlıqlara və tənbehlərə tab gətirməyim, məclis və rövzələrə get-gəlim məndə dini elmlərə marağı artırırdı. Atamın bu barədə etirazı olmasa da bir qız uşağının təkbaşına Quma gedib, təhsil almağını düzgün hesab etmirdi. Anam onunla dəfələrlə danışsa da qətiyyən razı olmadı. Nəhayət, qərara gəldik ki, bu barədə Zərəndin cümə imamı Ayətullah seyid Əhməd Cəfəri[1] ilə

---

[1] Ayətullah Cəfəri Zərəndin böyük şəxsiyyətlərindən sayılırdı. Məntəqəmizin əhalisinin hidayət və dirçəlişində onun rolu böyükdür. Ölümündən illər keçməsinə baxmayaraq hələ də xalq arasında ehtiramla yad edilir və qəbri ziyarət ocağıdır. O, on yaşında olarkən naməlum xəstəliyə yoluxaraq hər iki gözünün nurunu əldən verir. Həmin dövrdə bir gecə röyada həzrət Cəbraili görür və onu səsləyərək gözünün nurunun qayıtmağını istəyir. Cəbrail deyir ki, başqa dilək istə. Bu zaman o, Allah yolunda müvəffəqiyyət və alim olmağı xahiş edir. Cavab gəlir ki, istəyin qəbul oldu. Həmin hadisədən sonra seyid Əhməd hövzəyə daxil olur və dini elmlərin təhsilində qəribə tərəqqiyə yüksəlir. Sonralar özü Zərənddə dini hövzə təsis edir və inqilabdan sonra şəhərin cümə imamı təyin edilir.

məsləhətləşək. Ayətullah Cəfəri uşaqlıqdan kor olsa da böyük fəqih, müfəssir və nüfuzlu bir şəxs idi. O, sözlərimizi diqqətlə dinləyəndən sonra bir qədər fikrə dalıb, bizə xanım Müctəhidə Əmini misal çəkdi. Dedi ki, bu qadın evli və övlad sahibi olmasına baxmayaraq elə öz evində təhsilə başlamış və yavaş-yavaş müctəhidlik dərəcəsinə yüksəlmişdir. Sonra da təklif etdi ki, onun öz elmi mərkəzi nəzdində başqa tələbələrlə birgə təhsil alım; həm atamın sözündən çıxmayım, həm də arzuma çatım və axırda da yalnız imtahan vermək üçün Quma gedim. Götür-qoy etmək üçün bir qədər fürsət istədim. Amma axırda elə onun təklif etdiyi kimi oldu. Belə ki, Zərəndə hövzə dərslərini təhsil aldıqca başqa neçə nəfərlə birgə onun öz dərs və moizələrində də iştirak edirdim və bu mənim dini əsaslarla tanışlığımın başlanğıcı idi.

Ayətullah Cəfəri azğın şah rejimi ilə mübarizəyə inqilabdan qabaq başlamışdı. Rejimə dair fikir və tənqidlərini bildirərkən fironla bağlı ayə və əhvalatları misal çəkir, hamı deyilənlərin birbaşa şaha aid olduğunu anlayırdı. Ona görə də çıxışları həmişə böyük izdihamla qarşılanırdı. Elmi səviyyəsi yüksək idi və cismi vəziyyətini nəzərə almadan daim fəaliyyət göstərirdi. İlk dəfə "əl-Mizan" təfsiri çap edilən il onun bir nüsxəsini tələbələr, bəzən mən özüm də qarşısında oxuyur, o da diqqətlə dinləyəndən sonra bir sıra şübhə və iradları qeyd edirdi. Əlbəttə, bütün qeydlər Əllamə Təbatəbainin özünə göndərilir və o da iradları qəbul edəndən sonra düzəliş və təshih edirdi.

1978-ci il dekabr ayının 9-u mübariz Qum xalqı qana qəltan ediləndən sonra inqilabın sürəti bir az da artdı. O ilin axırıncı ayları təlatümlə keçir və kül altında közə bənzəyirdi. İnqilabi elanlar bütün Zərənddə əldən ələ

gəzirdi. Sürətlə baş verən hadisələrə hədsiz maraq çox vaxt məni anamla birgə nitqlərdə və ya Kermana gedib mitinqlərdə iştiraka vadar edirdi. Anam Kermandakı qohumlarımızdan birinin evində Quran məclisində iştirak edərkən savadlı bir qadınla tanış olmuşdu. Familiyası Əsgəri idi və gözəl nitqi, yaxşı dini savadı vardı. Həmin məclisdə anam onu Zərənddə də fəaliyyət göstərməyə dəvət edir və o da razılaşır. Xanım Əsgərinin gəlişi ilə evimizdə keçirilən bazar ertəsi məclislərinin rövnəqi bir az da artır və gözəl təsir bağışlayır. Söhbətləri dinləyənlərə imam Xomeyninin mənəvi nəfəsini üfürür, onlara yeni can bəxş edirdi. Mən imam Xomeyninin şəklini və risaləsini ilk dəfə Ayətullah Cəfərinin evində görmüşdüm. Amma xanım Əsgərinin get-gəlindən sonra evimiz, bir növ, inqilabi qərargaha çevrildi. Qardaşlarım da Zərəndin bir çox cavanları ilə birgə fəaliyyətdən geri qalmır, azğın fikir və cərəyanlarla, o cümlədən, "bəhaiyyət"lə mübarizə aparır, onların görüş və yığıncaqlarını pozurdular. Onlar imamla bağlı məlumat, xəbər və elanları evə gətirdikcə dindar mübarizlərin müxtəlif şəhərlərdəki müqavimət və dözümü, tutulması və şəhadəti və ya "koka-kola" kimi bir sıra məhsullardan istifadənin qadağası və sairlə tanış olurdum. Əlimə çatan elanları kitablarımın vərəqləri arasında gizlədir və məktəbə aparıb, etibarlı dostlarıma verəndən sonra tapşırırdım ki, inandıqları adamların arasında yaysınlar. Beləcə, yeni elan və xəbərləri cavanların, məktəb yoldaşlarımız və həmyaşıdların arasında yayırdıq. Amma hər dəfə biri direktorun əlinə çatanda, az qalırdı, nəfəsim kəsilsin. Bu minvalla mən də bir-iki dəfə sorğu-suallara cəlb olundum. Direktor qabaqlar dəfələrlə hicaba görə tənbeh edilən şagirdi (məni) görərkən bir az da qəzəblənirdi. Əgər qarşısını

almasaydılar, bəlkə də dişləri ilə boğazımı çeynəyərdi. Bir dəfə əlini qaldırıb, mənə elə bir sillə ilişdirdi ki, üzümdə barmaqlarının izi qaldı. Bağıra-bağıra var-gəl edir, ağzından çıxanı mənə deyirdi. Söyüş, təhqir, hədə-qorxulara dözmək çox çətin idi. Bunları eşitdikcə hörməti gözümdən düşür, təhlükəsizlik komitəsinə ayağım dəyməmək üçün istənilən söyüşü eşitməyə hazır idim. Onun "SAVAK"ın məmurları ilə rabitəsi olsa da şagirdləri öz otağında sorğu-suala çəkir və onlara təhvil vermirdi. Uzağı neçə söyüş, təhqir, təhdid və şillədən və dilimizdən iltizam alandan sonra bizi otağından çölə atırdı. Belə halların qabağa gəlməməsi üçün bundan sonra diqqətimi artırmalı idim.

1978-ci ilin novruz bayramı ərəfəsi həmişəki kimi ev-eşiyi səliqə-səhmana salmağa başladıq. Qonum-qonşular və qohumlar da bizim kimi məşğul idilər. Bayramı qarşılamaq üçün hər yeri silib, süpürürdük. Bayram axşamı süfrələr şirniyyat, meyvə qurusu və dadlı ləpələrlə bəzənərdi. Əksər qonaqlıq və görüşlərdə söhbətlərin sonu inqilaba aid xəbərlərlə bitərdi. Mən özüm ölkəyə aid yeni xəbərləri məsciddə və Ayətullah Cəfərinin mənzilindəki yığıncaqlarda əldə edirdim. Getdikcə hər yerdə qiyamın əlamətləri müşahidə olunurdu. Şəhərlərə ordu qüvvələri yeridilir, mitinq və yığıncaqlar dağıdılır, lazım gəldikdə, təhdidlə havaya güllə atılır, gözyaşardıcı qazdan istifadə edilir, fəallar həbs olunur və işgəncəyə məruz qalırdılar. Şəhərimizdə hələlik qadınlara toxunmurdular. O vaxt Zərəndə gələn hər mübariz natiq anamın vasitəsi ilə bizə dəvət olunur və evimiz mübarizə mərkəzini təmsil edirdi. Anamın evdar qadın və doqquz uşaq (dörd oğul və beş qız) sahibi olmasına baxmayaraq dini mərifət və dünya görüşündə kifayət qədər məlumatı vardı.

1978-ci il oktyabr ayının 16-ı Kermanın cümə məscidi qana qərq oldu və bütün şəhər matəmə batdı. Bu ağır hadisədən sonra əksər məscidlər qiyam mərkəzinə çevrildi. Məscidlərimiz toplanış və kütləvi hərəkatlara təkan verir, biz cavanları inqilabi səmtə yönəldirdi. Təməlimiz məsciddə formalaşırdı, gələcək üçün planlar cızırdıq. Həmin ilin payızında məşhur natiq və xətib Məhəmmədtəqi Fəlsəfi Zərəndə gəlmişdi. Cümə məscidində izdihamdan yer yox idi. Söhbət arası dövlət məmurları şüar verir, ardıcıl olaraq "Allahu əkbər" deyirdilər. Məsələdən xəbərsiz olan camaat da onlara qoşularaq təkrar edir və beləliklə, söhbətə mane olur və məclisləri pozurdular.

Artıq dini hövzə dərslərinin təhsilindən bir ildən çox keçirdi. Bununla bərabər məscid və məclislərdə Quran və Nəhcül-bəlağə ilə tanış olduqca dini maarifim artır, üzümə yeni qapılar açıldıqca dünyaya başqa pəncərədən baxır, etiqadi əsaslar və şəhadət aləmi ilə tanış olurdum. Hənzələ, Əmmar və valideynləri Yasir və Süməyyə, Salman və Əbuzər kimi dini şəxsiyyətlərin həyatı ilə tanış olduqca fikirlərim göylərə yüksəlir, onlara bənzəmək üçün hər şeyi qurban vermə və şəhadət kimi böyük məram və arzulara qərq olurdum. Bu haqda mütaliələrim artaraq bir az da onlara yaxınlaşır, sanki o dövrdə yaşayırdım. Odur ki, bütün arzu və istəklərimin sonu Qum elmi hövzəsində təhsilə doğru yönəlirdi. O zaman təsəvvür edə bilməzdim ki, bir zaman mən də özünü qurban edən kəslə ailə həyatı quracağam.

Artıq ölkə kütləvi şəkildə tam etiraz formasını almışdı. Bunu nəzərə alaraq SAVAK bütün hərəkatlara nəzarət edir, hər yerdə onların komitə və qərargahları ciddi fəaliyyət göstərirdi. Kiçik şəhərlərdə məmurları tez aşkar

olur və onlarla əlaqə saxlayan ev və ailələr cəmiyyətin gözündən düşürdü. Mən özüm hər məmurun yanından ötəndə bədənim tir-tir əsirdi. Cümə məscidindəki qətliamdan sonra içimdə onlara qarşı qorxu və nifrət yaranmışdı. Həmin günlərdə xalq etiraz mitinqlərinə kəlimeyi-şəhadətini oxuyaraq gedirdi. Çünki sağ-salamat gedib-qayıtmağa ümid yox idi. Biz də belə hadisələrdən müstəsna deyildik və anam da daha çox mənə görə nigaran idi. Nəhayət, şah İranı tərk edib qaçanda mən Kermanda idim. Yaxından inqilabın qələbəsinin şahidi olaraq nə qədər sevinc göz yaşı axıdıb, bu yolda tökülən qanların səmərəsini bütün vücudumla hiss etdim...

# Dördüncü fəsil

**"Cəmiu xəyrid-dunya və cəmiu xəyril-axirə"**

Xalq komissiyalarının təşkili ilə mübariz cavanlar inqilabın mühafizəsi uğrunda gecə-gündüz çalışdığı halda yağı düşmənlər də düşmənçiliklərindən geri qalmır, ölkənin hər yerinə nifaq və fitnə toxumu səpirdilər. Hər gün bir məntəqədən xoşagəlməz xəbər gəlirdi. Çox keçməmiş bölgələrin parçalanması, o cümlədən, Kürdüstan vilayətinin ayrılması xəbəri ölkəni bürüdü. Münaqişəni aradan qaldırmaq üçün hər yerdən, həmçinin Zərənddən də cavanlar o məntəqəyə axışdılar. Qışın qarlı və sərt soyuğu, şəraitin çətinliyi və çatışmazlıqlara baxmayaraq hamı qeyrətlə vuruşurdu. Daxildə də ara-sıra vətəndaş münaqişələrinin şahidi olarkən 1980-cı ilin payızı İraqın ölkəmizə gözlənilməz təcavüzü ilə müharibənin ağır yükü xalqın üzərinə çökdü. Hərə öz səviyyəsində düşməni dəf etmək üçün əlindən gələni əsirgəmədiyi halda ilk günlərdə heç kim müharibənin səkkiz il davam edəcəyini düşünmürdü. Təəssüflər olsun ki, prezident Bəni Sədrin xəyanətləri nəticəsində İraq

qoşunları Əhvazadək irəlilədi və 1980-cı il beləcə başa çatdı. Ölkənin beş sərhəd rayonu düşmənin əlinə keçmişdi və bu müddət ərzində döyüşçülərimiz qəddar "Bəəs" rejimi tərəfindən olmazın vəhşiliklərinin şahidi idilər. Evin sonbeşiyi qardaşım Abbas daim müharibə xəbərlərini izləyirdi. Nəhayət, cəbhə döyüşçülərinin biri ilə söhbətdən sonra o da 1981-ci ildə ev və məktəbi buraxaraq bizimlə vidalaşmadan cənub əməliyyat məntəqəsinə yollandı. Əvvəlcə heç kim on dörd yaşlı bir yeniyetmənin cəbhəyə icazə veriləcəyinə inanmırdı. Amma o biri qardaşım Məhəmməd məsələni araşdırıb, onun öz şəxsiyyət vəsiqəsində yaşını on dörddən on altıya dəyişdirdiyini öyrənəndən sonra hər şey bizə bəlli oldu. Gözümüzü açıb-yumunca qırx beş gündən sonra peyda oldu və bir aydan sonra yenə cəbhəyə getdi. Birinci ezamda yaş məsələsini bir kələklə həll edə bilmişdisə, ikinci və üçüncü ezamlarda başqa problemlə qarşılaşmadı. Belə vəziyyətdə anam dua və zikrlə Allaha sığınır, bilirdi ki, balasını qoruyan var. Abbas səkkizinci sinifdə oxuyurdu və mehriban, qoçaq və s. fərdi xüsusiyyətləri ilə seçilirdi. İdmanın "karate" növü ilə məşğul olurdu və yaşıdları arasında rəqibi yox idi. Qüvvəsinə güvənməz, heç kimə dəyib-dolaşmaz, rəhmli və əliaçıq uşaq idi. Hətta yeri gəldikdə, əynindəki paltarını da bağışlayardı. Bir dəfə anam onu alt paltarda evə qayıtdığını görərkən təəccüblə "A bala, şalvarın hanı?" – deyə soruşduqda, demişdi: "Dostumun şalvarı cırılmışdı, ona verdim. Mənim evdə başqa şalvarım var." Ən çox arzuladığı şey velosiped almaq idi ki, ona da neçə vaxt pul yığaraq nail oldu. Ondan sonra velosipeddən ayrılmaq bilmirdi. Əlində əski hər dəqiqə ora-burasını silir, hər yerini rəngli izolentlərlə bəzəyirdi. Amma iki ay sonra ata-anam onu velosipedsiz görəndə, hər ikisi bir ağızdan

soruşdu: "Velosipedin hanı?" Dedi: "Sinif yoldaşıma vermişəm. Yolu uzaqdır, kənddən gəlir. Piyada gəlincə iki saat çəkir. Mənim yolum yaxındır, piyada da gedə bilərəm." Düzü, daha çox mənə qəribə gəldi. Çünki Abbas heç vaxt velosipeddən ayrılmazdı. Sinif yoldaşının vəziyyətini nəzərə alaraq ən istəkli şeyindən keçməsi o yaşdakı yeniyetmələrdə görünməyən xislət idi.

Böyük bacım Siddiqə köçəndən sonra mənim də ərə getmək məsələm, elçilərin get-gəli və anamın cehizliyin tədarükü ilə bağlı nigarançılığı özünü büruzə verməyə başladı. Qapıya gələn hər elçi hətta zahirən möhtərəm görünsə belə ürəyimə yatmırdı və razı olmurdum. Yadımda ikən, 1981-ci ilin aprel ayı idi. Mərasimlərin birində çıxış edən cavanın səsi ürəyimə yaman yatdı. Söhbətdən sonra yanımdakılardan kim olduğunu soruşdum. Dedilər ki, Zərənd sepah komitəsi təbliğat şöbəsinin müdiridir. Hiss elədim ki, şirin söhbəti ilə qəlbimə yol açıb. Haqqında bir qədər eşitmişdim. Ani olaraq arzuladım ki, bir gün elə onun özü elçiliyimə gəlsin. Bu minvalla qapıya gələn hər elçiyə cavabım "yox" idi və istədiyim adam deyildi. Əbdülmehdi öz sahəsində bacarıqlı şəxs idi, gözəl xətti vardı və tərtibatçı rəssam kimi imam və başqa böyük şəxsiyyətlərin təsvir və kəlamlarını, qəhrəmanlıq və rəşadəti əks etdirən şüarları şəhərin divarlarına həkk edirdi. Həmçinin istiqanlı nitqlərində dua, zikr, ayə və rəvayətlərə toxunmaqla qəlbləri cilalayırdı. O zaman günlərim yalnız dərs və təhsillə keçirdi. Anam da istəyirdi ki, mən də bir gənc qız kimi müəyyən işin qulpundan yapışım. Odur ki, 81-ci ilin yayını dərzilik sənətini öyrənməyə həsr etdim. Dərslər yorucu deyildi və maraqlı keçirdi. Dərziliyin qayda və incəliklərini öyrəndikcə parça tikələrini bir-birinə calayıb,

əynimə keçirirdim. Rəfiqəm Zöhrənin kənarında zamanın necə gəlib-keçdiyini bilmirdim. Müəllim çalışırdı ki, bizə sənətin incəliklərini zərrə-zərrə aşılasın. Biz də təlimə uyğun olaraq şablon hazırlayır, üzündən parçanı ölçüb-biçir, qırçın, büzüm, düymə və sairi dəqiq təyin etmək üçün əlləşirdik. Əlimizə metr, xətkeş, tabaşir götürüb, məşğul olduqca hər mövzudan söhbət düşür, biri o birinə calanırdı. Zöhrəni çoxdan tanıyırdım. Məndən iki il kiçik idi və bacımla bir sinifdə oxuyurdu. Xasiyyətimiz fərqli idi. O, çoxdanışan, mən isə sakit və təmkinli idim. Bununla belə, fikir və baxışlarımız bir-birinə uyğun gəlirdi. O, məndən tez ailə qurmuşdu və yeri gələndə yoldaşı Mehdi Təhami ilə necə tanış olaraq evləndikləri barədə danışar, mən də maraqla dinləyərdim. Söhbət əsnasında yavaş-yavaş ürəyimdən keçəni duyduqda, ikimiz də zarafatla gülümsünərək sözü uzatmadıq. Bir gün yenə başımız işə qarışdığı zaman qəribə təbəssümlə dedi: "Muştuluq, muştuluq! Yar səni bəyənib! Təəccüblə gözlərinə baxaraq soruşdum: "Necə məgər?" Dedi: "Ərim Mehdi yoldaş Məğfuridən niyə evlənmədiyini soruşanda, deyib ki, istəsəm də hələlik ruhiyyəmə münasib qız tapa bilmirəm. Ondan sonra Mehdi məndən dostlarım arasında münasib bir qız olduğunu soruşanda, səni təklif elədim!" Soruşdum: "O kimdir?" Zöhrə dedi: "Sepahın təbliğat və ictimai əlaqələr şöbəsinin müdiri kermanlı Əbdülmehdi Məğfuridir." Bir anlıq qəlbim döyünməyə başladı və inana bilmədim. Yəni, istədiyim idi yar, yetirdi pərvərdigar! Dodaqlarımdakı sevinc hissi razılıq əlaməti idi. Amma bu hələ işin əvvəli idi, sonrası məlum deyildi. Hər halda bu söhbət kursu axıradək başa vurmaq üçün bir bəhanə oldu. Beləliklə, yavaş-yavaş aramızda xəbərlər gəzişməyə başladı. İlk dəfə ad-familiyamla tanış olarkən bildirmişdi:

"Soltanzadəgil köklü tayfadır və mənə uyğun deyil." Mehdi də ona belə cavab vermişdi: "Yaxşı dindar atası var, evlərində Quran məclisləri keçirilir, qızı mənim yoldaşımla rəfiqədir, bir-birini tanıyırlar, həmçinin Ayətullah Cəfərinin şagirdi olub, hövzə dərslərini oxuyur."

Zərənd kiçik şəhər idi, əhalinin çoxu bir-birini tanıyırdı və çoxları bizim evdə təşkil edilən həftəlik məclislərdən xəbərdar idi. Mehdi də ailəmizi yaxından tanıyırdı və bizdə olan ənənəvi hörmət və ədəb-ərkandan xəbərsiz deyildi. Buna əsasən, onun haqqımızdakı müsbət fikirləri Əbdülmehdiyə xoş təsir bağışlamışdı. Zöhrə aramızda gedən xəbərləri çatdırdıqca bilirdi ki, bu təklif mənim tam ürəyimcədir. Amma ailəmin razılığı məsələsi isə nigarançılığı artırırdı. Əvvəlcə bu haqda onlarla danışmalı və fikirlərini öyrənməli idim. Lakin Zöhrə elə bir şey təklif elədi ki, mənə çox qəribə gəldi. Dedi: "Əbdülmehdi əvvəl sənin özünlə danışmaq istəyir." Dedim: "Yox əşi! Mən hələ anamla danışmamış bu Allah bəndəsinə nə deyim?!" Zöhrə isə "Nə isə demək lazım deyil, sadəcə suallarına cavab ver, vəssalam!" – dedi. Mənə gün kimi aydın idi ki, əgər atam bilsə, çox pis narahat olacaq və mən onu narahat etmək istəmirdim. Amma Zöhrə isə, heç olmasa, bir dəfə üz-üzə söhbət edərək hər iki tərəfin qarşılıqlı fikir və şərtləri ilə tanış olmağını ən yaxşı yol hesab edir və həmin görüşdə özü ilə yoldaşının da iştirak edəcəyini deyirdi. Nəhayət, o qədər təkid edib, qaneedici fikirlər söylədi ki, razılaşmalı oldum. Qərara gəldik ki, görüşüb danışdıqdan sonra əgər razılaşsaq, ailəmi də məsələdən agah edim.

Bazar ertəsi günortadan sonra Zöhrəgilə tərəf yola düşdüm. Yol boyu cürbəcür fikirlərlə çarpışırdım. Bu görüşdən mənimlə Zöhrədən başqasının xəbəri yox idi. Şübhəsiz, əgər atam bilsəydi, narahat olub məni bərk

danlayardı. Hər halda mən yalnız suallara cavab vermək məqsədilə gedirdim və arada başqa söz olmamalı idi. Həmçinin kənarımda Zöhrə ilə yoldaşı kimi saf niyyətli kəslərin olması mənə ürək-dirək və arxayınlıq verirdi. Amma onların evinə ayaq basanda, nədənsə, qəribə qorxu və ya vahiməyə bənzər hiss bütün vücudumu bürüdü. Mən Əbdülmehdidən qabaq çatmışdım və bu, evin fəzası ilə uyğunlaşmaq üçün fürsət idi. Bu haqda Zöhrə ilə bir qədər danışdıqdan sonra yoldaşı ilə Əbdülmehdi "ya Allah" – deyərək içəri daxil oldular. İlk tanışlıqdan sonra yoldaşı çölə çıxmaq istəyərkən Əbdülmehdi əlindən tutaraq xahiş etdi ki, görüşdə iştirak eləsin. Bundan sonra pərdə arxasında əyləşərək söhbətə başladıq. Sükutla keçən ilk anlar mənə bir ömrə bərabər idi. Belə vəziyyət məni Allahdan istədiyim kəsə qarşı duyğularımı gizlətməyə və sükuta vadar edirdi. Axır, bu sükut Əbdülmehdi tərəfindən "bismillah", ayə və hədislə pozuldu. Daha sonra bir sıra suallar soruşdu ki, mən də asta-asta cavab verdim. İztirab keçirdikcə bədənim əsir, eşidilməyən sözlərimi Zöhrə özü ucadan deyərək təkrar edirdi. O, əvvəlcə özü və işinin çətinliklərindən söz açdı. Dedi ki, pasdar olan şəxs cürbəcür problemlərlə qarşılaşır, hər gün işə "şəhadət kəlməsi"ni deyərək başlayır və hər an canını itirə bilər, hal-hazırda ona hər şeydən əhəmiyyətli müharibə və cəbhədə xidmətdir və bütün bunların ağırlığı mənim üzərimə düşəcək. Mən də hamısı ilə razılaşdım. Daha sonra yaralanma, hər hansı üzvü itirmə və onun çətinliklərindən danışdıqca mən də razılıq verir, ona bir az da vurulurdum. Çünki əsil mən istədiyim şəxs idi. Onun mənə qəribə gələn suallarından biri bu oldu: "Siz dini hövzədə təhsil alırsınız, ərəb dili ilə tanışsınız, mən isə yox. Bu bir problem yaratmaz ki? Çünki bəzi qadınlar öz

səviyyələrinə uyğun kəslə evlənmək istəyirlər. Bilirsiniz ki, mənim hövzə elmləri və ərəb dili ilə tanışlığım yoxdur." Cavab verdim ki, mən elə adam deyiləm və bunların heç biri mənim üçün əhəmiyyət daşımır. Sonra dedi: "Bir pasdarın həyatı gözlənilməz çətinliklərlə keçir, əgər fikirləşmədən belə həyata qoşulsan, axıradək tab gətirə bilməzsən. Mənə həyatda yalnız Allahın göstərişləri mühümdür." Getdikcə nəfəsim təngiyir, diqqətimi toplaya bilmir və zehnimdə fikirləşdiklərim dilimdən çıxanlarla uyğun gəlmirdi. O anlarda həya, xəcalət və iztirab təbii idi və Zöhrə də bunları gözəl başa düşürdü. Nəhayət, razılıq barədə fikrimi bilmək istədikdə, Zöhrəyə dedim: "Sözüm yoxdur, elə bilirəm, məntiqli şəxsdir." Əbdülmehdi söhbəti üzrxahlıqla başa vuraraq bir daha həyatın bünövrəsini təşkil edən məsələlər barədə yaxından və aydın danışmağı təklif etdi.

Görüş təxminən bir saat uzansa da hələ deyilməyən çox şey qaldı. Evə çatınca fikirlər məndən əl çəkmədi. Bu görüş mənim qarşıdakı keşməkeşli yeni həyata girişim idi. O axşam səhərədək yuxum ərşə çəkildi. Əbdülmehdinin qoyduğu hüdudlar mənim həyatımla tamam fərqli idi və bunları gözəl anlayırdım.

Zöhrə məni razı salaraq ikinci görüşü də neçə gün sonra elə öz evlərində təşkil etdi. Bu dəfə həyəcanım azalsa da xəcalət və utancaqlıq rəftarlarıma hakim idi. Əbdülmehdi sözə şəhadət məqamı ilə başlayaraq əsirlik, əlillik, çətinlik, yoxsulluq, dünyaya biganəlik, dözüb tab gətirmə kimi dərin məsələlərə toxunduqca mən də razılığımı bildirirdim. Fikirlərini söylədikcə hiss edirdim ki, o, elə Allahdan dəfələrlə istədiyim şəxsdir. Birinci görüşümüz tanışlıq, ikincisi isə bir növ elçiliklə başa çatdı. Qəribə

sevinc və ruh yüksəkliyi və dodaqlarımda təbəssümlə evə qayıtdım.

Hələ anamı hadisə ilə necə başa salmağa qadir deyildim. Baş verənləri onunla bölüşmək üçün fürsət axtarırdım. Nəhayət, bir axşam mətbəxdə qabları yuyarkən cüzi bəhanə ilə kələfin ucunu aça bildim. Anam məni dinlədikcə simasında nigarançılıq və narazılıq büruzə verir, narahatçılığını gözəl dərk edirdim. Bilirdim ki, ona daha çox gələcək kürəkəninin qanacaq və mərifəti əhəmiyyət daşıyır. Boy-buxun və qiyafəyə əhəmiyyət versə də şərait və var-dövləti mühüm deyildir. Həmişə deyərdi: "Malı Allah verir. Elçinin varlı olub-olmaması çox da zəruri deyil. Təmiz adam, namaz qılan olmağı kifayətdir." İçimdə bərk qərarsız idim. Səbirsizliklə gözləyirdim ki, ilk görüş və tanışlığa razılıq versin. Başı və əlləri işə qarışdığı halda sanki fikrimi oxuyaraq dedi: "Hələ bir dəfə gəlsin görüm, ürəyimə yatır, ya yox! Əvvəl yaxından görməliyəm, əgər bəyənsəm, atana da deyərəm." Bir anlıq rahat nəfəs aldım. Birinci addım elə də pis deyildi. Anamın razılığı, demək olar, çox işlərin həllini göstərirdi.

Zöhrə ilə danışıb dedim ki, anam oğlanı yaxından görmək istəyir. O da mənə ertəsi gün xəbər verdi ki, bazar ertəsi yoldaşımla İsmailabad kəndindən qayıdarkən sizə də baş çəkəcəklər.

Təyin olunmuş gün günortadan sonra gözüm qapıda, qulağım isə zəngdə idi. Mənə hətta dəqiqələr də gec keçirdi. Haçandan-haçana qapının zəngi vurulanda ürəyim üzüldü. Anam qapını açanda isə sanki nəfəsim kəsildi. Üst-başı toz-torpaqlı və saçları qarışıq iki cavan içəri daxil oldu. Hər ikisi tamamilə toz-torpaq içində və Əbdülmehdinin vəziyyəti lap pis idi. Öz-özümə dedim:

"Vay, daha hər şey bitdi! Anam elə bu dəqiqə onları çölə qovacaq!" Anam Mehdi Təhamini uzaqdan-uzağa tanısa da hal-hazırda onları bir-birindən ayırd edə bilməyib, üzlərinə baxaraq soruşdu: "Hansı biriniz elçidir?" Mehdi cavab verdi: "Xala! Mən molla Əlicanın oğluyam və bu da elçiniz Əbdülmehdi Məğfuridir." Anam onun atasını tanıyırdı və hərdən rövzə məclislərimizdə iştirak edərdi. Odur ki, özü və valideynlərinin əhvalını soruşandan sonra mənə işarə ilə otaqdan çıxmağı bildirdi. Görüş çox uzanmadı və aralarında bir qədər çəkən söhbətdən sonra xudahafizləşərək getdilər. Anam sual dolu baxışlarımı görərkən dedi: "Deyəsən, zərəndli deyil, tanımadım. Məncə, mərifətli cavandır, gözəl səsi var, nə qədər ayə və hədis söylədi. Hər kimdirsə, sözünün dalında duran adama oxşayır və danışığı ürəyə yatır. Mən atanla danışaram, görək, o nə deyir. Hər halda atanla əminin razılığı gərəkdir." Anamın onu hətta o vəziyyətdə bəyənməyi işin yarısı idi və son sözü atam deməli idi. O, həmişə məşvərətə əhəmiyyət verirdi və böyük bacım ailə quranda da böyük əmimlə məsləhətləşmişdi. İndi isə mənim növbəm idi və bilirdim ki, atam bu məsələyə ciddi yanaşır.

Nəhayət, atam axşam işdən evə qayıtdı. Qulaqlarımı şəklədim ki, görüm, nə vaxt bu haqda söz açılır. Həmişəki danışıqlardan sonra anam sözə başlayaraq onun fikrini bilmək istədi. Atam dedi: "Mən ki, tanımıram. Siddiqənin elçisi öz şəhərimizdən olsa belə nə qədər araşdırandan sonra razılıq verdim. Bu ki, kermanlıdır və tanış deyil." Anam da onun pasdar və Zərəndin sepah komitəsində işlədiyini dedi.

Gecə atam əmimə zəng edərək onun fikrini soruşdu. Əmim qəti razılaşmayaraq dedi: "Öz bacı-qardaşımın oğulları hərbiçidir, hərbiçi adam hər gün bir yerdədir, heç

vaxt bir yerə bənd ola bilmir və mənzili həmişə çiynindədir. Məsələn, Əkbərin güzəranından xəbərin var, bir gün Zahidanda, bir gün Kermanşahda, bir gün burda, bir gün ordadır! Adamın ciyər-parası yanında olsa, başını asudə balışa qoyar. Nəinki daim iztirab içində uşağım harda, nə işlə məşğul olduğunu və başına nə gəldiyini fikirləşərək dərd çəkəsən!" Ondan sonra atam həyətdə gəzişərək deyirdi: "Haqqımızda necə istəyir fikirləşsin! Qapıya peyğəmbər gəlməyib ki, geri qaytara bilməyim! Hərbiçi, yəni bir yerdə ev-eşiyin yoxdur və bu kifayətdir! Olmaz, vəssalam!"

İçim qəribə hislərlə alışıb-yanırdı. Əmin idim ki, Allah nə vaxtsa bir qapı açacaq. Amma bu dəfə nədənsə sevimli adamlarımın arasında unudulduğumu anlaya bilmirdim. Valideynlərin övlada qarşı qayğı, məhəbbət və nigarançılığı ehtirama layiq olsa da, qəlbim Əbdülmehdiyə könül bağlamışdı. Daxilimdə indiyədək duymadığım anlaşılmaz sıx və sirli əlaqə yaranmışdı və məşuqun aynasında əksimi gördüyüm son dərəcə dərin və güclü sevgiyə düçar olmuşdum. Otağın bir küncündə başımı dizlərimə qoyaraq qəmə batmışdım. Birdən özümü dümsükləyərək dedim: "Bəlkə, atam elə şey bilir ki, mən bilmirəm! İlahi, bu nə hisdir, qəlbimə düşüb?! Birdən, səhvə yol versəm, onda necə?!" Başımı qaldırıb, səmaya nəzər saldım. Qəlbim mənə toxtaqlıq verdi: "Xeyir, səhv eləmirsən! Sən hətta onun üzünü belə görməmisən! Bu ilahi bir hisdir!" İndiyədək elçilərim çox olduğu halda amma heç biri məni fikrə salmamışdı. Atamın niyə razı olmadığını anlamırdım və onu necə qane eləməyi düşünürdüm. Bir qayda olaraq valideynə hörmət məsələsi artıq söz-söhbətə icazə vermirdi. Odur ki, onların razılığına ümid bəsləyərək intizar çəkməli idim.

Anam nigarançılığını sükutla bildirirdi. Hər dəfə gözü mənə sataşanda üzünü çevirərək işi ilə məşğul olurdu. Hər axşam qaranlıq çökəndən sonra gözüm səmaya dikilərək sayrışan ulduzları seyr edir, neçə günlük xoş xatirəm tez-tez gözümün önündən ötərək keçirdi. Dəfələrlə öz-özümə deyirdim: "Axı, həmin gün o evdə nə baş verib?! Görüşümüz yalnız tanışlıq üçün idi! Başını o qədər aşağı dikmişdi ki, hətta simasını belə düz-əməlli görə bilməmişdim! Arada hətta ürəyəyatan bir kəlmə belə kəsilməmişdi! Onda, bəs, hansı pak hissə görə bu qədər məftun və sehrlənmişdim!" Bacımın qabağıma gətirib qoyduğu xörəyə əhəmiyyət vermir, düyü dənələri ilə oynayırdım. İştahım tamam pozulmuşdu. Birdən qapı açıldı, anamın kölgəsi üzümə düşəndə, istər-istəməz ayağa qalxdım. Əli ilə işarə elədi ki, oturum və mən də oturdum. Baharın sərin, təravətli mehi otağı doldururdu. O, qayğıkeşliklə yanımda əyləşərək dedi: "Bala, atanın fikrini nəzərə al! Çox güman ki, sənin gələcəyini fikirləşir! Hərbiçi kişidən evdarlıq gözləmə, çöl adamıdır, hara getsə, boğçanı yığıb dalınca düşməlisən! Ürəyin nə qədər geniş olsa da, axır, tab gətirməyəcəksən! Qürbət və darıxdırıcı halları sözlə ifadə eləmək olmaz..." Anam düz deyirdi. Hər hansı dövlət məmuru əmrə tabedir. Hara ezam olunsa, gedəcək; istər qərb olsun, istər şərq və axırda tək qalmalısan. Əmim qızının nə çəkdiyini yaxşı bilirdim. Qayğılı sözlərini bir qədər dinləyəndən sonra soruşdum: "Özün onu yaxından görüb tanış oldun! Səncə, ona görə qürbətin çətinliklərinə dözməyə dəyər?" Anam fikrini cəmləyib sözünü deyincə, atam da içəri daxil oldu. Cəld ayağa qalxdım. Qəribə baxışla məni süzməyə başladı. Elə bilirdim belə deyəcək: "Mən sözümü demişəm! Yox ki, yox, vəssalam!" Sonra üzünü anama tərəf çevirərək dedi:

"Qardaşı Məhəmməd deyir ki, bacımın bu qədər elçidən sonra yalnız o cavanı bəyənməyi əbəs deyil. Sən də deyirsən ki, mənim də ürəyimə yatıb. Qardaşımla bir daha danışdım. Qərara gəldik ki, kürəkəni Əkbər bu məsələni dəqiq araşdırsın. Amma..." Atam "amma"nı çox qəti söyləyərək belə davam etdi: "Amma özün bilirsən ki, mən qız ərə vermə məsələsində çox ciddiyəm! Əlimdən gələni edəcəyəm ki, qızımı gözübağlı ərə verməyim! Ondan sonrası Allaha qalır!" Ata evin dirəyidir. O, bundan qabaq böyük bacımı da soyuqqanlılıqla hər şeyi ölçüb-biçərək ərə vermişdi və işini təcrübəsi əsasında görürdü. Ata qızı ərə verəndən sonra daha hər şeyə göz yummalı və kənardan himayə etməlidir. Sözlərinə qulaq asdıqca onu çətin günlərimdə söykənə biləcəyim şəxs hesab edirdim. Zöhrədən aldığım Əbdülmehdinin qısa tərcümeyi-halı (Əbdülmehdi Məğfuri, yaşı 24, ali-təhsilli, atasının adı Əhməd, doğulduğu yer Kerman, Zərənd sepah şöbəsinin müdiri) yazılmış kağızı ovcuna qoydum. Atam kağızı alıb, papağını çevirərək otaqdan çıxdı və "bismillah" deyərək mağazaya tərəf yollandı.

Əlim heç bir işə yatmırdı. Əkbərdən cavab gəlincə sanki bir ömür sovuşmalı idi. Axır, birtəhər qollarımı çırmalayıb, evin sil-süpür işinə başladım. Hər halda başımı bir işlə qatmalı idim. Öz otağımdan başlayaraq bir-bir otaqları səliqə-sahmana saldıqca evdəkilər təəccüblə mənə baxırdılar. Anam xasiyyətimə bələd idi və bilirdi ki, hər şeyi içimə salıb gizlədə bilmirəm, həmçinin istəmirəm qonaq-qaranın qabağında nisgilli və qəlbiqırıq görünüm. Həmişə bütün vücudunla getdiyin yoldan geri qayıtmağa fürsət var ikən, mənə elə gəlirdi ki, geri qayıtmağa yolum yoxdur. Çünki bu qərarımda heç bir hissə qapılmamışdım. Bəlkə də ruhum hədsiz genəldiyindən hislərim qələm və

sözə sığışmırdı, bəlkə də qəlbdən daha yüksək zirvəyə sığınmalı idim. Evin işləri də tikinti və təmir işləri kimi heç vaxt qurtaran deyil. Ev nə qədər yeni olsa da həmişə görməyə iş var. Bizim evimizdə də heç vaxt iş-güc başa çatmazdı. Hava qaralarkən dəstəmaz alıb, namazlarımı qılmağa başladım. O qədər yorğun idim ki, namazdan sonra dərhal yuxuya getdim və bir də sübh çağı məhəllə məscidindən yayılan azan səsinə ayıldım. Namaz qılmaq üçün ayağa qalxıb, səmaya nəzər saldım. Baharın gömgöy aydın gecələrində sayrışan parlaq ulduzlar gözləri qamaşdırırdı...

Günlər ardıcıl olaraq gəlib keçdikcə yavaş-yavaş anlar da nigarançılıqlarla bir-birinə düyünlənirdi. Amma nədənsə daxilən arxayın idim. Dörd gündən sonra atam həmişəki kimi axşam yorğun halda işdən qayıdaraq qapıdan içəri ayaq basanda, mənim mənalı salamımla qarşılaşdı. Salamın cavabını verib, yanımdan ötdü. Əlimdə kitab ətrafa nəzər saldım. Bu neçə gündə hər yer tər-təmiz olmuşdu və hamısını özüm eləmişdim. Çox da ev işlərinə əl vurmadığım və başım əsasən hövzə dərslərinə qarışdığı halda əməlli-başlı evdar qadın olmuşdum. Anam həmişəki kimi eyvanın kənarında samovara od salmışdı və isti, təzə çörək və bozbaşın iyi həyəti bürümüşdü. Xörəklər çəkiləndən sonra hamı süfrə başına yığışdı. Hələ birinci tikə boğazımdan ötməmiş qardaşım Məhəmməd atama baxaraq soruşdu: "Əkbərdən xəbər çıxmadı?" Atam sinidən bir ovuc göyərti götürüb dedi: "Niyə, çıxdı!" Sanki tikə boğazımda ilişib qaldı və halımı hiss edən atam ardınca dedi: "Gəlin, görək, kim imiş!? İndiyədək harda olubmuş!?" Bütün gözlər təəccüblə ona dikəldi. Məhəmməd yenə maraqla soruşdu: "Nə olub, ata? Olmaya, fikrin yüz faiz dəyişib?" Atam bir qədər

arxayınlıqla gülümsədi, cavab verməyib, üstündən keçdi. Yeməkdən sonra süfrədəki qab-qacağı yığışdırıb yumağa başladım. Hər şeydən əvvəl atamın nə eşitdiyini bilmək istəyirdim. Yalnız onu öyrənə bildim ki, Əkbər özü gəlib, bu haqda ətraflı danışmalıdır.

Ertəsi gün rəfin qabağında dayanıb, kitablardan birinin səhifələrini vərəqləyirdim. Birdən qapının zəngi çalındı, salam və hal-əhval səslərindən anladım ki, əmimlə kürəkəni Əkbərdir. Adət üzrə gəlib, eyvanın ortasında sərilən xalça üzərində əyləşdilər. Neçə dəqiqə çəkən ilkin danışıqdan sonra əmim söhbəti açaraq dedi: "Əkbər onun adını eşidən kimi tanıdı. Hərbi xidmətdə onun komandiri olubmuş..." Hələ əminin sözü başa çatmamış Əkbər söhbətə qoşularaq dedi: "Elədir! Həsən dayı onun ad-familiyasını deyən kimi fikirləşdim ki, əgər bir zaman əsgərimiz olan həmin şəxsdirsə, onda əladır! Dərhal adresini öyrənib, araşdırmağa getdim. Uzaqdan onu görəndə, artıq qəti əmin oldum. Dayı, sözün qısası, çox yaxşıdır və daha araşdırmağa ehtiyac yoxdur! 1978-ci ildə (inqilabdan qabaq) "Ləvizan" hərbi hissəsində rabitə xidməti vahidinin üzvü idi və gizli xəbərləri inqilabçılara ötürürdü! Azan vaxtı həmişə ucadan azan verərdi![1] Komandirlər onu rəftarlarına görə incitsələr də heç vaxt əməllərindən daşınmazdı! İnqilabın qızğın çağında İmam Xomeyninin göstərişinə əsasən əsgərlər hərbi hissələri tərk etməli idilər! O zaman hərbi hissədən qaçan əsgərlərdən biri də Əbdülmehdi olub! Onun da adı edama məhkum olan əsgərlərin siyahısında idi! Bilirəm ki, siz mərifətli və

---

[1] Dostlarından biri bu haqda belə nəql edir: "Bir dəfə Əbdülmehdini kisəyə salıb, qarlı havada çölə atdılar ki, azan deməsin. Elə bil, onun vecinə deyildi və o vəziyyətdə də azan deməyindən əl çəkmirdi."

qanacaqlı adam axtarırsınız! Tam arxayın ola bilərsiniz ki, bu şəxsin doğruluğunda zərrə qədər şəkk-şübhə yoxdur!" Atam onun sözlərini maraqla dinlədikcə sanki çiyinlərindən yük azalır və hər dəfə başını razılıq əlaməti olaraq tərpədirdi. Nəhayət, qonaqlar gedəndən sonra qərara gəlindi ki, Əbdülmehdi bir daha dəvət edilsin və atam özü də onunla yaxından tanış olub, söhbət etsin. Beləcə, görüşlərin sayı artdı və yazıq Əbdülmehdi bu dəfə atam və qardaşlarımla görüşməli idi.

# Beşinci fəsil

## Xoş təsadüf

1981-ci il baharın ilkin günləri idi. Günəşin zərif şüaları ilə bərabər genələn kölgələrin hərəkətini hiss edirdim. Axşamüstü saat beş-altı radələrində qapı döyülərkən əl-ayağa düşərək tez özümü mətbəxə saldım. Qardaşım Məhəmməd qapını açanda gözlənilmədən keçmiş dostu ilə qarşılaşdı.[1] Əbdülmehdi idi və atamla danışmaq üçün gəlmişdi. İstər-istəməz hər ikisi qollarını açaraq qucaqlaşdılar. Elçilik məsələsi unudularaq söhbət yalnız xatirələrə həsr oldu və bu haqda bir kəlmə kəsilmədən Əbdülmehdi evimizi tərk etdi. Həyəcanla otağa girib, deyilənləri eşidərkən mat qaldım. Atam hörmətlə gələcək kürəkənini tərifləyirdi və ona neçə nəfər yaxın adamın

[1] Məhəmmədlə Əbdülmehdi hələ inqilabdan əvvəl tanış idilər və "Bəhailiyə qarşı birlik"də fəaliyyət göstərirdilər. Məsələn, o vaxt "Pepsi-kola" şirkətinin şüşələrini sındıraraq fəaliyyətinin tətili hadisəsi onların cəsarətli hərəkətlərindən biri idi.

xatircəmliyi kifayət idi. Səmimi söhbətlərdən görünürdü ki, artıq valideynlərim onu ailəsi ilə elçiliyə dəvət etmək istəyirlər.

İlk söhbət açılan gündən elçilər gələnədək boğazımdan neçə tikədən artıq keçmədi. Səhər atam otağından çıxıb, əsnəyə-əsnəyə əlinin arxasını ağzına tutaraq "Ha-ha-ha, əgər qızımı istəyirsə, mehriyədə şəxsi evi olmağını şərt kəsməliyik!" – deyərkən ürəyim əsdi. Bilmədim, o günü axşamadək necə keçirdim. Hava qaralandan sonra Əbdülmehdi ata-anası, Həbib əmi və əmisi arvadı ilə bizə gəldilər. Danışıqlar zamanı tərəflər arasında "mehr"in[1] təyini ilə bağlı söz-söhbət çox uzandı. Atam ayrıca həyət-baca sahibi olmağını şərt kəsir, Əbdülmehdi isə açıq şəkildə olmadığını bildirirdi. Atam təkidlə atasının Sərasiyab və Kermanda ev-eşiyi olduğunu qeyd etsə də atası belə şərtlə razılaşmaq istəmirdi. Söhbət uzanarkən əmisi arvadı otaqdan çölə çıxıb, üzünü mənə tutaraq dedi: "Atan hökmən ev-eşiyi şərt kəsir, Əbdülmehdi isə razılaşmır!" Mən də dedim: "Ona deyin ki, mən mehrə bənd deyiləm, dəyəri nə qədər olsa belə özünə bağışlayacağam! Mənə həyatda mehr-məhəbbət təmtəraqlı maddi mehrdən üstündür!" Sözümdən sonra o, Əbdülmehdini yanımıza çağırdı. Başımı aşağı salaraq dedim: "Atam hər nəyi şərt kəsirsə, qəbul edin, mən bağışlayacağam!" İçəridə hələ mübahisə davam edərkən xala dözməyib, atasını da çölə çağırdı. Bu dəfə Əbdülmehdi atasına belə dedi: "Ata, qoyulan hər şərti sözsüz qəbul edin, qız sizə bağışlayacaq! Özüm sonradan nə vaxt ev sahibi olsam, onun adına keçirəcəyəm!" Beləliklə, atası Sərasiyabdakı evindən keçməyə razılaşdığı

[1] Şəri kəbin haqqı.

halda bu dəfə atam razılaşmadı. Ayaqlarını bir başmağa dirəyərək dedi: "Ya Kermandakı ev, ya da xoş gəldiz!" Uzun sözün qısası, nəhayət, bir cild Quran, əlli min nağd pul və Kermandakı evin üçdə biri ilə mehrimiz təyin edildi.[1] Daha sonra atam Əbdülmehdinin özü ilə başqa şərt kəsərək bildirdi ki, altı ay ərzində özünə başqa peşə tapmalıdır. Onun bu şərtə razı olmağı ən çox mənə təəccüblü gəldi.

Bu minvalla nişanlandıq və çox keçməmiş qohum-əqrəba arasında başqa söz-söhbətin şahidi olduq. Çoxu kürəkənin ütüsüz əyin-başı, qiyafəsini və sairi masqara edərək deyirdi: "Kül ağlına, lap çobanla evlənmisən!..." Bunlara baxmayaraq özüm seçimimdə zərrə qədər yanılmadığımı yaxşı bilirdim.

Nikah və toyumuz qarşıdan gələn ordibehişt ayına düşürdü. Odur ki, adət üzrə hər iki ailə toy tədarükünə başladı və biz də – iki nişanlı – qadınlardan ibarət bir neçə yaxın adamlarla toya lazım olan paltar və zinət əşyaları almaq üçün dükan-bazara yollandıq. Yolda bir dükandan o birisinə keçir, bir-birimizlə məsləhətləşir, biri bir şeyi təklif edir, ya bəyənirdisə, o birisi bəyənmirdi. Axır, bir cüt ayaqqabı, neçə metr çadralıq parça, bir kofta və bir qızıl üzük alaraq geri qayıtdıq. Qayıdandan sonra zehnimi məşğul edən daha başqa ciddi suala cavab axtarmağa çalışırdım. Fikirləşirdim: "Görəsən, ailə həyatımı bölüşdüyüm şəxs mən düşündüyüm kimidir? Rəftarı dəyişməyəcək? Təyin etdiyi hədd-hüdudların dairəsi nə qədərdir və nə vaxtadək davam edəcək? Ürəyə yatan cazibəli söhbətinə görə onu sanki illərlə tanıdığımı hiss etsəm də bütün üstün cəhətləri sualıma cavab vermirdi..."

---

[1] Əlbəttə, evləndikdən sonra hamısını geri bağışladım.

Təqvimə əsasən, nikahımız ayın beşi (25 aprel, 1981) mübarək cümə gününə təyin edilmişdi. Əvvəlcə, Əbdülmehdinin qohumlarından bir qismi gəlib çıxdı və cümə namazından sonra özü də vəkillə (nikahı kəsən) gəldi. Adət üzrə nişanlı qız nikahdan qabaq əyninə yaşıl, ondan sonra gəlin paltarı geyinməli idi. Yaşıl paltarımı geyinib məclisə daxil oldum. Əqd xütbəsini Ayətullah Cəfəri oxudu və nikahımız kəsilərək bir-birimizə məhrəm olduq.

Neçə gündən sonra yerli adət ənənəmizə uyğun olaraq toyumuz çox sadə şəkildə evimizdə təşkil edildi. O gün güclü leysan yağışı yağırdı. Anamın əhvalı pozulduqca mənə "Nə qədər qazmaq yemisən, qız!" – deyərək deyinirdi. Mən isə sözlərindən incimədən gülümsəyirdim. Həqiqətən, yağış kəsilmək bilmirdi. Günortayadək toy və qonaqlıq bizdə – qız evində keçdi, davamı isə axşam bəy evində idi. Mərasimin sonunda Əbdülmehdi gəlini öz evinə aparmaq üçün atamdan icazə aldı. Atam və qardaşlarım məni yağışın altında yola salarkən anam qollarını boynuma salıb zar-zar ağlayırdı. Günortadan sonra təxminən saat 4-də qardaşımın maşınına minib, yola düşdük. Qardaşımın yoldaşı və qayınanamla yoldaşımın xalası da mənimlə birgə gedirdi. Əbdülmehdi isə başqa maşında idi. Nədənsə, şirin və giziltili bir iztirab qəlbimi titrədirdi. Bir saatdan sonra gəlib Kermana çatdıq. Kişilər atasının evinə və qadınlar isə əmisinin evinə yığışmışdılar. Evdə bütün qonaqlar bizim gəlişimizi gözləyirdilər. Qohumlarımdan qardaşımla yoldaşı və iki əmi qızım və nənəm məni müşayiət edirdilər.

Adət üzrə valideynlərim üç günədək bəy evinə gələ bilməzdilər. Nəhayət, axşam qonaqlıq başa çatandan sonra hamı evi tərk etdi. Ondan sonra Əbdülmehdi ilə birgə

atasının evinə üz tutduq. Donumun ətəyini qaldırıb, ayaqlarımı ehtiyatla yerə qoyurdum ki, palçığa batmasın. Gözümədək enən güllü çadra və üzümün önünü tutan fata qarşımı görməyə mane olurdu. Bütün vücudumu xəcalət bürümüşdü. Kənarımda aram-aram atdığı biçimli addımları mənə toxtaqlıq verirdi. Odur ki, rahat yerimək üçün əlimi çadramın altından uzadaraq pencəyinin ucundan tutmağa cəhd etdim. Amma zəhmli baxışı ilə ürəyim üzüldü. Əməlimə görə keçirdiyim hədsiz xəcalət hissimi duyaraq dedi: "Gecə birbaşa özüm gəldim ki, başqa naməhrəmin gözü yoldaşıma sataşmasın! Bəzən insan ürəyini eşqin üzərinə qoyaraq pillə-pillə Allaha doğru yüksəlməlidir!" Deyəsən, mən də yüksəlmək üçün birinci pilləyə ayaq basırdım. Yolboyu dodaqaltı nəyisə zümzümə edirdi. Bir anlıq əllərindən tutub, nəyi zümzümə etdiyini soruşmaq istəsəm də cürətim çatmadı. Çünki o anda ürəyim sərçə ürəyi kimi həssas idi və bir çırtma ilə keçinərdi.

Evlərinə çatıb, otağına daxil oldum. İçəridə həyətə doğru açılan ürəkaçan böyük pəncərə vardı. Aramızda qəribə həya və utancaqlıq hökm sürürdü. Əlbəttə, daha çox mən utanırdım. "Gəlin paltarı ilə gəlməsəydin, daha yaxşı olardı!" – deyərkən ara bir az səmimiləşdi. Təqribən yarım saatadək söhbət elədi. Daha sonra namaz qılıb, Allaha şükür etməyə başladı. Mən də kənarında namaz qıldım. Alnını möhürə qoyub, şükür etdikcə mən də onunla bərabər şükür edirdim...

Ertəsi gün Əbdülmehdi nənəm və əmim arvadını geri aparmaq və həmçinin atama bir oğul kimi minnətdarlığını bildirmək üçün Zərəndə yollandı. Özüm isə yatağımda uzanıb, fikrə daldım. Yeni evdə qərib olduğum üçün saatlar mənə ağır keçirdi. Günortadan qabaq əmim qızları

mənə baş çəkmək üçün yanıma gəldilər. Onların neçə saat kənarımda qalmağı mənim üçün qənimət idi.

O axşam Əbdülmehdi evə çox gec qayıtdı. Məni o vaxtadək tək qoyduğuna görə əlindən dilxor idim. Qapını döyərkən üzünə qapını açmadım. Gözlərimin yaşı qurumurdu. Anası da narahat olaraq təəccüblə səsləndi: "Qız, bu nə hərəkətdir, qapını aç!" Əbdülmehdi isə xımır-xımır gülümsəyərək dedi: "İşin olmasın ana! Qoy, asudə olsun!" Bilirdi ki, qadın naz edər, kişi isə nəvaziş...

# Altıncı fəsil

## Bütün vücudu ilə

Evləndikdən sonra bir həftəni üzü həyətə doğru olan otaqda keçirdik. Səhərlər qapı-pəncərə açılarkən baharın xoş nəsimi adamın vücudunu oxşayırdı. Hiss edirdim ki, xoşbəxtliyin böyük qismi mənə nəsib olub. Əbdülmehdi elə anamın dediyi kimi, sözlə yox, gözəl davranış və rəftarı ilə özünü göstərirdi. Yəni, o dövrün iddiasız mərd insanlarından idi. Belə ki, sadəlik, sədaqət, səfa və səmimiyyət və sair gözəl səciyyələrdə müştərək olub, belə əməlləri ilə yarışmağı hər şeydən üstün tutan sepahın xalis qüvvələri arasında onun kimilərinin sayı az deyildi. O, bu həftə ərzində səhər tezdən Zərəndə işə gedir, axşamlar da geri qayıdırdı. Həmişə dəstəmazlı olardı. Səhərlər ya pendir-çörək, ya soyutma yumurta, ya da südlü doğramac yeyərdi. Süfrədə neçə cür xörək olsa belə yalnız biri ilə kifayətlənərdi. Heç vaxt çay içməzdi və ona görə, anamın sifarişi ilə özünə bal qatılmış bitki çayı hazırlayardım. Anası təzə evlənən oğlu və gəlininə qayğı göstərmək üçün

əlindən gələni edirdi. Onun ata və anasına göstərdiyi ədəb və ehtiram həqiqətən təqdirəlayiq idi. Zamanından asılı olmayaraq hər biri içəri girərkən hörmətlə ayağa durar, hər dəfə salamlaşarkən əllərindən öpərdi. Heç vaxt onların qabağında ayaqlarını uzatdığını görmədim. Evə daxil olarkən əvvəlcə valideynləri ilə görüşüb, əllərindən öpər, onlardan qabaq oturmaz və oturduqda da dizləri üstə əyləşərdi. Həmçinin heç vaxt onlardan qabaq süfrəyə əl uzatmazdı. Hətta evdən çölə çıxdıqda da əllərindən öpməmiş ayrılmazdı. Ayrıldıqda da elə hörmətlə geri çəkilərdi ki, arxası valideynlərinə tərəf olmasın. Atası ilə söhbət zamanı fikir ayrılığı yarandıqda deyərdi: "Sizcə, belə desək, yaxşı olmaz?" Fikrindən daşınmadıqda isə nə əsəbiləşər, nə də etiraz edərdi. Atası ənənəvi mollalardan idi. Yəni əyninə əba-əmmamə yox, uzun pencək və başına çalma bağlayardı. Rövzəxanlıq edərdi, gözəl səsi vardı.

İki həftədən sonra Zərəndə qayıdaraq bacım Siddiqəgilin yaxınlığında bir ev kirayə etdik. Anam bizə xalçadan tutmuş elektrik avadanlığınadək kifayət qədər cehiz hazırlamışdı. Əbdülmehdi karton dolu əşyaları maşına yüklədikcə "Bu qədər avadanlıq nəyə lazımdır?" – deyərək təəccüblə soruşduqda, anam gülümsəyərək dedi: "Bala, yaşayış üçün lazımdır, bu nədir ki! Hələ artıq almağa Zəhra özü razı olmadı." Hər halda çox isrardan sonra bir qismini başqa bacılarıma saxlamaq qəsdi ilə götürmədi. Ondan sonra cehizləri yeni evə yerləşdirib, yeni həyata başladıq.

Aramızda cəmi iki il yaş fərqi vardı. Mən 1958/12/22-də, o isə 1957/01/25-də dünyaya gəlmişdi və bu da məni ona yaxınlaşdırırdı. O, səhərlər sübh azanından qabaq oyanıb, raz-niyaz və ibadətə başlayar, səhərdən günortayadək işdə olub, günorta evə dönər və yeməyini

yeyəndən sonra bir daha işə gedib, axşam geri qayıdardı. Mən də evdə öyrəndiyim evdarlığa dair təcrübəm sayəsində ailəmizin asayişini təmin etməyə çalışırdım. Günüm biş-düş və yır-yığış işləri ilə keçərdi. Bir dəfə "maş-plov" bişirmişdim. Amma tərslikdən həm duzlu idi, həm də dibi yanmışdı. Yenidən başqa bir yemək bişirməyə də vaxt yox idi. Əbdülmehdi işdən qayıdandan sonra həmişəki kimi dəstəmaz alıb, böyük səmimiyyətlə üzünü qibləyə tərəf tutaraq əyləşdi. Bilirdim ki, acdır və birgə yemək yeməyə hazırlaşır. Xəcalət içində dedim: "Xörək yanıb, həm dadı pisdir, həm də duzludur!" Gülümsəyərək dedi: "Xanım, nə olar, gətir yeyək." Süfrəni sərib, xörəyi çəkdim. Ağzına bir çimdik duz atıb, "Bismillahir rəhmanir rəhim" – deyərək yeməyə başladı. Birdən, "Xeyir ola, sən niyə yemirsən?" – deyə soruşarkən dedim: "Axı, bunu necə yeyirsən?" Dedi: "Əvvəla, Allahın nemətidir, ikincisi də yoldaşım bişirib!" Mən isə "Əsla yeyə bilmərəm!" – dedim. Lakin özü həvəslə yeyərək təəccüblə mənə baxırdı. Xörəyin qalanını atmaq istədiyimi görüb, məlahətli səsi ilə "Bunları çölə atma ha, özüm yeyəcəyəm!" – deyərkən soruşdum: "Mehdi, doğrudan, sən bunu necə yeyirsən?!" O isə belə cavab verdi: “Mən yeməyi ləzzət məqsədi ilə yox, bədənimdə işləməyə qüvvə olsun deyə yeyirəm. Əgər bu baxışla yesən, yanmış və ya duzlu olduğunu hiss etməzsən.” Daha sonra özü qab-qacaq və süfrəni yığışdırıb dedi: "Sən zəhmət çəkib bişirib, yorulmusan, mən özüm onları yuyaram."

Çox istəyirdim ki, ilk səfərimiz imam Rzanın (ə) hərəminə ziyarətlə başlasın. Elə onun da ürəyi ziyarətə can atırdı. Qərara gəldik ki, birgə həyatın başlanğıcının ilk ayı ziyarətin şirinliyi ilə qarışsın və belə də oldu. Anası o vaxtadək Məşhədə ziyarətə getməmişdi. Məndən anasının

da bizimlə birgə gəlməyinə razı olmağımı soruşarkən dedim ki, əlbəttə, gəlsin. Beləliklə, anası ilə bərabər kiçik qardaşını da gətirəndən sonra avtobusa minib, yola düşdük. Ürəyim karvanın önündə gedərək ardıcıl salavat demək üçün yaman darıxmışdı. Bir-birimizin kənarında əyləşib, yol gedərkən belə səmimi həyatı əldə etmək üçün çəkdiyim məşəqqətə razı idim. O, yol boyu daim nəyi isə dodaqaltı zikr edir, mən də özümü dünyanın ən xoşbəxti hiss edirdim.

Heç bilmədik, bir gün yarımlıq yol necə gəlib keçdi. Avtobus şəhərin girişinə yaxınlaşdıqca hamı bir ağızdan "Allahummə səlli əla Muhəmməd və ali Muhəmməd, və əccil fərəcəhum" – deyərək hədsiz sevincini çatdırırdı. Uzaqdan parlayan qızıl günbəzə və uca minarələrə tərəf yaxınlaşarkən boğazım quruyur, gözlərimdən damla-damla yaş süzülürdü. Düzü, söz və qələmlə bəyanı mümkün olmayan hislərə qərq olmuşdum və onun halı mənimkindən də betər idi.

Birgə müqəddəs ziyarətgaha sarı addımlayaraq giriş salonundan içəri keçdik. Əbdülmehdi zərihin aşağı səmtindən hərəmə yaxınlaşıb dayandı və içəri daxil olmaq üçün "izn" zikrini oxumağa başladı. Zikri oxuyarkən yerində çox gözlədi və nəhayət, yaşlı gözlərlə hərəmə daxil oldu. İrəli addım atdıqca heç bir sütuna söykənmədən İmama (ə) xas ziyarətnaməni aşağı tonla oxuyur, hədsiz təvazökarlıqla dizi üstə əyləşərək qəlbindəkiləri o həzrətə ərz edirdi. Özüm də əmin idim ki, məsum şəxs insanın qəlbindən keçənləri daha yaxşı eşidir.

Məşhəddə olduğumuz müddətdə Əbdülmehdinin rəftarı dəyişmişdi. Özünü daha mülayim və səmimi aparır, yemək-içmək və sovqat tədarükündə əliaçıqlıq göstərir və bizi sıxışdırmırdı. Deyirdi: "Daim gözün dükanlarda

olmasın, çox vaxt çeşidlər və bər-bəzəklər adamı aldadır!" Hər halda istədiyimi əsirgəmədən alır, əsas olaraq günahdan qorunmağı tapşırırdı. Hətta bir şeyi bəyənib alarkən naməhrəm əlimi görməsin deyə ona çadranın altından işarə edirdim. Demək olar, bizim həyatımızda naməhrəmlə rabitə anlayışı yox idi və o, naməhrəmlə ünsiyyətdən pəhrizi qadının bəzəyi və isməti hesab edirdi. Hərdən özü də müəyyən sovqatlar alır və hədiyyə məsələsinə xüsusi diqqət yetirirdi. Hər kəsə uyğun hədiyyə alaraq deyirdi: "Möminlərin qəlbləri bir-birinə calandıqca "kür" suya çevrilər və kür su heç vaxt nəcislə bulanmayıb, bulananları da paklayar. Amma hər biri təklikdə az su hökmünü daşıyır və nəcisə toxunduqda aludə olar." Həqiqətdə bu səfər mənim Əbdülmehdinin mənəvi xarakteri ilə tanışlığımın başlanğıcı idi...

Son günlərdə tanışlardan biri tərəfindən qonaq çağırılmışdıq. Əbdülmehdi evə gələndən sonra söz açaraq dedim: "Anam zəng vurmuşdu. Deyirdi ki, bu axşam filankəsgilə qonaqsınız, mən də razılıq vermişəm." Başını aşağı salıb, bir söz demədi. Özü ünsiyyət və "sileyi-rəhm" kimi məsələlərə xüsusi əhəmiyyət versə də ikrah hissi ilə qonaq getdi. Hətta yolda dedi ki, kaş, söz verməzdin. Həmin şəxsin evinə yaxınlaşanda narahatçılığı üzündə tam müşahidə olunurdu. Heç vaxt çay içmədiyi halda, bu məsələ ona çətin olmasa da hər hansı süfrə kənarında oturub, hər şeydən imtina etməsi çətin idi. Qayıdandan sonra da üzündən narahatlıq hisləri çəkilmirdi. Elə bil, çiyinlərinə ağır yük çökmüşdü. Mən yorğun olduğum üçün yatağıma uzandım, o isə qərarsız halda otaqdan çölə çıxdı. Çox çəkdiyinə görə nigaran olaraq yerimdən qalxıb, hər tərəfə baş çəkdim. Heç yerdə yox idi. Həyət qapısının açıq olduğunu görüb, qapıdan çölə boylandım. Gördüm ki,

küçədə var-gəl edir. Səbəbini soruşanda, dedi: "Axşam onlarda yediyim yemək ruhumda çox pis təsir qoyub. Sən get yat, mən bir azdan gəlirəm." Mən də ona qoşularaq get-gələ başladım. Hiss etdim ki, dodaqaltı zikr deyir, istiğfar edir. Sonra mənə tapşırdı ki, heç vaxt onun adından kiməsə söz verməyim. O axşam səhərədək oyaq qalaraq çox əziyyət çəkdi. Daha sonra yediyi yeməyin miqdarına uyğun xüms ödədi.[1] Bu haqda deyərdi: "Halal tikə qəlbi nurlandırır, haram isə zülmətə döndərərək şeytanlar ocağına çevirir. Həzrət Peyğəmbər (s) buyurub: Allah tərəfindən bir mələk hər axşam Beytül-müqəddəsə enib, belə nida edər: Haram yeyən şəxsin nə müstəhəb, nə də vacib əməli qəbul olmaz və həmin tikənin təsiri uzun müddət ruhunda təsir qoyar!"[2] Çox vaxt mən deməmiş hər

---

[1] Adətən, hər hansı xüms ödəməyən kəsin süfrəsindən çarəsizlik üzündən bir şey yeyərkən hökmən onun xümsünü ödəməli idi.

[2] Haram azuqə qəlbi qaraldır, ruhu zülmətə qərq edir və əxlaqi səciyyələri süstləşdirir. Məsələn, bununla bağlı aşağıda qeyd edilən tarixi hadisələrdən biri diqqəti cəlb edir:

"Abbasi xəlifəsi Mehdinin saray təşrifat xidmətinin rəisi Fəzl bin Rəbi belə nəql edir: Bir dəfə dini elmlər üzrə tanınmış böyük alim Şərik bin Abdullah Nəxəi xəlifənin görüşünə gəlir. Xəlifə onu hörmətlə qarşılayaraq qarşısına üç şərtdən birini seçməyi təklif edir; ya paytaxtın ədliyyə hakimi olmalı, ya xəlifənin övladlarına dini təlim verməli, ya da ki, onunla bir süfrədə yemək yeməlidir. Şərik o vaxtadək saray adamları ilə görüşdən pəhriz edir və çalışırdı ki, heç vaxt ətəyi belə aludə mühitə bulanmasın. Odur ki, üzrxahlıqla hər üçündən imtina edərkən xəlifə üzrünü qəbul etməyib deyir: "Hökmən üçündən birini seçməlisən!" Şərik bir qədər fikrə gedəndən sonra xəlifə ilə bir dəfə süfrə başında oturmağı asan güman edərək onunla birgə yemək yeməyə hazır olduğunu bildirir. Bu zaman xəlifə ən dadlı xörəyi – əlbəttə haram – hazırlamağı göstəriş verir. Süfrəyə cürbəcür yeməli təamlar düzüləndən sonra hər ikisi yeməyə başlayır. Yeməkdən sonra baş aşpaz xəlifənin qulağına belə pıçıldayır: "Bu kişi yediyi yeməkdən sonra heç vaxt xoşbəxtliyin üzünü görməyəcək!" Elə

hansı yeməyin pak, ya napak olduğunu duyurdu. Mən heç cürə anlaya bilmirdim, amma ona aydın idi və çox tez hiss edirdi. O gecə şübhəli yeməyə görə keçirdiyi ruhi əzab mənə ciddi dərs oldu. Qərara gəldim ki, bir daha özüm, ya anam Əbdülmehdinin adından hər hansı dəvətə razılıq verməyək. Həmçinin anladım ki, ona hər hansı yemək və xörəyin dad-tamı mühüm deyil. Çünki qəlbinin gözü açıqdır, halal-harama riayət edir və hətta hər birini qoxusundan hiss edir.

Artıq evləndiyimiz gündən bir ay keçirdi. Səhər işə gedərkən dedi: "Bu gün dostlarla yığıncağımız var və axşama bizə qonaqdırlar." İndiyədək özüm tək evimdə qonaq qarşılamamışdım. Yaxşı öhdəsindən gələ bilməyəcəyimi düşünərək ona bacılarımdan birinin köməyə gəlməsini təklif edərkən dedi: "İndidən belə vaxtaşırı qonağımız olacaq, hər dəfə anana zəng edib, onu və ya başqasını köməyə çağırmaq olmaz! Bəlkə bir gün başqa şəhərdə olduq, onda nə edəcəksən? Hər nə hazırlasan, istər yaxşı, istər pis, mühüm deyil. Hətta özüm də sənə kömək edərəm." Ona evlənməzdən qabaq başımın dərslərə qarışdığını, otağıma çəkilərək yalnız dərs oxuduğumu, evdəkilərin yeməyimi hazırlayıb qapının ağzına qoyduqlarını, yalnız ramazan ayında və anam Məşhədə ziyarətə getdikdə bir işin qulpundan yapışdığımı, həmçinin böyük bacım köçməzdən qabaq evin bütün işlərini özü gördüyünü başa salaraq dedim: "Nəinki

---

o cür də olur. Belə ki, həmin görüşdən sonra Şərik o biri iki şərti də qəbul edərək həm xəlifənin övladlarına təlimə başlayır, həm də hakim olmağa razılıq verir. Hətta aylıq məvacibin məbləğinin təyini zamanı razılaşmayıb, sarayın mühasibatçısı ilə çənə döyərkən və o, Şərikdən "Axı, saraya nə mühüm şey satmısan?!" – deyə soruşarkən "Vallah, çox mühüm şey, bütün dinimi satmışam!" – deyir."

əlimdən bir iş gəlmir, sadəcə, indiyədək bu qədər qonaq qarşılamamışam." O da "Hər halda bir yerdən başlamalısan. Fərz elə, bu həmin ilk addımdır." – deyərək mənə ürək-dirək verdi. Hələ o gün günortadan sonra "Nəhcül-bəlağə" dərsimiz vardı. İşə gedərkən mənə dedi ki, dərsin yaddan çıxmasın. Mən də "Bağışlayarsan ha! Axşam qonağımız var, mən hələ heç nə etməmişəm və dərsə getməyəcəyəm." – deyərkən söylədi: "Əgər hər hansı qonaq-qaraya görə dinşünaslığı təxirə salmalı olsaq, belə qonaqlıq mənə lazım deyil! Hökmən dərsə get! Mən də işdən dalınca gələrəm və hər şeyi birgə tədarük görərik." Dərsdən sonra dalımca gəlincə artıq, Kermandan ailəsi ilə qonaq gələn dostlardan birini özü qarşılamışdı. Narahat olduğumu görərkən dedi: "Fikir eləmə, bunlar yad deyillər. Dərsin hər şeydən mühümdür və hər işin öz yeri var." Tədarük zamanı məsciddən azan səsi hər tərəfə yayılarkən dedi ki, qalan işlər namazdan sonraya qalsın. O vaxt təəccüblənsəm də bilirdim ki, namazı ilk vaxtda qılmağa ciddi əhəmiyyət verir və onun üçün ibadət hər şeydən irəlidir. Xülasə, səbziqovurma bişirməli olduq və yeri gəlmişkən çox dadlı oldu, həmçinin qonaqlıq da yaxşı keçdi. Qonaqlar gedəndən sonra bir anlıq rahat nəfəsimi dərərkən dedi: "Əgər dərsə getməsəydin, çox güman ki, xörək belə dadlı çıxmazdı. Adam Allaha görə addım atanda, Allah da ona yardım edir." Bununla belə, nədənsə, çox narahat görünürdü. Səbəbini soruşsam da bir söz demədi. Allaha şükür, dostları ilə birgə qonaqlığın səmimi keçdiyini vurğulayarkən, sadəcə, qabları göstərərək üstündən keçdi. Ertəsi gün dəfələrlə isrardan sonra dedi: "Dünən dostlardan biri qab-qacaq, pərdələr və toxunmuş xalçanın nisbətən dəbdəbəli olduğunu və bunun sadə pasdar həyatı ilə uyğun gəlmədiyini bildirərək camaat

yeməyə çörək tapmadığı halda belə bər-bəzəkli süfrə açmağımızı bəyənmədi." Sözlərindən mat-məəttəl qaldığımı görüb, başını aşağı saldı. Dözməyərək dedim:

– Süfrədə plov və bir qədər supdan başqa artıq şey yox idi! Evin avadanlığına gəldikdə isə, əvvəla, bunlar mənim cehizimdir və onlara pul verib almamısan! Deməli, istifadə etməliyik! İkincisi, pasdar olduğun üçün belə şeylərdən istifadəyə haqqın yoxdur?

– Lap yaxşı. Amma pərdələri açmalıyıq, üzərində keçmiş rejimə aid əlamət və naxışlar var. Neçə dəfə demək istəsəm də narahat olarsan deyə dillənmirdim.

– Nə olar, qoy sən deyən olsun! Amma verəcəyəm anama! Hələ ərə getməyən üç qızı var! Özümüzə sonra başqasını alarıq!

– Xalçalar!

– Bax görüm, mən elə ailədə böyümüşəm ki, ayağımızın altında həmişə əllə toxunmuş xalça olub, indi adətimi dəyişə bilmərəm! Əgər sənə xalçanın üstündə oturmaq çətindirsə, həsirin üstündə otur! Amma mən həsirin üstündə otura bilmərəm, bədənim ağrıyır!

Gülümsəyərək daha bir söz demədi. Mən də ardınca "Dəli şeytan deyir, get, bu sözü deyənin evinə bir baş çək! Görək, öz ev-eşiyi hansı vəziyyətdədir?!" – söyləyərək narahatçılıqla deyindikcə əhvalı pozulmadan məni dinləyirdi. O gündən sonra xalça yaraşıq kimi otağın ortasında qaldı və hərəmiz bir kənarında otururduq.

Həmişə işdən evə əldən-ayaqdan düşərək qayıdar, qayıdandan sonra da yorğun-arğın halda bir küncdə əyləşərdi. Bir dəfə maraqla soruşdum: "Məgər orda nə iş görürsən ki, rəngi-ruhun bu qədər dəyişilir?!" Cavabımda "Heç nə." – deyərkən yenə soruşdum: "Necə yəni heç nə! Bəs, niyə bu qədər yorğun olursan? Zarafatsız, orda nə işlə

məşğulsan? İşin pilləkənlərdən qalxıb-düşməkdirmi?" Dedi: "Elədir, pilləkənlərdən çıxıram, düşürəm!" Ondan sonra hər dəfə bunu soruşanda, elə deyərdi. Doğrusu, sepahın ictimai-əlaqələr şöbəsinin binası neçəmərtəbəli idi və Əbdülmehdi gün ərzində neçə dəfə pilləkənləri qalxıb-düşməli olurdu. Onun iş prosesindən xəbərim olmasa da amma Zərənd üzrə dini təbliğat və maariflənmə işində hədsiz rolu danılmaz idi. İdarənin ətraf divarlarını rəngləyərək hər yerini inqilabı nümayiş etdirən təsvirlər, şüarlar və gözəl xətlə İmam və böyük şəxsiyyətlərin siyasi, ictimai və əxlaqi kəlamları ilə yazıb doldurmuşdu. İş və fəaliyyət zamanı ictimai-əxlaqi ölçülərə ciddi riayət edər, çalışardı ki, boynunda heç kimin haqqı olmasın. Yadımda ikən, bir dəfə həmkarına neçə dəfə "onu gətir-bunu apar" – dediyinə görə onu üzünə bir şillə vurmağa məcbur etməyi yoldaşımın diqqəti cəlb edən səciyyələrindəndir. Yazıq təəccüblə "Axı, nəyə görə vurmalıyam?!" – deyə soruşarkən təvazökarlıqla "Vurmalısan!" – deyərək vurmağa vadar edir. Çarəsiz qalan həmkarı üzünə yavaşca bir sillə vurduqda, razılaşmayaraq deyir: "Daha möhkəm!" O da bir qədər möhkəm vuraraq soruşur: "Axı, bu hansı səhvə görədir?" Əbdülmehdi belə cavab verir: "Çünki sənə çox tapşırıq vermişdim!" Yaxud bir dəfə atamgilə qonaq getdiyimiz gün başım işə qarışdığı zaman bacıma "Zəhmət olmasa, mənə bir stəkan su gətir." – deyərkən, Əbdülmehdi ona eşidəcək tonda söylədi ki, gətirməsin. Pərt olaraq dedim: "Əlim işə bağlı idi, yoxsa özüm gedib içərdim!" Bacım mətbəxdən əliboş çıxandan sonra yoldaşım üzünü mənə tutaraq özünə bir stəkan su gətirməyi xahiş elədi. Narahat halda gedib, bir stəkan su gətirərək ona tərəf uzatdım. Təmkinlə dedi: "İndi otur, suyunu iç!" Soruşdum: "Tutaq

ki, bacım gətirsəydi, nə olardı?!" Söylədi: "Xanım, özün edə bildiyin işi başqasına tapşırma! Öz işini özün gör və başqasına göstəriş vermə! Heç bilirsən, nəyə görə həzrət İbrahimə "Xəlilullah" (Allahın dostu) ləqəbi verilib? Çünki nə başqasından bir şey diləyib, nə də başqasının ona ağız açmağını gözləyib. Yəni ondan bir şey təmənna edilməzdən qabaq başqasının ehtiyacını ödəyərmiş."

Evləndiyimiz gündən indiyədək xüsusi əməliyyata ezam olunmamışdı və bu, ikinci ayda baş verdi. Onu Quranın altından keçirərək yola saldım. Evdən uzaqlaşandan sonra canıma birə kimi darıxma hissi düşdü. Tənhalığa tab gətirməyib, anamgilə pənah apardım. Bir həftədən sonra qayıtdıqda o qədər sorğu-sual elədim ki, axır, ezamiyyəti barədə qısa məlumat verməyə məcbur oldu. Dedi: "Ravər ətrafı bölgədə separatçıları təqib edirdik. Çətin günlər keçirdik. Göz işlədikcə biyabanlar uzanıb gedirdi. Suyumuz qurtarmışdı və bir su quyusu tapmaq üçün kilometrlərlə əraziləri qət etməli olduq..." Mən də hər sözünü həyəcanla dinləyir, bundan sonra özümü daha gərgin günlərə hazırlamaq barədə düşünürdüm.

Yay fəslinə bir şey qalmırdı. Get-gedə özümdə halsızlıq hiss edir, ayaqlarımda qüvvət azalırdı. Belə hallarda evin bir guşəsində uzanıb yatırdım. Axır, iyan ayında hamilə olduğumu hiss etdim. Bu xəbər yoldaşımın hədsiz sevincinə səbəb oldu. Mübarək ramazan ayının birinci gününü oruc tutarkən halım o qədər pisləşdi ki, iftardan sonra daha özümdən getdim. İkinci günü oruc tutmadım və halım yaxşılaşdı. Üçüncü gün yenidən oruc tutanda bir də halım pisləşdi. Yoldaşıma səbəbini hamiləliklə əlaqədar olduğunu bildirərkən dedi: "Özün ayırd etməlisən ki, belə vəziyyətdə oruc tuta bilərsən, ya yox. Ramazan ayının

orucu vacib vəzifədir və sən də hamiləsən. Mən deyə bilmərəm – tut, ya yox. Belə şeyləri özün məndən yaxşı bilirsən və özün cavabdehsən. Bacararsansa tut, əks halda, özün bilərsən." Tərəddüd içində üç gün ardıcıl oruc tutdum. Halım lap pisləşdi və daha oruc tutmağım düzgün deyildi. Bununla belə, ayın axırınadək on üç gün oruc tuta bildim.

Əbdülmehdi xüms gününü səfər ayının 28-nə təyin etmişdi. İmam Xomeyniyə təqlid edirdi və onu təkcə müctəhid yox, misilsiz rəhbər sanır və bütün ömrünü imamın bir anına fəda etməyə hazır idi. Dostları nəql edirlər ki, hələ repressiya ərəfələrində (1976-cı il) yığıncaqların birində imam Xomeyninin adı çəkilərkən salavat deyən yeganə şəxs Əbdülmehdi idi. O zaman bu hərəkət hələ kütləvi forma almamışdı və çoxları imam Xomeynini tanımırdı. İmamın çıxışı efirə verildikdə, ədəblə dizləri üstə televizorun qabağında əyləşib, diqqətlə qulaq asardı. Birdən söhbətə başlasaydım, barmağı ilə işarə edərdi ki, susum və ədəbə riayət edim. Halbuki o, İmamı real həyatda yox, efirdən müşahidə edirdi. Ümumiyyətlə, İmamın adı ilə əlaqədar olan hər şeyə əhəmiyyət verirdi. Məsələn, iş yeri ilə evimiz arasındakı məsafədə neçə çörək bişirilən mağaza olduğu halda yalnız daxilində İmamın şəkili asılan mağazadan çörək alırdı. Mənə də deyirdi ki, bu, orada zəhmət çəkən adamların İslam hakimiyyətinə etiqadlı olduğunu göstərir. Odur ki, çox vaxt lazım olan bir şeyi ala bilməyib, evə əliboş gələrkən məni qane edə bilmədiyi hallarda yenidən geri qayıdardı. Yəni çoxlarına əhəmiyyətsiz görünən cüzi şeylər onun üçün olduqca zəruri məsələlərdən sayılırdı.

Yay fəsli yavaş-yavaş sona yaxınlaşırdı. Adətən, avqust ayında Kermanın havası daha isti keçirdi. Darıxdığı

ərəfələrdə Quma ziyarətə gedər və böyük şəxsiyyətlərlə görüşməyi sevərdi. Elə bu məqsədlə ziyarətə getməyə hazırlaşırdıq. Amma yola düşmək istədiyimiz gün çox pis xəbər – böyük dövlət xadimləri Rəcai ilə Bahünərin şəhadət xəbəri bütün ölkəni bürüdü. O gün hamıya yaman çətin keçdi. Belə insanların itirilməsi Əbdülmehdiyə çox ağır və dözülməz idi və daim ağlayırdı. Amma dəstəmaz alıb, üzü qibləyə durandan sonra hər şeydən elə üzüldü ki, sanki neçə dəqiqə qabaq heç cürə barışa və tab gətirə bilməyən şəxs özü deyildi.

# Yeddinci fəsil

## Xatirələrimə qonşu

Hamiləliyimdən artıq yeddi ay keçirdi. Əbdülmehdi Kerman sepah ictimai əlaqələr şöbəsinin müdiri təyin edildi. Bu məqsədlə Kermanda mənim xatirələrimi özündə əks etdirə bilən kirayə ev tapmaq üçün çox dolandıq. Bir çox məhəllə və evlərə nəzər salandan sonra, axır, atasıgilə yaxın bir yerdə ev tapdıq. Evin atasıgilə yaxınlığı və telefon xəttinin olması ürəyimcə idisə, dörd otaqlı genişliyi məni nigaran edirdi. Çünki yoldaşım işdə və ya ezamiyyətdə olduğu müddətdə bütün vaxtımı tək-tənha vahimə içində keçirməli idim. Odur ki, hələlik yalnız bir otağı döşəyib sahmana saldıq. Hiss edirdim ki, burada çox qalan deyilik. Ona görə Əbdülmehdi də səhər işə gedəndə məni özü ilə anasıgilə aparır, qayıdanda da geri gətirirdi. Bir həftədən sonra atası

bizə baş çəkib yüklərin üst-üstə yığıldığını gördükdə, narahat olaraq dedi: "Niyə indiyədək yükləriniz çöldə qalıb? Çox rahat oğurlayarlar ki! Əgər burda yaşamaq fikriniz yox idisə, niyə icarə etmisiniz? Kiməsə artıq borcunuz var?!" Əsəbləri soyuyandan sonra bizi şama dəvət edib həyətdən çölə çıxdı. Mən təəccüblə Əbdülmehdiyə baxır, o da gülümsər halda başını aşağı salaraq dinmirdi. Axşam evlərində eyni söhbət yenə ortaya gəldi. Atası özündən çıxaraq dedi: "Niyə şey-şüylərinizi evə yığmırsız? Oğurlansa, neyləyəcəksiz? Əgər orada yaşamaq istəmirsizsə, niyə icarə etmisiz?..." Əbdülmehdi başını aşağı salaraq sözlərini dinləyir, mən də gözlərimdən yaş süzülərək içimdə od tutub yanırdım. Atası o qədər deyindi ki, qayıdanda özümü saxlaya bilməyib həyət qapılarını bərk çırpdım. İstəyirdim ki, ərim ağzına su alıb oturmasın, o da bir söz desin. Dedi: "Heç birinizə cavabım yoxdur. Atanın hörmətini qorumaq vacibdir və sən də yoldaşım kimi haqlısan. Deməli, sənin ürəyincə olan başqa bir ev tutmalıyam. Mən bütün günü evdə olmuram və sən də elə bir evdə yaşamalısan ki, vaxtın vahiməsiz, asudə keçsin. Müqəssir mənəm. Bəs, münasib ev tapmalıyam. Ətrafda yaxşı və qiyməti ucuz olan evlər çoxdur. Eləsini tapmalıyam ki, həm ürəyincə, həm də atamgilə yaxın olsun. Doğrusu, haqlı idi və bu qədər danlağa dözməyinə mən bais olmuşdum. Həmişə sükut və təmkini ilə işin həlli yolunu axtarırdı. Sükutu ilə məni də susmağa vadar edir, mənəvi dərinliyi ilə tanış edirdi. Valideynlə övlad və ərlə arvad arasındakı münasibəti eyni

səviyyədə qorumağa çalışırdı. Evdə qarşı-qarşıya oturub dedim: "Onda, köçək atangillə birgə yaşayaq. Evləri geniş və otaqları çoxdur. Boş otaqlardan birini lap kirə edərik!" Dedi: "Olmaz! Gəlinlə qaynananın arası nə qədər yaxşı olsa belə qarşılıqlı hörməti qorumaq üçün birgə yaşamasalar yaxşıdır." Soruşdum: "Əmingilə köçsək necə? Onların da evi genişdir!" "Allaha təvəkkül!" – deyərək başını aşağı saldı.

Ertəsi gün əmisi Həbibgilə gedib otaqlardan ikisini kirə etdik. Qollarımı çırmalayıb otaqları səliqə-sahmana saldım. Arada olan dalan otaqlarımızı əmisigilin evindən ayırırdı. Bura köçməyimiz artıq söz-söhbətə də son qoydu. Beləliklə, bura uzun müddət bizim məskənimiz və xatirələrimi özündə əks etdirən həmdəmim oldu.

Həmişə birgə yemək yeyərdik. Bilirdi ki, qayıtmayınca bir şey yeyən deyiləm. Hətta qonaq olduğumuz evlərdə şəraiti nəzərə alaraq yemək zamanı məni öz yanında oturdardı. Çoxlarına əhəmiyyətsiz görünən cüzi müstəhəblərə belə riayət edərdi. Məsələn, yeməkdən qabaq duzla başlamamış süfrəyə əl uzatmazdı. Bir dəfə süfrədəki boş olan duz qabını doldurub gətirincə məni gözlədi. Qonaqların bəziləri yoldaşımın məndən çəkindiyini fikirləşərək zarafatla ona sataşdılar. O isə sadəcə gülümsəyərək məhəbbət dolu baxışları ilə mənə təskinlik verdi. Lətif ruhu və səmimiliyinə baxmayaraq diqqəti çox dəqiq və dərin idi. Belə ki, bir dəfə evə əliboş qayıdarkən soruşdum: "Hanı sənin aldığın toyuq? Niyə əliboş

gəlmisən?" Dedi: "Yaxşı deyildilər." Mən də "Necə yəni yaxşı deyildilər?! Hamıya çatanda yaxşı olur, bizə çatanda pis?!" – deyərkən belə cavab verdi: "Bazarda şəri yolla kəsilən toyuq gözümə dəymədi." Ondan sonra nə bazardan toyuq aldı, nə də oradan alınan toyuqdan yedi.[1] Qonaq getdiyimiz əksər evlərdə ehtiyat edər, təkcə plovun özünü yeyərdi. Ürəyim toyuq istəyəndə isə diri toyuq alıb özü şəri qayda üzrə qibləyə doğru kəsər, hətta təmizləməyində də mənə kömək edərdi. Xülasə, atam kimi Əbdülmehdinin də özünə xas qayda-qanun və ölçüləri vardı. Hər biri əməldə çətin olsa da Əbdülmehdi kimi saleh bəndənin kənarında ürəkdən əlbir olduqda çətinliyi aradan qalxırdı.

O vaxt hər bir pasdarın aylıq maaşı iki min tümən idi və evlənəndən sonra iki min səkkiz yüzə qalxmışdı. Bununla belə, hər ay iş saatından üç günü kəsr edərdi. Dostları ondan "Siz hər gün iş saatından qabaq işə başlayıb, iş saatından sonra işi tərk etdiyiniz, həmişə iş başında olaraq heç vaxt bekar

---

[1] Hətta 1986-cı ildə "Vəlfəcr-8" əməliyyatında yaralanıb, xəstə yatdığı müddətdə də çox vaxt ətsiz supla qidalanırdı. Həmişə mənə sual idi ki, o, haradan hər hansı qidanın pak, ya nəcis, halal, ya haram olduğunu hiss edir. Sonralar bunu mən Ayətullah Məhəmmədtəqi Cəfərinin həyatında baş verən qeyri-adi əhvalatları mütaliə edərkən anladım. Belə ki, xəstəliyi ilə əlaqədar İngiltərədə müalicə zamanı ətli yeməklərdən imtina edərkən bir çoxlarının israrından sonra oğluna səbəbini belə izah edir: "Verilən xörək murdardır və gözümə qanlı çirkab şəklində görünür." Eynən Əbdülmehdi də belə dərin baxışa sahib idi və ona verilən ilahi əmanət sayəsində əməllərindən qafil deyildi.

dayanmadığınız, hətta tətil və cümə günləri də işlədiyiniz halda niyə artıq saatları qeyd etməyib, hətta üç gün də azaldırsınız?" – deyə səbəbini soruşarkən belə cavab verərdi: "İş başında olduğum saatlarda, ola bilər, bəzən fikrim ev-eşiyə, uşaqlara yayınsın. Bu isə şəxsi iş sayılır və onu boynumda hər hansı haqq qalmaması üçün edirəm.

Günlər mənə elə də tez keçmirdi. Yerikləmə ilə əlaqədar bir çox şeylərə tamahım çoxalmaqdan əlavə halsızlığım da artırdı. O ərəfələrdə yoldaşım Quma ziyarətə gedəcəyini xəbər verdi. Yola düşəcəyimiz gün evə ət almışdı. Gözüm ətə sataşanda ürəyim bulanaraq qusdum. Özü əti doğrayıb, kotlet hazırladı. Səfər əsnası acdığımız vaxt – ətin özü və iyindən ürəyim bulandığı halda – dadlı kotletləri iştahla yedik. Adəti üzrə ziyarətdən sonra hökmən Ayətullah Həsənzadə Amuli və ya Cəvadi Amuligilə baş çəkməli idi. Bu dəfə Həsənzadə Amuli ilə görüşə getdi və qayıdanda baxışları qəribə parlayırdı. O gün qaldığımız yerdə ev-eşik qarışqa ilə dolu idi və mən də ayaq-altda olanları əzib öldürürdüm. Mənə dedi: "Onları bu qədər öldürmə! O böyük şəxsiyyət üzümə qapını açanda, əbasının üzərində qarışqa yeriyirdi. Görüşəndən sonra əbasını çıxarıb bağçanın bir küncündə çırparaq dedi: "Qapını açmazdan qabaq burda əyləşmişdim." Yəni qarışqanı aparıb öz yuvası yaxınlığında yerə atdı. Amma sən isə Allahın

məxluqunu yersiz olaraq öldürürsən." Mən də dedim: "Onda bizi dişləsə yaxşıdır?"...[1]

[1] Məryəm bir qədər böyüyəndən sonra onda da belə xasiyyət əmələ gəlmişdi. Mən də hər dəfə "Eləmə bala, yazıqdırlar!" – deyərkən yoldaşım həmin hadisəni yada salaraq deyirdi: "Bu, o vaxt Məryəmə hamilə olduğun zaman qarışqaları öldürdüyün əməlin təsiridir. Sənə çox deyirdim ki, eləmə. İndi görürsən ki, uşaqda da öz təsirini qoyub."

# Səkkizinci fəsil

**"...inni səmməytuha Məryəm"**

1982-ci il mart ayının son günləri idi və ilin axırına bir şey qalmırdı. Qış öz yerini ətirli nəsimi ilə qarşıdan gələn bahara verməyə hazırlaşırdı. Axşam Zöhrə ilə yoldaşı bizə qonaq idilər. Həmişəki kimi hər şeydən söhbət açdıq. Zöhrə anamın hazırladığı boxçanı görüb, "Uşağın dünyaya gəlişinə bir şey tədarük görmüsən?" – deyə soruşarkən gülümsəyərək hələ çox qaldığını bildirdim. Amma saat 12-dən sonra ilkin ağrılar özünü büruzə verməyə başladı və səhərədək davam etdi. Səhər Zöhrə yoldaşıma vəziyyətimlə bağlı məlumat verib, yanımda qalacağına söz verdi. Yeməkdən sonra Əbdülmehdi işə gedərkən dedi: "Bu gün mühüm işim var, yoxsa getməzdim!" Nigaran qalmaması üçün Zöhrə ilə onu arxayın edib, yola saldıq. Evdən çıxandan sonra – hər ehtimala qarşı –barəmdə əmisi arvadına xəbər verdi.

Vəziyyətim gərginləşərkən rəfiqəmlə əmisi arvadı məni taksi ilə xəstəxanaya çatdırdılar. Müayinədən sonra dərhal doğum otağına köçürüldüm. Nəhayət, mart ayının 26-sı bir qız uşağım dünyaya gəldi. Mama həkimi körpənin kürəyinə vurduqca zərif çığırtısı qulağıma dəyərkən özümdən getdim.

İlk dəfə qızım Məryəmi bağrıma basıb, bədəninin hərarətini duyanda analıq hissi bütün vücudumu bürüdü. Xurma ilə bir stəkan çay içəndən sonra doğum otağından ümumi palataya köçürüldüm. Qapının ardında Əbdülmehdi, anası, əmisi arvadı və Zöhrə intizarımı çəkirdilər. Hamının simasında arxayınlıq hiss olunurdu. Yoldaşım tərxis işlərini görəndən sonra xəstəxananı tərk etməli idik. Zöhrə mənə kömək etdikcə deyirdi: "Əbdülmehdi gələndən sonra bizdən Quran istədi. Əmisi yoldaşı kiçik Quran kitabçasını ona verdi. O da doğuşun rahat keçməyi üçün "Məryəm" surəsini oxumağa başladı. Hələ surə başa çatmamış uşaq dünyaya gəldi və zərif çığırtısı eşidiləndə hamımız arxayın olduq."

Hamımız maşında evə qayıdırdıq. Əbdülmehdi Quran oxuyurdu. Əmisi arvadı ondan ata olmağı barədə soruşub, cavab vermədiyini gördükdə, etirazla dedi: "Özünü niyə çəkirsən! Bizim də oğul-uşağımız var ha!" Yoldaşım ona belə cavab verdi: "Əmidostu, icazə verin, körpənin eşitdiyi ilk səs Allahın kəlamı olsun!" Odur ki, yol boyu evə çatanadək Quran oxudu. Evə daxil olarkən haçandan yolumuzu gözləyən Zöhrənin yoldaşı böyük sevinclə bizi qarşılayaraq göz aydınlığı verdi. İstirahət üçün qiblə

səmtinə sərilən yorğan-döşəyimə uzandım. Əbdülmehdi dəstəmaz alıb uşağın sağ qulağına azan, sol qulağına iqamə oxuyandan sonra adını "Məryəm" qoydu. Daha sonra kənarıma bir dolçada su və ləyən qoyaraq tapşırdı ki, uşağa dəstəmazsız süd verməyim.

Üç günədək Zöhrə yanımda qalaraq bütün gücünü mənə qulluğa və təcrübəsini ötürməyə sərf etdi. Bu müddətdə qayınanam da əlindən gələni əsirgəmədi. Üç gündən sonra anamın gəlişi mənə bir az da təskinlik verdi. İndiyədək çox şeyləri deyib-soruşmaq olmurdusa, artıq utanmağa yer yox idi. Anam bacıma aldığı bilərziyi mənə göstərərkən maraqla baxdığımı görən Əbdülmehdi dedi: "Əgər xoşun gəlirsə, mən də sənə alım! Utanma, de!" Dedim: "Lazım deyil, daha qızıla meylim yoxdur." Doğrusu, heç vaxt əli aşağı olan vaxtı çətinliyə düşməyinə yol verməzdim. Həmçinin yadıma düşən o hadisədən sonra belə bir istəyim əbəs idi. Belə ki, bir dəfə onu tez-tez narahatçılıq keçirdiyini görüb səbəbini soruşdum. Başını aşağı salıb cavab vermək istəmirdi. Dilə tutaraq əl çəkmədikdə dedi: "Hal hazırda cəbhələrə ciddi yardıma ehtiyac var!" Maraqla "Nədir ki?!" – sualıma belə cavab verdi: "Dostların bir çoxu kömək məqsədi ilə öz həyat yoldaşlarının qızıl və sair zinət əşyalarını hədiyyə verirlər... Hələ sözü tam başa çatmamış "Məqsədin odur ki, mən də özümünküləri hədiyyə edim?" – deyərkən qulaqlarının dibinədək qızardı. Dedim: "Qızılın nə dəyəri var ki! Əgər bu bir neçə qramla müharibənin cüzi yükü aradan qalxacaqsa, sənə peşkəş! Səni əsla belə halda görmək

istəmirəm! Nəyim var, sənə qurban olsun!" Bu xatirə mənə toxtaqlıq verir və demək istəyirdim ki, mən ona görə hər şeyimdən keçməyə hazıram və həyatımızda belə şeylər əhəmiyyət daşımır. Bu minvalla on gün gəlib keçdi və ayağa qalxıb, anam bizi tərk edəndə evdə vəziyyət əvvəlki qaydasına düşdü.

"Fəthül-mübin" əməliyyatı günləri idi. Əbdülmehdi cəbhəyə gedərkən (01-04-1982) onu Quranın altından keçirərək yola saldım. Məryəmi bağrına basıb, öpdüyü an ürəyim bərk sıxılaraq qəhərlənsəm də sağ-salamat qayıdacağına ümidvar idim. Havalar da yavaş-yavaş qızırdı. Beləcə, uşağın doğulduğu vaxtdan qırx gün gəlib keçdi və hər günün öz dərdi-səri vardı. Yoldaşım məzuniyyətə qayıdanda, o da mənə əl tuturdu. Uşağın kənarında o qədər Quran oxuyurdu ki, ağlayanda onun səsi ilə sakitləşirdi. Evimizdə kondisioner və ya ventilyator yox idi və istiliyini aradan qaldırmaq üçün pəncərəni açmalı olurdum. Bununla belə Kermanın yandırıcı istisi uşağı haldan salırdı. Onu sakitləşdirmək və ya yatırtmaq üçün yelpik kimi istifadə etdiyim karton parçası əlimdən düşmürdü.

Bir müddət sonra yenə Quma ziyarətə getdik. Bir qayda olaraq müqəddəs ziyarətgaha girəndən çıxanadək Əbdülmehdinin raz-niyaz və ibadətdən ayrılması çətin məsələ idi. Mən isə uşaq qucağımda hərəmdəki böyük şəxsiyyətlərin qəbirləri kənarda əyləşib, onu gözləməli idim. Daha sonra Cəmkəran məscidinə ziyarətə getdik. Yoldaşım orada da bir-iki saatı ziyarət və ibadətə həsr etdi. Uşağın ardı

kəsilməyən ağlamaq səsi məni bezdirirdi. Hətta mənə kömək edib, təskinlik verməyə çalışan qadının səbri tükəndikdə, onun xahişi ilə yoldaşımın adı neçə dəfə mikrofonla məlumat şöbəsindən elan edilsə də ondan xəbər çıxmadı. Haçandan-haçana qayıdıb, məni gözü yaşlı görərkən həmişəki kimi sədaqətlə üzrxahlıq etməyi və mənim də onu dərk edərək güzəştə getməyim artıq təbii hal idi.

Bahar çıxınca orucluq da gəlib çatdı. İki ay yarımlıq Məryəmə qayğı ilə bərabər üzərimə düşən vacib orucu da tutmalı idim. Bütün iş və əməllərini yalnız Allahın razılığı qəsdi ilə yerinə yetirən və həyatı öyüd olan şəxsin kənarında hər hansı şəri vəzifəyə biganə qala bilməzdim. Ciddi zərər hiss etməyincə hamiləlik, süd verdiyim və s. hallarda belə oruc tutmağa çalışırdım.

1984-cü ilə bir şey qalmırdı və el adəti üzrə ev-eşiyi səliqə-sahmana salmalı idim. Amma özümü yaxşı hiss etmirdim. Günlər bir-bir gəlib keçdikcə ağrılarım büruzə verməyə başladı. Məlum oldu ki, yenidən hamiləyəm. Belə hallarda qadın bir az da zərif, həssas olur və qayğıya ehtiyac duyur. Yoldaşım bunları məndən yaxşı başa düşürdü. Amma elə vəziyyətdə yenidən cəbhəyə getmə fikri ilə razılaşmaq çətin idi. Söhbət gedib-getməməkdən yox, vətənə borc hissindən gedirdi və onun qəsb edilən guşəsi geri alınmalı idi. Bu səfərdə ona əsgərliyini yeni başa vuran kiçik qardaşı Əbdülhüseyn də qoşuldu və bir ayadək onlardan xəbər çıxmadı. Aprel ayının 11-də həyata keçirilən "Vəl-fəcr-1" əməliyyatından sonra

kermanlı əsgərlər bir-bir geri qayıtdığı halda hələ də heç birindən xəbər yox idi. Nəhayət, iyan ayının əvvəllərində geri tək qayıdarkən itkin düşən qardaşı barədə valideynlərinə özündən başqa heç kim təskinlik verə bilməzdi. Günlər yerini aylara verdikcə Əbdülhüseynin diri olduğu və ya şəhadətə yetdiyi barədə xəbər gətirən olmadı. İntizar çəkən valideynlərinin gözləri daim qapıya dikilmişdi.

Növbəti ramazan ayının gəlişi ilə bir daha iftara dəvət və qonaqlıqların sayı artdı. Ya biz kimisə dəvət edir, ya da özümüz başqaları tərəfindən dəvət olunurduq. Belə əziz günlərdə çox vaxt Məryəmi qucağıma alıb məscidə gedir və vaxtımı namaz və ibadətlə keçirməyi xoşlayırdım. Bu da yoldaşımı narahat edir və mənim qucağımda uşaq və hamilə və oruc halda getməyimə razı deyildi. Hər dəfə sözlərimiz çəp gələndə isə əvvəlcə özü üzr istəyərək ürəyimi ələ almağa çalışardı. Neçə gün idi ki, evdə ət qurtarmışdı. Hələlik pulu olmadığına görə almağa imkanı yox idi və mən də bir söz demirdim. Axşamlar iftarı və səhərlər imsakı hazırladığım adi yeməklərlə keçirirdik. Hamiləlik, uşağa baxmaq və oruc tutmaq məni taqətdən salırdı. Bununla belə, yoldaşımın iftar vaxtı ac qalmadığına şad idim. Vəziyyətimi soruşanda deyirdim ki, Allaha şükür, evdə hər şey – qatıq, pendir, qarpız və s. var. Artıq rəngimin get-gedə saraldığını hiss edərkən evə bir qədər ət aldı və səbəbini soruşduqda isə Allah yetirdiyini dedi. Həmin gün əlimi ağdan-qaraya vurmağa qoymadı və özü axşama tədarük görərək dadlı bozbaş bişirdi. Əmin

idim ki, iftara dəvət olunduğu yerlərdə də mənə görə dilinə ətli yemək dəyməyib.

Olduqca mehriban idi və ümumiyyətlə, hamıya qarşı belə idi. Hamını, hətta onu bəyənməyən və adını belə dilinə gətirmək istəməyənləri hörmətlə qarşılayar, sözlərini dinləyər, məsləhət olanlara baş çəkər, heç kimi zəhmətə salmaz və salaməleyk həddində də olsa əhvalını soruşardı. Hər kəsin vəziyyəti ilə maraqlanarkən çətinliyini bacardığı həddə aradan qaldırmağa çalışar, əlindən gəlmədikdə isə təskinlik verərdi. Sileyi-rəhmlə bağlı deyərdi: "Kiminsə səni evinə dəvət edib-etməməyinə, səni sayıb-saymamağına, səndən əl üzüb-üzməməyinə əhəmiyyət vermək lazım deyil! Sən get, sən say, sən əl ver ki səhvini başa düşsün! Əgər biri səndən üz döndəribsə, ya dilxordursa, sən qırılan rabitəni birləşdir!" Davranışında ədəb və hörmətə ciddi riayət edərdi. Salamlaşarkən – təkəbbürlü şəxs və qadından başqa – birinci özü salam verərdi. Ona böyük və ya kiçiyin fərqi yox idi. Heç kimi, hətta əyyaş, dinsiz və ya inqilaba zidd olanları belə təhqir etməz, hər kəsin özünə görə hörmətini gözləyərdi.

# Doqquzuncu fəsil

## Möhkəm qala

Naməhrəm olan yerdə susmaq aramızda tez-tez deyilən öyüdlərdən biri idi və bu da mənəvi həyatıma hər hansı yadın nüfuzunun qarşısını alırdı. Məsələn, kənarımızda naməhrəm şəxs olduğu hallarda maşında arxa skamyada əyləşir və söhbət zamanı fikrimi daxildəki güzgü ilə çatdırmağa çalışırdım. Çətinlik çəkdiyimi görərkən deyirdi: "Dost və yoldaşlarıma sadəcə başını tərpədərək cavab ver. Çox da çətin deyil, yoxla. Yaxşı əməllər təkrar edildikcə adətə, adət ibadətə, ibadət mərifətə, o da əxlaqi səciyyəyə çevrilir." Bir dəfə qolum bərk ağrıyırdı. O vaxt əksər məntəqələrdə ixtisaslı qadın həkimi yox idi. Bəzən ağrısı hətta yuxularımı da pozurdu. Axır, dözməyib kişi həkiminə müayinəyə getməyə razı oldu. Növbəmiz çatanda həkimə belə dedi: "Doktor,

yoldaşımın qolu ağrıyır. Naməhrəm olduğunuz üçün suallarınızı mənim əlimdə müayinə edərək verin." İnqilabın əvvəlindən başlayaraq belə pəhrizkarlıq hallarına riayət olunurdu. Həkim razı oldu və müayinəni sual-cavabla aparmağa başladı. Yoldaşım danışdıqca fikirləşirdim ki, həkim nəhayət dözməyib "Məni ələ salırsan? Bu da oldu müayinə! Lal deyil ki, qoy özü danışsın!" – deyəcək. Buna rəğmən həkim könlünü pozmadan diqqətlə qulaq asır, sorğu-sual edir və hər iki tərəf bir-birini aydın başa düşürdü. Həkimin yanından çölə çıxarkən soruşdum: "Fikirləşmədin ki, birdən narahat olar?" Dedi: "Dava eləmirdik ki! Xoşu gəlməsəydi, çölə çıxardıq!" O anda istər-istəməz – "Özünüzü və ailənizi cəhənnəmin əzabından qoruyun"[1] ayəsi yadıma düşdü. Ardınca söylədi: «Əzizim, hər bir halda bizə Allahın göstərişi mühümdür. "Allahdan başqa məbud yoxdur" ibarəsindəki yoxduru həmişə qətiyyətlə de ki, şübhəli fikir və qubarlar tamamilə pak olsun və bütün vücudunla Allaha sığınasan! Bəndə Allahı nəzərə alaraq hər hansı günahdan çəkindiyi təqdirdə vəsfolunmaz ləzzət qazanır, sözü və əməli birbaşa başqalarına təsir edir. Əmin ol ki, həkimin səbir və hövsələsi sənin sırf Allaha görə etdiyin ibadətlərin nəticəsidir!» Xoşbəxtlikdən, yazdığı dərmanların təsiri yaxşı oldu və tez də sağaldım. Yaxud evdə olduğu vaxtlarda özü telefona cavab verirdi və yalnız başı bərk mütaliə və ya işə qarışarkən dəstəyi

---

[1] "Təhrim" surəsi, ayə 6.

götürürdüm. İlk dəfə telefonda naməhrəmə salam verib danışarkən "Çalış naməhrəmə salam vermə!" – demişdi və mənim də "Məgər elə şey olarmı?" – sualıma belə cavab vermişdi: "Niyə olmur! Əgər naməhrəmlə rəftarın qaydasını öyrənib, onunla bağlı törənən günahı həyatından birdəfəlik silsən, qəlbində elə nur parlayar ki, onu heç şeylə dəyişmək istəməzsən! Naməhrəmlə əlaqədar düzgün rabitə cəmiyyətdə günahların qarşısını alır, qadınların bu məsələyə lazımınca riayəti cəmiyyətdə ictimai sağlamlıq və paklığı təmin edir. Həmçinin salamdan imtinaya görə də narahat olma. Şəriətdə salamın cavabı vacibdir, salam vermək yox. Beləliklə, əvvəlcə sən salam verməsən, qarşı tərəf öz vəzifəsini anlayacaq."

Onun dünya görüşü və mərifətindən doğan ciddiliyinə öyrəşmişdim. Özü hamıdan qabaq dediyinə əməl etdiyi və heç vaxt tərk etmədiyi üçün sözünün təsiri vardı. Bacılarımı səsindən tanıyar, söhbət zamanı başını aşağı dikər və heç vaxt üzlərinə baxmazdı. Ona görə də çox vaxt birini digəri ilə səhv salar, dillənməyəni tanımaz və ona hansı biri müraciət etməyincə yolunu gözləməli olardı. Heç də təəccüblü deyildi. Çünki özünü həmişə Allahın hüzurunda hiss edir, özü demişkən peyğəmbərlər və övliyalar Allahın qarşısında başlarını aşağı dikdiyi halda Əbdülmehdinin başını dik tutmağa haqqı yox idi. Bəlkə də hədsiz təvazökarlığından bəndələri müqabilində başını yuxarı tutmağı özünə rəva görmürdü. Amma qohumlar isə bu qədər pəhrizi

sıxıntı hesab edirdilər. Üzdə mənə deməsələr də arxada söz-söhbət çox idi. Halbuki yoldaşım nə zahidlik edir, nə də qapalı həyat keçirirdi. O, bütün həyatını dinə həsr etdiyi halda kənardan zahiri müşahidə edənlər isə bunu məngənə kimi başa düşürdülər. Məndən belə həyata necə dözdüyümü soruşanlara təəccüblə baxaraq deyirdim: "Mənə əsla çətin deyil! Niyə də çətin olmalıdır! Məsələn, naməhrəmlə danışıqda zəruri həddə kifayətlənməyin nəyi pisdir! Məhrəmin olduğu halda nəyə görə naməhrəmlə çənə döyməlisən?! Zərurətdən kənar naməhrəmlərin bir-biri ilə söhbətinə yer yoxdur! İş Allaha görədirsə, özü bəndəsinə yardım edəcək." Hər halda bəzilərini başa sala bilmirdim və bu da onun mənəvi aləmindən xəbərsizliklərindən irəli gəlirdi. Doğrusu, Allahın buyruqları onun həyat sərlövhəsi idi. Odur ki, təkcə mən yox, bütün ailəm onun ədəb və əxlaqına vurğun idi və belə məhdudiyyətlərə güzəştə gedirdi. Hər hansı yerə gedərkən deyirdi: "Çadranı elə bürü ki, hər dəfə yolda açıb-bağlamağa ehtiyac olmasın və naməhrəmin diqqəti cəlb etməsin!" Mövqeyi nazik kapron coraba qarşı sərt olduğu üçün həmişə qalın corab geyinərdim. Onun kənarında yaşadıqca yaxın və sevdiyi adamlara qarşı həddən artıq həssas olduğu və onları hər hansı büdrəmədən qorumağa çalışdığı mənə bəlli olurdu. Daha başqa maraqlı hadisələrdən biri də ailəvi şəkil çəkdirməyimiz idi. Belə ki, onların idarəsindən ailə üzvlərinin ayrıca tək-tək şəkilləri tələb olunurdu. Fotoqrafiyada hamının şəkili çəkiləndən sonra növbə

mənə çatdı. Bu zaman Əbdülmehdi fotoqrafdan xahiş etdi ki, aparatı hazırlayıb özü çölə çıxsın. Ürəyimdən keçdi ki, elə bu dəqiqə fotoqraf əsəbiləşib ağzından çıxanı ona deyəcək. Amma həmişəki kimi onun niyyəti sırf Allaha görə olduğu üçün hər hansı dilxorçuluğa son qoydu. Ondan sonra özü aparatın arxasına keçdi və şəklimi çəkdi. Ümumiyyətlə, yoldaşım naməhrəm olan yerdə danışmağıma razı deyildi. Belə bir hal qarşıya gəldikdə də heç vaxt həddini aşmaz, birdən incisəydim də dərhal üzr istəyərdi. Elə bir adam idi ki, heç kimin qəlbinə zərrə qədər toxunmaq istəmirdi. Kimliyindən asılı olmayaraq hər kəsin ehtiramını gözləyirdi və yaxın adamlarına qarşı daha mehriban idi. Demək olar, həmişə dəstəmazlı olurdu və özünü daim Allahın hüzurunda hiss edirdi. Heç vaxt üzüaşağı yatmazdı və oturduqda da dizləri üstə qibləyə sarı əyləşərdi. Bir dəfə ondan bezmədiyini soruşduqda demişdi: "Əsla! Əgər bacarsaydım, heç vaxt yatmazdım. İş və fəaliyyətə görə istirahətə və yuxuya ehtiyacım var. İnsan həmişə Allahın hüzurundadır. Bədənin yuxuya ehtiyacı olmasaydı ondan vaz keçərdim. Allahın hüzurunda bəndə ədəbə riayət etməlidir..."

# Onuncu fəsil

**"Cəələllahu Kəbətə..."**

Məhərrəm ayı yenidən doğumqabağı ağrılar özünü büruzə verməyə başladı. Ayın on üçü halım pisləşərkən Əblülmehdi əmisi arvadını köməyə göndərdi. Mənə əl tutmaq üçün anası da özünü yetirdi. Yoldaşım evə qayıdandan sonra vaxtı itirmədən xəstəxanaya yollandıq. Sürəkli dərdlərdən sonra ikinci qızım Fatimə dünyaya gəldi. Evə qayıdarkən artıq yorğan-döşəyim qibləyə sarı sərilərək kənarında su dolçası və tas hazır idi. Onun məsləhəti ilə uşağa dəstəmazlı halda süd verməli idim.

Neçə gündən sonra həyəcanla evə gəlib, paltarını dəyişərkən gözlədim ki, özü baş verənləri söyləsin. Tezliklə Məkkəyə ziyarətə gedəcəyini deməyi ilə ağzımdan – "Tək?" çıxmağı bir oldu. Dedi: "Narahat olma! Adımızı yazdıraram, iki ildən sonra birgə

gedərik." O, hazırlaşdıqca qohum-əqrəba, dost-tanış və ən çox da məndən halallıq istəyirdi. Başı öz işlərinə qarışdığından bəzən hislərim və baxışlarımdan yayınırdı. Onları göz yaşlarımla xatirə dəftərimə köçürdükcə taleyimi qələmə alırdım. Sətirlər düzüldükcə bir-bir ayələr öz yerini tapırdı: "Allah Kəbəni – o möhtərəm evi insanlara dayaq məkanı təyin edib![1] Daha doğrusu, Kəbə müqavimət timsalıdır. Və qədim-azad evi təvaf etsinlər![2] Kəbə evi azadlıq nümunəsidir və onu dünyəvi və nəfsi meyllərdən azad olaraq təvaf etmək olar. Yəni inqilabın və şəhidlərimizin çağırışı ilə səfər boğçasını bağlamalı və əsl azadlıq bəxş edən sovqatla qayıtmaq lazımdır..." Bütün bunlar Əbdülmehdini tanımaq üçün kifayət deyildi və o, qıfıllı sandığa bənzəyirdi. Vidalaşarkən gözümə daha da nurlu görünürdü. Qırx gündən sonra Tehrandan zəng edib, sabah Kermana çatacağını xəbər verəndə atamın evində idim. Mənə tapşırdı ki, gəlişi barədə valideynlərimə xəbər verməyim. Hələ ki, Kermandan ziyarətə gedənlərdən də xəbər yox idi. Məlum idi ki, təmtəraqlı qarşılanmamaq üçün xəbərsiz gəlir. Tələsik Kermana yola düşərkən xəbəri valideynlərindən necə gizlədəcəyim barədə bəhanə axtarırdım. Onlar da övladını layiqincə qarşılamağa və ayaqları altında qurban kəsməyə hazırlaşırdılar. Anasının həyəcanlı "Mehdi qayıdır?"

---

[1] "Maidə" surəsi, ayə 97.
[2] "Həcc" surəsi, ayə 29.

– sualına "Hələ yox." – deyə cavab verdim. Vaxtı itirmədən evi səliqə-sahmana salıb, əmisi oğlu Məhəmmədmehdiyə də tapşırdım ki, şirniyyat alsın. Ertəsi gün həmişəkindən daha nurlu siması ilə həyətə daxil olarkən əmisi oğlunun "Hacı Mehdi xoş gəlib, səfa gətirmisən!" – sevinc dolu səsi hamımızın diqqətini qapıya tərəf yönəltdi. Birinci saçlarına dən düşən qoca anası ona tərəf yüyürdü. Ana-bala bir-birinə sarılarkən istər-istəməz hamımızın gözlərindən yaş sel kimi axmağa başladı. Sonra mənə tərs-tərs baxaraq dedi: "Bəs, gəlişindən xəbərsiz deyildin!" Gülümsünərək mən də onlara qoşuldum. O anda oğlunun qəfil və sadə qarşılanmaq istədiyini, həcc və tövbəsinin qəbulu, təmtəraq və qurbana ehtiyac olmadığını başa sala bilməzdim. Hər halda onların da ürəyindən keçən arzuları vardı və adət-ənənə üzrə pişvazına çıxmaq istəyirdilər. Odur ki, dedi: "Kaş, Zəhra qabaqcadan bizə xəbər verərdi! Vağzalda qarşılayaraq ayağının altında qurban kəsmək istəyirdik!" Uşaqlıqdan belə daim tövsiyə edilən ədəb-ərkan və el adətləri qulağımda sırğa olsa da qəlbim Əbdülmehdininki qədər geniş deyildi. Anasının danlağı artdıqca səbrim tükənərək dedim: "Özü mənə tapşırmışdı ki, gəlişi barədə heç kəsə xəbər verməyim!" Cavabımdan qane olmayan anası üzünü içəri yenicə girən bacısına tutaraq gileyləndikdə, yoldaşım araya girərək dedi: "Ana, mən ona tapşırmışam! Yazığın nə təqsiri var ki! Hər nə gileyin varsa, mənə de!"

Evə qohum-əqrəba və dost-tanışının get-gəli azalandan sonra ondan Kerman karvanından qabaq gəlməyinin səbəbini soruşdum. Dəfələrlə boyun qaçırandan sonra səbəbini həcc ərəfəsində dini təbliğata görə məmurlar tərəfindən tutulub, İranın nümayəndəliyinə təhvil verildiyi və tez yola salındığı kimi izah elədi. Əslində, ona həcc ziyarəti əsil məhbubla görüş diyarı idi, gözü və qəlbi yalnız mövlası imam Zamanı (əc) axtarırdı. Növbəti il bu dəfə mənim valideynlərim həccə gedərkən onlara da belə tapşırdı: "O müqəddəs diyara ayaq basandan sonra vaxtınızı sovqat almağa və sairə sərf etməyin. Ürəyinizdən keçənlərin oxşarı burada da var. Orada alınmalı yeganə şey məhbubun könlünü özünə cəlb eləməkdir! Onu əldə etməyə çalışın! Ərəfatın qızmar qumları üstə səmimi-qəlbdən namaz qılın..."

# On birinci fəsil

## Həyəcanlandıran tənhalıq

1984-cü ilin sonuna bir şey qalmırdı. Cəbhə bölgəsindən geniş miqyaslı əməliyyata dair xəbərlər gəlirdi. Əbdülmehdi cəbhəyə yollanandan sonra onsuz keçən günlərin tənhalığı ürəyimi sıxırdı. Özümə və atasından ayrı düşən körpələrə təskinlik verməyə taqətim çatmırdı. Çox vaxt köksümü boğan qəhərə ağlamaqla çarə axtarırdım. Yenə özümə qapanıb, ağladığım günlərin birində əmisi Həbib pəncərəmizi bərk-bərk döyərək dedi: "A bala, qapıya gələn var!" Özümə elə qapanmışdım ki, zəngin səsini eşitməmişdim. Başıma çadra atıb, dərhal qapıya çıxdım. Yoldaşımın idarəsindən məktub gətirmişdilər. Məktubu ikiəlli təhvil alandan sonra öpüb, bağrıma basdım. Evə girincə, Allah

bilir, hansı hissləri keçirdim. Ardıcıl süzülən göz yaşlarımı silərək məktubu açdım. Yazmışdı:

"Hörmətlə əziz yoldaşım Zəhra!

Ümidvaram həmişə Allahın mərhəməti sayəsində sağ-salamat olub, öz şəri vəzifələrinə layiqincə əməl edirsən. Arzum budur hər yeni günün ötən gündən daha səmərəli olsun. Həmçinin əziz körpələrim Məryəmlə Fatimə də sağ-salamat böyüyüb, həzrət Zəhraya gözəl xadimə olsunlar! Bu da yalnız sənin düzgün tərbiyə və mütəmadi zəhmətin sayəndə mümkündür!" O anda gözləri mənə zillənən körpələri sakitləşdirmək çətin idi. Hər ikisini qucağıma alandan sonra üçümüz də birgə doyunca ağladıq.

Qarşıdan ramazan ayı gəlirdi. Neçə gündən sonra özü də gəlib çıxdı. Nurlu siması və çoxalan şəvə saqqalına tamaşa etdikcə ürəyim toxtayırdı və gəlişi ilə iztirablarımın nə qədər azaldığını yaxşı bilirdi. Başını səcdədən qaldırarkən gözlərimin maraqla onu süzdüyünü görüb, soruşdu: "Niyə yatmırsan Zəhra? Yat daha!" Başımı yastığa qoyaraq dedim: "Doyunca tamaşa etmək istəyirəm." O da gülümsəyərək dedi: "Sircana təyinat almışam[1] və tezliklə ora köçməliyik. Hal-hazırda köçmək çətin olduğu üçün əvvəlcə özüm gedib, işləri yoluna qoyacağam və ramazandan da sonra sizi aparacağam." Ertəsi gün özü Sircana yollandı və

---

[1] O zaman mənə Sircan sepah komitəsinin komandiri təyin edildiyi barədə bir söz deməmişdi.

mən də yavaş-yavaş yır-yığışa başladım və geri qayıdınca köçlə bağlı bütün tədarükü gördüm. Hər şeyi maşına yükləyib, Zərənddən ayrıldığımız zamandan taleyimlə ayaqlaşmağım barədə düşünürdüm.

Bizə şəhərətrafı proyektin standart xüsusi yaşayış məntəqəsində yer verilmişdi. Qəsəbənin önünü göz işlədikcə uzanan meşəliklər təşkil edirdi. Gündüzün sükutu və gecənin zülmət qaranlığı adamı vahiməyə salırdı. Yoldaşım səhər evdən çıxıb qayıdınca gözlərim qapıya dikilir, gələndən sonra arxayınlıq tapırdım. İşlə əlaqəli gəlməyən gecələri çətinliklə keçirir, az qalırdı, bağrım çatlasın. Ona görə də bəzən tanış qonşuya gedib, səhərədək onlarda qalır, ya da qohum-əqrəba ilə zəngləşərək gecəni başa vururdum. Yeni mühit və hava ilə bağlı ağır xəstələnən uşağın (Fatimə) vəziyyətini nəzərə alaraq idarənin həmkarlığı ilə Kermana, oradan da Zərəndə qayıtdım. Anamın türkəçarə üsulları sayəsində uşağın halı tez toxtadı. İyirmi gündən sonra Əbdülmehdi də özünü bizə yetirdi. Uşaqları bağrına basandan sonra ən gözəl hislərini mənə töhfə etdi.

Ertəsi gün Sircana qayıtdıq. Həmkarı öz gəlinini Sircana gətirəndən sonra mənim tənhalığım da aradan qalxdı. Daha Əbdülmehdi evə gəlmədiyi vahiməli gecələrdə nigarançılıq keçirmir və özümü tənha hiss etmirdim. O, Sircan sepah komitəsinin komandiri olmaqla bərabər qısa müddət ərzində Şirazın "Nuh" hərbi qərargahının təbliğat şöbəsinə də rəhbərlik edirdi. Bunlardan xəbərsiz olan mən isə

yalnız işlərinin başlarından aşdığını bilirdim. Evdən səhər tezdən çıxır, bir də gecə yarısı qayıdırdı. Hətta cümə günləri də məşğul idi və uşaqlar ata üzünü görmürdülər. Hər hansı istirahət və tətil günlərində də yorğunluqdan saatlarla yatırdı. Onu oyatmaq üçün dəfələrlə çağırırdım və istirahətdən sonra da tələsik evi tərk edirdi. Həmişə arzulayırdım ki, heç olmasa, bir gün vaxtını ailəsinə həsr etsin. Ondan evdə tapılmamağı ilə bağlı "Hansı işin sahibisən?" – deyə soruşarkən belə cavab verirdi: "Heç bir işin! Vaxtım bihudə keçir və əlimdən bir iş gəlmir!" İlk dəfə vəzifəsi mənə Sircan şəhidlər xiyabanında çıxışı zamanı məlum oldu. Fatimə atasına çox bağlı olduğundan maşından düşəndən sonra mənə belə tapşırdı: "Uşaqların mənə tərəf gəlməyinə icazə vermə və özün də mənə yaxınlaşma! Camaat sizin sepahın komandirinin arvad-uşağı olduğunu bilməməlidir!"

Həmişə evə gec gəldiyi halda bir dəfə səhər işə gedərkən dedi ki, bu gün işim azdır, tez qayıdacağam. Mən də günortaya tədarük görüb, yolunu gözləməyə başladım. Gözlərim saatın əqrəblərinə dikilmişdi. Böyük əqrəb bir-bir 4, 5, 6-nı keçsə də ondan xəbər çıxmırdı. Şəhərdə hökm sürən vəziyyətlə bağlı hər an terror aktına məruz qala bilərdi. İndiyədək neçə dəfə münafiqlərin sui-qəsdindən salamat çıxmışdı. Odur ki, nigaran qalaraq ora-bura zəng etməyə başladım. Kimdən soruşurdumsa, hərə bir söz deyirdi. Axır, cümə imamının evinə zəng etdim. Yoldaşı nigaran

qalmamağımı, hacı ağa ilə mühüm işləri olduğunu və tezliklə gəlib çıxacağını dedi. Saat 11-i keçdi, amma ondan xəbər çıxmadı. Get-gedə vahimə keçirməyə başladım. Uşaqlar da sakitcə evin bir küncünə qısılıb, gözlərini mənə dikmişdilər. Süzülən göz yaşlarımı silə-silə dua edirdim ki, başına bir iş gəlməsin. Səbrim tükənərək bir daha hacı ağagilə zəng elədim. Yoldaşı indiyədək yatmadığımdan təəccüblənərkən nigarançılığımı və gözümə yuxu getmədiyini bildirdim. O, bir daha mənə təskinlik verərək nigaran qalmamağımı tövsiyə etdi. Amma yaşla dolu gözlərim mənə yuxuya getməyə icazə vermirdi. Nəhayət, gecə saat 1-dən sonra evə girərkən məni belə halda görüb, soruşdu: "Niyə indiyədək yatmamısan?" Mən də öz sözünə əsasən, günortadan indiyədək yolunu gözlədiyini dedim. Səsinin tonunu qaldıraraq dedi: "Nə vaxt ölsəm, o dəqiqə xəbəri sənə çatacaq! Xəbər verilməyibsə, deməli, sağam! Gecikdiyim hallarda məni gözləmə, uzan yat və qətiyyən nigaran qalma!" Mən də narahat olaraq dedim: "Məni başa düşmək əvəzinə niyə özündən çıxırsan?" Beləcə, mübahisəmiz bir qədər uzanarkən hətta axşam namazını saat 9-da qıldığını söylədi. Namazı ilk vaxtda qılmağa nə qədər ciddi əhəmiyyət verdiyini yaxşı bilirdim. Kəsilməyən göz yaşlarım onun əhvalını dəyişdi və əllərimdən tutaraq halallıq istəməyə başladı. Dedi: "Gör, mən nə qədər səhv edirəm və haqqınızı gözləmirəm! Sən Allah, məni bağışla! Əsla narahat olmağına razı deyiləm!" O, üzrxahlıq etdikcə qəlbim

kövrəlir, peşmançılıq hissi keçirirdim. Gecikməyinin səbəbi həmkarlarından birinin başına gələn ciddi hadisə ilə bağlı idi və namazı da ona görə təxirə düşmüşdü. Hətta cinayətkarlara haqsızlığı rəva görmədiyi halda hər bir şəraitdə dost-tanışları və həmkarlarına qarşı canfəşanlığı təbii idi. Məsələn, bir dəfə zindanların birində keşikçi kameraları gözdən keçirərkən qəribə hadisənin şahidi olur. O, salonun küncündə başına ədyal çəkib uzanan şəxsin üzərindən onu kənara çəkərkən Əbdülmehdi ilə qarşılaşır. Keşikçinin özünü itirdiyini görərkən tez barmağını dodaqlarına qoyur ki, kimsə başa düşməsin. Daha sonra səbəbini ondan soruşan keşikçiyə belə izah edir: "Özüm məhbusların vəziyyəti ilə yaxından tanış olmaq istəyirdim. Onların da ehtiyaclarının təminində səhlənkarlığa yol vermək olmaz." Yaxud, başqa bir vaxtda qanun pozuntusu üstə tutulan əfqanıstanlı bir vətəndaşa həmkarları tərəfindən vurulan şilləyə "Qardaş, sən də mənim üzümə bir şillə vur!" – deyərək belə reaksiya göstərir və gözlənilməz rəftarına təəccübünü bildirən həmkarlarına isə belə deyir: "Siz mənə tabesiniz və ixtiyarımda olan orqanda baş verən hər hansı haqsızlığa görə mən cavabdehəm!"

Sircanda onun əksər günləri şəhərin ictimai problemlərinin həlli və mənim də vaxtım körpələrə qayğı ilə keçirdi. Ürəyim ata yurdunda həftəlik təşkil olunan rövzə məclisləri üçün yaman darıxırdı. Mənə iki xırda uşaqla qonşuluqda təşkil edilən

məclislərdə iştirak etmək çətin idi. Özü də vəzifəsinin əhəmiyyəti ilə əlaqədar evimizdə hər hansı məclisin təşkilinə icazə vermirdi. Bizim zonadan fərqli olaraq burada siyasi hərəkət və hadisələr ictimai-mədəni məsələlərə təsir edirdi. O isə mövcud siyasi partiya və cinahların perspektivinə rəğmən xalqın parçalanması və cinahlara ayrılmasının əleyhinə idi. Odur ki, rayonda vəhdətin təmini məqsədlə məhərrəm ayı ərəfəsində "Sircan sepah əsgərləri komitəsi"nin təşkili onun əhəmiyyətli addımlarından sayılırdı.

# On ikinci fəsil

## Kədərləri boğmalı idim

Getdikcə özümü pis hiss edirdim. Müayinədən sonra məlum oldu ki, üç aydır hamiləyəm və indiyədək hiss etməməyim çox qəribə idi. O ərəfədə[1] Əbdülmehdi cəbhəyə hazırlaşırdı. Ona pişim-pişimlə vəziyyəti açarkən gözlərində sayrışan sevinci müşahidə elədim. Mənə özümdən muğayat olmağı tapşırıb gedən gündən qayıdanadək bir ay çəkdi. Qayıdandan sonra əlimdən tutacağına ümidim vardı. Lakin məşğələsi başından aşdığından ev işlərinə vaxtı yox idi. Evdə adi süpürgə olmadığından neçə müddət idi ki, ev-eşiyi köhnə əski ilə silib təmizləyirdim. Hər dəfə almağı unutduğuna və ya evə gecə gəldiyinə görə, axır, qonşumuz mənə süpürgə verdi. Zəruri

[1] Sentyabr ayı, 1984.

şeylər üstə yaranan inciklik və narazılıqlar zamanı nüfuzlu baxışları hər hansı etiraza son qoyurdu.

Hamiləliyin son ayları yaxınlaşdıqca yoldaşıma daha çox ehtiyac duyur, kənarımda olmağını arzulayırdım. Bununla belə, bizə Zərəndə getməyi tapşırıb, yenə cəbhəyə – cənub bölgəsinə yollandı.[1] O arada mən də bir dəfə atamgilə baş çəkib, yenə Kermana qayıtdım. Doğumqabağı günləri ata yurdunda keçirmək istəyirdim. Amma hər dəfə qayınatam razı olmayıb, deyirdi: "Qızım, oğlumun biri yoxa çıxıb, gördüyün kimi, o biri də cəbhədədir və qayıtmağı məlum deyil! Uşaqlar əl-ayağıma dolaşmayanda bağrım çatlayır. İndi ürəyim bu xırda balalarınla təskinlik tapır, onları görəndə hər şeyi unuduram!" Ona da ürəyim yanırdı. Həqiqətən Fatimə dil açandan sonra onun boş vaxtını doldurur, övlad hicranına tab gətirə bilirdi. Belə darıxdırıcı günlərdə mən də Əbdülmehdinin əmisi arvadının şux söhbətləri ilə təsəlli tapırdım.

1985-ci ilin bayram günləri də gəlib keçdi. O vaxtadək hələ də bayram münasibəti ilə valideynlərimə baş çəkə bilməmişdim. Çünki qayınatam harasa tək gedib-gəlməyimə razı deyildi. Nəhayət, yoldaşımın əmisi arvadının giley-güzarından sonra razılıq versə də o axşam ağrılarım özünü büruzə verməyə başladı. Xoşbəxtlikdən, Əbdülmehdinin dayısının tanışlığı ilə Kermanın "Ayətullah Kaşani" adına xəstəxanasında müayinədən keçdim və bu dəfə

---

[1] Yanvar ayı, 1985.

oğlumuz Mustafa dünyaya gəldi. O ərəfədə camaat arasında Əbdülmehdinin şəhid olduğu barədə xəbərlər yayılırdı. Mən isə gecə-gündüz ağlayaraq Allahdan onun sağ-salamat qayıtmağını arzulayırdım. Ürəyimi daha çox ağrıdan məsələ çoxlarının onun şəhadətini uşağın ayağının yüngüllüyü ilə əlaqələndirməsi idi. Allaha yalvarırdım ki, ərim övladını görməmiş şəhid olmasın. Belə vəziyyətdə bəzilərinin xurafat fikirləri də adamı incidirdi. Xəstəxanadan qayıdandan sonra anam neçə günlük mənə qulluq məqsədilə bizə gəldi. Bir səhər sübh namazından sonra qapının zəngi çalınanda, evdə bir nəfərə kimi hamımızın ürəyi düşdü. Namazdan sonra "təqibat"[1] üstə əl-ayağa düşən qayınatam yerindən qalxınca qayınanamla əmisi arvadı hədsiz həyəcanla qapıya yüyürdülər. Hətta ayaqları dolaşaraq az qaldı yerə yıxılsınlar. Hamı həyətə axışdı və mən özüm də birtəhər yerimdən qalxıb, evdən çölə çıxdım. Əbdülmehdinin həmişəki kimi ata-anasının əllərindən öpdüyünü görəndə, daha özümü saxlaya bilmədim və gözlərimdən sel kimi yaş süzülməyə başladı. Bu görüş o vaxtadək bizim həyatımızda keçirdiyimiz ən həyəcanlı hadisə idi. Əbdülmehdi əvvəlcə Məryəmlə Fatiməni bağrına basdı, sonra isə Mustafanı qucağına alıb, iyləyib-öpməyə başladı. Sevincimizin həddi-hüdudu yox idi və demək olar, o anda ən xoşbəxt ailə biz idik. Adəti üzrə səhər yeməyindən sonra vaxtı itirmədən yenə işə getdi. Elə bilirdim ki, uzun müddətdən sonra neçə gün

---

[1] Namazdan sonra deyilən dua və zikrlər.

evdə qalıb, istirahət edəcək. Həm yorğun, həm də yaralı olmasına baxmayaraq işdən qalmaq fikri yox idi. Bu minvalla, axır, Mustafanın iyirmi beş günlüyündə atamgilə gedə bildik.

Qırx gündən sonra növbəti ramazan ayı gəlib çatdı. Yenə ötən illərdəki kimi oruc tutmağa başladım. Tanış-bilişlərdən mənə belə vəziyyətdə orucun zərərli olduğunu deyənlərə sadəcə susaraq təbəssümümlə cavab verirdim. Doğrusu, həm südüm vardı, həm də Mustafa uzun-uzadı yatırdı və mən də çətinlik çəkmirdim. Yuxusu həddən artıq uzanaraq nigaran olduğum hallarda dərdiyi zərif nəfəsləri məni arxayın edirdi. Uşağın belə aramlığı oruclarımı rahat tuta bilməyimə kömək edirdi.

Bir dəfə gecənin yarısı çöldən gələn səsə ayılıb, saata baxdım. Saat düz iki idi və evdə hamı yatmışdı. Bir daha taqqıltı və çağırış səsini eşidərkən qapıya yaxınlaşdım. Sircan ləhcəli tanış olmayan bir qadın o tərəfdən belə səsləndi: "Cənab Məğfuri evdədir?" Ondan kim olduğunu soruşarkən "İşim var!" – dedi. Ona "Ay xanım, qalsın sabaha, indi iş saatı deyil ki!" – deyə cavab verdim. Mənə elə gəldi ki, yoldaşım qapını açan kimi onu terror edib, aradan çıxacaqlar. Odur ki, bir daha dedim: "Yox xanım, indi qətiyyən olmaz!" Qapının arxasından danışıq səsləri gəlirdi, qadın və ya kişi və neçə nəfər olduqları məlum deyildi. Əl çəkmədikləri zaman "Gözləyin!" – deyib, evə qayıtdım. Telefonu əlimə alıb o biri otağa keçdim. İstəyirdim ki, Əbdülmehdi yuxudan ayılmamış idarəyə zəng edib, bu haqda məlumat verim. Sözüm

bitməmiş Əbdülmehdi ayılaraq soruşdu: "Gecə vaxtı kiminlə danışırsan?" Onu Allaha and verib, yalvardım ki, hələlik qapını açmasın. Sonra da hadisəni danışdım. Dəstəyi əlinə alıb, gecə keşikçisi ilə söhbətə başladı. Məmurlar gəlincə özü qapını açıb, ətrafa nəzər saldı və gözünə şübhəli bir adam dəymədi.

Həmkarı Mehdi Əmirini əqrəb çaldığı gündən Əbdülmehdinin işləri ikiqat artmışdı. Həkim ona bir müddət istirahət etməyi göstəriş vermişdi. Həyat yoldaşı hamilə və qızı Zeynəb isə xəstə idi. Yazıq uşağı qarın ağrısı və qusma əldən salmışdı. Çox vaxt hər ikisi bizdə olurdu və üç xırda uşağımla bərabər onlara da qulluq edirdim. Hər gün körpələrin batırdığı əskiləri yumaqla əlləşir, vaxtımın çoxu onlara gedirdi. Əziyyət çəkdiyim halları dərk edən yoldaşım hər dəfə mənə iş və əməllərimi sırf Allaha xatir görməyi tövsiyə edirdi. Həqiqətdə onun razılığı mənə hər şeydən mühüm idi. Çalışırdım ki, hər hansı zəhmətimlə onu sevindirim və simasından razılıq hissi çəkilməsin. Əmin idim ki, mənim də əməyim Allahın razılığına səbəb olacaq. Zeynəbin halı gün-gündən pisləşdikcə səbrim tükənirdi. Yoldaşıma dedim: "Allah haqqı, daha yorulmuşam! Üç uşağımdan əlavə camaatın arvad-uşağının da yükü üzərimə düşüb! Ev-eşik tez-tez batır, hər şeyi suya çəkməli oluram..." Belə hallarda o da qollarını çırmalayıb, mənə qoşulur, hətta uşaqların əskilərini yumaqdan çəkinmirdi. Zeynəbin lap ağır vəziyyətində uşaqla bərabər əlində bir stəkan su ilə içəri otağa keçib, yarım saat ərzində

elə bir iş gördü ki, hamımız mat qaldıq. Sanki Zeynəb bir qədər qabaq can üstə olan həmin uşaq deyildi.

Neçə gün sonra işdən evə fikirli qayıtdığını görüb, səbəbini soruşdum. Əvvəlcə sözümə məhəl qoymadı. Nigaran olaraq əl çəkmədiyimi gördükdə, başına gələn hadisəni açmağa məcbur oldu. Dedi: "Bir-iki gün qabaq evə qayıdarkən yolun kənarında dayanan iki cavandan biri məndən adres soruşdu. Dedim ki, oturun tərkimə, sizi aparım. Deyilən adres yolumun üstündə idi. Maraqlısı odur ki, onların ikisi də bu gün həbs edilib. Sorğu-sual zamanı etiraf ediblər ki, həmin gün terror qəsdi ilə mənə yaxınlaşıblar və adres bəhanə imiş. Məni öldürmək istəyən deyirdi: Məğfuri təmənnasız və çox rahat bizi aparmağa razı olduqda, hərifin öz ayağı ilə tora düşdüyünə yaman sevindik. Əməliyyat iki nəfərlə həyata keçməli idi. Amma tərkinə minəndən sonra ürəyimə elə vahimə düşdü ki, heç cürə atəş aça bilmədim. Bizi məqsədə çatdırıb, gedəndən sonra rəftarıma görə dəfələrlə ciddi danlanmalı oldum. Doğrusu, o gün mənə elə gəldi ki, onu yuxarıdan qoruyan fövqəladə qüvvə var." Hadisəni maraqla dinləyəndən sonra ixtiyarsız olaraq səcdəyə düşdüm. Əlbəttə, Əbdülmehdi din və inqilabın düşmənlərinin ürəyinə xof saldığı qədər dost və silahdaşlarının da qəlbinə ümid bəxş edirdi və ona görə canını qurban verməyə hazır idilər.

Artıq Sircanda fəaliyyəti başa çatmaq üzrə idi. Həmin ərəfədə idarənin işçilərini ailəvi Məşhədə ziyarətə göndərdilər. Məşhədə çatınca körpələr qollarımızda əlbəəl dolanır, hərəsinə bir cür qayğı

göstərməli olurduq. Şəhərə çatandan sonra böyük bir bina kirayə edildi və hər ailə bir otağa yerləşdi. Ziyarət qüslü edəndən sonra dəstə ilə hərəmə tərəf axışdıq. Əbdülmehdi "inqilab" salonunda həmkarları qarşısında alovlu çıxışı ilə onları vəcdə gətirdi. Ziyarət zamanı xırda uşaqlar əl-ayağa dolaşır, qucaqda körpə ilə namaz, dua, zikr etmək çətin idi. Kişilər hədsiz şövqlə zərihə doğru can atdıqları halda bizlər isə salon və həyətlərdə gəzişərək uşaqların başını qatmalı olurduq. Ziyarət günləri Əbdülmehdi öz aləmində idi. Hərəmə girəndən çıxanadək dodaqları tərpənir, dilindən zikr və dua əskilmirdi. Hərdən mənə də deyirdi: "Ziyarətə həvəsin olmadığı və ya azan deyilərkən qəlbin kövrəlmədiyi hallarda müstəhəb əməllərlə məşğul ol, ya qüsl et, yaxud bacarsan, oruc tut, bir daha ziyarət qəsdi ilə hərəmə can at ki, İmamın lütf və məhəbbətini qazana biləsən!" Hər dəfə uşaqların əziyyəti ilə bağlı şikayətlənəndə də məndən dəfələrlə üzrxahlıq etməkdən başqa çarəsi yox idi. Düzü, mən onunla ayaqlaşa bilmirdim və onun qədər dua və ibadətə taqətim çatmırdı. Bilirdim ki, onun kənarında mənim də əməllərim əbəs deyil və hər dəfə gözüm müqəddəs günbəzə sataşarkən mənə edilən minnətsiz mərhəmətə görə min dəfə Allaha şükür edirdim.

Həmin il məni sevindirən hadisələrdən biri də hər ikimizin valideynlərinin "təməttö" həccinə sağ-salamat gedib qayıtmağı oldu. Amma tərslikdən valideynlərimiz ayrı-ayrı günlərdə qayıtdıqlarına görə aldığı qoyunu eyni vaxtda qarşılarında qurban kəsə

bilmədik. Az müddətdən sonra Əbdülmehdinin Sircanda vəzifəsi başa çatdı və ev əşyalarımızı yığışdırıb, yenidən Kermana qayıtdıq.

# On üçüncü fəsil

## Kerman – kərimlər diyarı

1985-ci ilin qışına bir şey qalmırdı. Kermana qayıdandan sonra bir daha ev kirayəsi problemi ilə qarşılaşdıq. Çünki atasının evində qaldığımız mənzili kirayə etmişdilər. Yenə də hər ikimizin istək və tələblərinə uyğun münasib ev tapmaq çətin idi. Axır, əmisi ilə danışıb, evlərindəki bir otaqlı guşəni kirayə etdik. Başqa çarəmiz yox idi və bundan sonra on iki kvadrat metrlik otaqda yaşamalıydıq. Otağın giriş qapısı dalana, o birisi isə eyvana doğru açılırdı. Yükümüzü boşaldandan və içərisini səliqə-sahmana salandan sonra yalnız soyuducu, peç, sandıq, güzgü və s. zəruri olan əşyalarımızı yerləşdirə bildik. Atasıgilin evi də küçəmizlə üzbəüz o tərəfdə yerləşirdi. Neçə gündən sonra çox bikef halda evə girdiyi zaman mənə elə gəldi ki, dünyanın bütün qəmi

onun üzərinə düşüb. Səbəbini soruşanda, "Sarəllah" diviziyasına keçməyə icazə verilmədiyini bildirdi. Ürəkdən sevinərək dedim: "Vay, xeyir ola?! Hər halda Allah bilən məsləhətdir!" İcazə verməyən şəxs isə komandiri Qasim Süleymani idi. Ona istəyindən keçmək çətin olsa da komandirinə itaət hər şeydən mühüm idi. Odur ki, əmrə tabe olaraq rayonun könüllülər komissarlığının rəhbərliyini üzərinə götürdü.

Yanvar ayının əvvəlləri idi və xalq hədsiz şövqlə "parlaq on gün"[1] və inqilabın ildönümü münasibəti ilə bayrama hazırlaşdığı ərəfədə Əbdülmehdi cəbhəyə getmək fikrində idi. Hər dəfə bir-birimizdən ayrılarkən tənhalığın acısı mənə qalır, bəzən səhərədək ağlayır, təskinlik tapmaq üçün yüz dəfələrlə "Ayətəl-kürsü"nü oxuyur, bir böyürdən o biri böyürə çevrilir, daxilimdə özümlə çarpışırdım. Quranın altından onu ötürərkən bütün vücudumu bürüyən ahım dözülməz hisslərimin təzahürü idi. İştirak etdiyi əməliyyat olduqca strateji əhəmiyyət daşıyırdı. Mən onun Ərvənd çayı üzərində həyata keçirilən "Vəlfəcr-8" adı ilə sonralar tanış oldum. O ərəfədə arxa cəbhəyə tez-tez xoşagəlməz xəbərlər gəlirdi. Əməliyyatdan neçə gün sonrayadək ürəyim rahatlıq tapmırdı.[2] Daim nigarançılıq keçirir, əlim heç bir işə yatmırdı. Tez-tez inciyir, hisslərimi ələ ala bilmirdim.

---

[1] İmam Xomeyninin Fransadan İrana qayıtdığı gündən inqilabın baş verdiyi günədək keçən on günlük ərəfə.

[2] O da həmin əməliyyatda şüalanmaya məruz qalır.

Xırda bir hərəkətlə qəlbim kövrəlir, gözlərimin yaşı süzülürdü. Gündüzlər gözüm qapıya, gecələr isə səmaya zillənir, bəzən səhərədək oyaq qalırdım. Bu əməliyyatda İraq Fav məntəqəsini əldən verdiyi üçün əvəz çıxmaq məqsədilə qüvvələrimizin mövqelərini kimyəvi-zəhərli bombalarla atəşə tuturdu. Çoxlarının şəhadət xəbəri yayıldıqca Əbdülmehdinin də adı dillərdə gəzirdi. O isə şəhid olduğu ehtimal verildiyi müddətdə yaralı idi və Tehranda xəstəxanada yatırdı. Biz isə geri qayıdınca ondan xəbərsiz qaldıq. Bir gün səhər tezdən qapının döyülən tanış səsindən bildim ki, gələn Əbdülmehdidir. O vaxt hansı halda özümü qapıya çatdırdığım yadımda deyil. Qapını açıb, onu sağ görərkən sevincimlə göz yaşlarım bir-birinə qarışdı. Yaralı vəziyyətinə tamaşa etdikcə yaşlarım sel kimi süzülürdü. Bütün əl-ayağı sarıqlı idi, nə rahat yeriyə bilir, nə də əlləri işləyirdi. Dərhal qoltuğunun altına girib, yavaş-yavaş evə gətirdim. Sağ qayıtmağına sevinsək də yaralı vəziyyətinə görə hamımız nigaran idik. Atası oğlunu yoluxduğu zaman böyük təəssüflə mənə deyirdi: "Qızım, daha ərinə cəbhəyə getməyə icazə vermə! Bu uşaq şəhid olmağa can atır! Sizin üç balanız var!" Mən də dedim: "Ata, mənim daha deməyə sözüm qalmayıb! Siz onun atasısınız, sözünüzü eşidər! Mənə qulaq asmır, məni boşamağa hazırdır, amma cəbhəni yox! Cəbhəyə yollandığı vaxt sizinlə vidalaşarkən icazə verməyin! Məncə eşidər, atasısınız, boynunda haqqınız var!" Ondan başına gələnlərlə bağlı sorğu-sual və uzun isrardan sonra yalnız bombardman zamanı

yaralandığını öyrənə bildim. Mənə hər şeydən əvvəl sağ qayıtmağı mühüm idi və buna görə Allaha şükürlər edirdim. Onsuz da hər dəfə onu oxşar ağır vəziyyətdə qarşılayırdım və sadəcə kənarımda sağ olmağına razı idim. Yaralı bədəni tez-tez qızdırmaya məruz qalır, rəngi solur, hansı ağrılara dözdüyünü hiss edirdim. Cismi isti və ya soyuğun heç biri ilə uyğunlaşa bilmirdi. Bəzən ağrıların şiddətindən gecədən səhərədək gözlərinə yuxu getmirdi. Dəfələrlə özümü onun yerinə qoysam da heç vaxt çəkdiyi ağrıların şiddətini dərk etməyə qadir deyildim. Bəzən əlimdəki cüzi cızıq və kəsiyi bəhanə edərək əməllərimi düzgün yerinə yetirə bilmədiyim halda, amma onun heç bir halda ibadət və əməllərində dəyişikliyin şahidi olmadım. Kimyəvi zəhərlənmə ilə bağlı yaralarının vəziyyəti çox pis idi və bədənində şar formalı qabar və suluqlar əmələ gəlirdi. Hər iki qolunun sümükləri çatlamışdı və dərisi və əzələləri əzilmişdi. Deməki olar, bütün günü dərman və dezinfeksiya ilə keçirdi. Bununla belə, dəstəmaz və ibadətindən geri qalmır, hər dəfə sarıqlarını açaraq yaralarını sabunla yuyub təmizləyir, dəstəmaz alıb, ibadətlə məşğul olurdu. Qışın soyuğuna baxmayaraq bütün bunları soyuq su ilə edirdi və mənə də su qızdırmağa icazə vermirdi. Çəkdiyi ağrıların şiddətinə baxmayaraq heç vaxt zarıldamasını görmədim. On iki metrlik darısqal otaqda neçə xırda uşaqla keçirdiyimiz güzəranı sözlə demək olmur. Yoluxmağa gələn qohum-əqrəba və dost-tanışı qarşılamağın öz çətinlikləri vardı. Tələsik otağı sahmana salmaq,

körpələri və paltarları yerbəyer eləmək, samovar qalamaq, biş-düşlə əlləşmək rahat deyildi. Əksərən yer ağaran vaxtdan fəaliyyətə başlayır, hazırlıq və tədarük işləri ilə məşğul olmağa məcbur idim. Xülasə, səhərdən axşamadək vaxtlı-vaxtsız gələn qonaqları layiqli qarşılamaq üçün əlimdən gələni edirdim. Əmisi dəfələrlə Əbdülmehdinin öz qonaq otaqlarına köçürülməsini xahiş etsə də razı olmurdum. Bilirdim ki, o özü də istəmir və başqalarının əziyyətinə razı deyil. Yaraları irinləmə nəticəsində uzun müddət sağalmaq bilmirdi. Qabarlar deşildikcə içərisindən sarı maye axır və pis qoxu verirdi. Bunları görə-görə mənim onları təmizləməyə taqətim çatmırdı. Özü onları təmizləyib, sarığını dəyişdikcə mən ax-uf edir, ondan isə qətiyyən səs-səmir çıxmırdı. Yaralı vəziyyətini nəzərə almadan getdiyi hər yerdə əməl və rəftarlarına ciddi əhəmiyyət verir, heç nə gözündən yayınmırdı.[1] O ərəfədə əməliyyat barədə çıxış edib, məlumat vermək üçün Sircana dəvət olundu. Hələ tam sağalmamış neçə uşaqla avtobusla ora getməyimiz məni yaman təngə gətirdi. Ayrıca maşın göndərmədiklərinə görə hər dəfə deyinərək təşkil edənlər barədə çox pis gileylənərkən yoldaşımın cavabı yalnız – "Xanım, qeybət eləmə!" idi. Şəhidlər xiyabanında böyük izdihamla keçirilən bu görüş həyatımda yadda qalan hadisələrdən biridir. Heyif ki,

[1] Məsələn, təsadüfən yerə düşən müqəddəs yazı, təsvir və s. gözünə dəyərkən çətinliklə də olsa əyilib götürər, cibinə qoyub evə gətirər və yuyub təmizləyəndən sonra torpağa basdırardı.

əl-ayağıma dolaşan uşaqların əlindən yoldaşımın rəşadət, mərdlik, şəhadət və s. səciyyələri ehtiva edən möhtəşəm çıxışını yaxşı dinləyə bilmədim. Sonradan həmkarının həyat yoldaşından eşitdim ki, ayrıca maşın göndərilməyinə icazə verməyən elə Əbdülmehdinin özü olubmuş. Onun beytül-mala qarşı mövqeyini bir daha anlayandan sonra yolboyu təşkil edənləri pislədiyimə görə çox peşman idim və unutqanlığıma görə susmaqdan başqa çarəm yox idi.

# On dördüncü fəsil

## Seyid Kamal Musəvi

Artıq əmisigilin evini tərk edib, sepaha verilən şirkət evlərinə köçməli idik. Hər hansı evi kirayə edib, yerləşərkən Əbdülmehdinin tapşırdığı birinci məsələ camaatın evinə xəsarət dəyməməsi idi. Odur ki, evə dəyən cüzi xəsarəti ödəyib, əmisigillə vidalaşdıq. Yüklərimizi daşıyıb, yeni mənzilə köçürəndən sonra yoldaşıma xüsusi otaq ayırdım. Keçirdiyimiz o vəziyyətdən sonra rahat istirahət edərək, az da olsa, ağrı və yorğunluqlarının aradan qalxmasını istəyirdim. Özü eyninə almasa da vücudundakı dərd və ağrıları davam edirdi. Həkimin tapşırığına əsasən, orqanizmin şüalanmanı dəf etməsi üçün ardıcıl meyvə şirələri və sulu xörəklərlə qidalanmalı idi. Ona görə, həm özümüz alır, həm də yoluxmağa gələnlər belə şeylər gətirirdilər. Xoşbəxtlikdən, yoluxmağa

gələnlərdən biri də seyid Kamal Musəvi oldu.[1] Əbdülmehdinin onun xalis müridi olduğunu və hər göstərişinə qulaq asdığını bilirdim. Mən də fürsətdən istifadə edərək qarşılarına neçə stəkan meyvə şirəsi qoydum. Hər dəfə bir bəhanə imtina etsə də bu dəfə birinci stəkanı içməli oldu. Neçə dəqiqədən sonra yenə bir-iki stəkan apardım. Seyidin xahişi ilə ikincisini də içdi və daha üçüncüsünə əl uzatmadı. Onların arasında bir qədər söhbət getdi. Deyəsən, bir ehtiyaclıya veriləcək evin tikilib, istifadəyə hazır olduğundan danışırdılar. Adətən, seyid Kamalın xüsusi təlim dərsləri məğrib namazından sonraya düşürdü. İştirak edənlərə tapşırırdı ki, mənəvi halı qorumaq üçün namazdan sonra kənar mövzular barədə artıq kəlmə kəsilməsin və özü də heç kimlə danışmazdı. Dərslər ya məsciddə, ya da onun öz

[1] Seyid Kəmaləddin Musəvi dövrün böyük alim və arifi idi. Onun mənəvi məqamı barədə bir sıra böyük şəxsiyyət və xüsusi şagirdlərindən başqa məlumatı olanların sayı az idi. Çoxlarından fərqli olaraq əksər fəaliyyətini böyük şəhərlərə yox, kənd və qəsəbələrə həsr etmişdi. Əlbəttə, ömrünün axırlarında etdiyi səxavətli işləri və ya "teyyül-ərz" kimi irfani hallarının yayılması nəticəsində xalq arasında tanınmağa başlamışdı. Özü əslən şirazlı olsa da fəaliyyəti və əksər şagirdləri Kermanda idi. On üç ilə yaxın imam Xomeyninin şagirdi olmuşdu və İmamın və rəhbər Xameneinin ona xüsusi hörməti vardı. Onunla Əbdülmehdi arasında rabitə kimyəvi bombardmandan sonra yaralı yatdığı dövrdə yoluxmağa gəldiyi zamandan başlamışdı. Əbdülmehdinin belə bir ustada şagird və mürid olmağı çoxdankı arzusu idi. Ustadın təfəkkür və təlim tərzi sırf tərki-dünyalığı tövsiyə edən rahiblik və sufiliyə əks olaraq tam real həyatla uzlaşır və ölçülüb-biçilirdi. Həmişə deyərdi: "İrfan insanı rahat bir guşəyə sığınmağa yox, həyatın siyasi, ictimai, hərbi meydanlarında hazır olmağa çağırır."

evində təşkil edilir, Əbdülmehdi də verilən təlimlərə əsasən əməl edirdi. Bizə qonaq gəldiyi günlərdə yoldaşımın otağına keçib, xüsusi söhbətləşərdilər.

Qarşıdan novruz bayramı gəlirdi və adət üzrə başım xalça-palazı yumağa qarışmışdı. Ötən bayramlardakı kimi o da mənə kömək edirdi. İlk illərdə suyun təzyiqinə baxmadan krantı açıb, istədiyim kimi istifadə edərdim. O da hər dəfə onu bağlayaraq deyərdi: "Lazım olan qədər aç və israfa yol vermə! Onu da bil ki, hər şey su ilə təmizlənmir." Çox vaxt baxışları ilə vəzifəmi anlayırdım və israfa yol verməməyə çalışırdım. Bayram məqsədi ilə uşaqlara təzə ayaqqabı almaq istədiyimiz gün çeşidlərə nəzər salarkən satıcının tərifindən sonra dedim: "Mehdi, bunlar yaxşı, keyfiyyətli ayaqqabılardır!" Üzərində ingiliscə yazılan emblemi göstərərək dedi: "Yox, olmaz!" Mən də "Nə olar, xarici deyillər ki, İranın istehsalıdır!" – deyə cavab verərkən belə dedi: "Olmaz, xanım! Bu yad dilin təbliği sayılır və belə şeyləri uşağa almaq düz deyil!" Tanış xanımlardan eşitmişdim ki, hər il bayram payı olaraq idarədən hər ailəyə bir qızıl sikkə hədiyyə verilir. Mənə də maraqlı gələrək ondan soruşdum: "Deyirlər ki, hər il bayram payı olaraq sikkə verilir, bəs, bizim payımız hanı? Sən almamısan?" Dedi: "Niyə, almışam. Cəbhəyə – yardım komitəsinə verdim." Dedim: "Verməmişdən qabaq, heç olmasa, bizə göstərərdin, üzünü görərdik!" O da kinayə ilə dedi: "Lazım deyil, sikkənin parıltısı gözünə dəyməsə

yaxşıdır! Sonra ürək bağlayıb, əlin əsər və verməyə ürəyin gəlməz!"

Bayram ərəfəsi Zərəndə getməyə hazırlaşırdıq. Həmin gün yoldaşım evdə deyildi. Telefon zəng çalandan sonra tanış olmayan şəxsin səsinin tonu diqqətimi cəlb elədi:

– Cənab Məğfuri evdədir, yoxsa işdə?

– Kimdir soruşan?

– Qərara gəlmişdik ki, bu gün görüşək.

– Özü demişdi bu gün görüşü var.

– Harada?

– Harada olduğunu mənə demir.

– Lap yaxşı, motosikletlə gedib, ya maşınla?

– Sizin nəyinizə lazımdır?

– Əgər nəqliyyat vasitəsilə getsə, məlumdur, tez çatacaq.

– Bilmirəm, mənə aid deyil.

– Onda, əynində şəxsi paltar var idi, yoxsa sepahın forması?

– Paltarı sizin nəyinizə lazımdır?

– Bilək, görək hansı paltarla çıxıbsa, biz də o paltarı geyinək.

Hövsələdən çıxaraq "Zəng edib, özündən soruşun!" – deyib, dəstəyi qoydum. Qayıdandan sonra əhvalatı ona danışdım. Həyəcanla soruşdu: "Ona günortadan sonra Zərəndə gedəcəyimiz barədə bir söz demədin ki?" Dedim: "Özün bilirsən ki, mən daha uşaq deyiləm!" Onun qanına susayan münafiqlərin vaxtlı-vaxtsız təhdidlərindən sonra mən də müəyyən qədər təcrübə qazanmışdım və öz işimi bilirdim. Odur ki,

Əbdülmehdinin belə hallara laqeydliyi mənə də ürək-dirək verir, yavaş-yavaş təhlükələrə qarşı müqavimət hissim artırdı.

Ramazan ayının gəlişi ilə yenidən əhval-ruhiyyəmizi dəyişən get-gəllərin və qonaq-qaralı iftar axşamların şahidi idik. Ailəvi qonaq çağırma-qonaq qarşılama yaxın qohumlar və dost-tanışlar arasında bəyənilən adətlərdən idi. Artıq neçə illər ərzində qazandığım kifayət qədər təcrübəm mənə tədarük, qarşılama və biş-düş işlərində cəsarət verir, daha əl-ayağımı itirmirdim. Üç xırda uşaqla mənə get-gəl çətin olduğu üçün işim çox vaxt qonaq qarşılamaq idi. Keçən ilkinə nisbətən bu il qonağımız çox olurdu və qaz balonumuz qurtardığı günlərdə neft pilətəsindən istifadə edirdim. Belə hallarda uşağın pilətəyə toxunaraq əl-ayağı yanması da başqa dərdi-sər idi. Adətən, bu kimi hadisələrdə reaksiyalarımız fərqli olaraq söz-söhbət mənim giley-güzarımla başlayaraq onun təmkinli tövsiyələri və təbəssümü ilə başa çatırdı. Hərdən qonaqların şəxsiyyəti və sayından asılı olaraq onun xahişi ilə neçə cür xörək hazırlamalı olurdum. Özümdən asılı olmayan bəzi narazılıq və şikayətlərə baxmayaraq aramızdakı səmimi məhəbbətə görə hər işi ürəkdən görür, ondan ötrü hər şeyə razı idim. Əlbəttə, bu cür qonaqlıqlar yalnız ramazan ayına məxsus idi və orucluqdan sonra yenə adi qaydaya düşürdü. Çünki onun sadə həyatında təmtərağın mənası yox idi.

Bir axşam iftardan və qonaqlar gedəndən sonra mənə dedi ki, ananı xəstəxanaya aparıblar. O

vaxtadək mənə xəbər vermədiyi üçün əlindən narahat oldum. Bunu qonaqları yola salandan sonra məsləhət bildiyinə görə məndən çoxlu üzrxahlıq etdi. Elə həmin gecə vaxtı itirmədən xəstəxanaya yollandıq. O saatda görüşə icazə yox idi. Axır, çox xahişdən sonra yalnız bir nəfərə görüşə icazə verdilər. Yoldaşım dedi ki, get ananın vəziyyəti ilə yaxından tanış ol. Mən anamın yatdığı palataya girəndə, o biri bacım kənarında əyləşmişdi. Hal-əhvaldan sonra vəziyyəti ilə bağlı bir qədər söhbət etdik. Əməliyyat sabaha təyin olunmuşdu. Uşaqlara görə yanında qala bilməzdim. Nigaran halda geri qayıdıb, ertəsi gün əməliyyatdan qabaq bir daha özümüzü xəstəxanaya çatdırdıq. Anamla bərabər hamımız təşviş keçirirdik. Görüş vaxtının son anlarında Əbdülmehdi anamın başı üstə dayanıb, həmd surəsini oxuyaraq üzərinə üfürdü. Növbəti gün səhər həyəcanla əməliyyatın necə keçdiyi barədə məlumat almaq istəyirdik. Dəfələrlə zəng etsək də telefona cavab verən yox idi. Odur ki, günortadan sonra bir daha özümü xəstəxanaya yetirdim. Anamın öz çarpayısında rahat uzandığını və əməliyyatdan əsər-əlamət olmadığını gördüm. Halını soruşanda dedi: "Kaş biləydin nə baş verdi! Əbdülmehdi başımın üstündə həmdi oxuyandan sonra şəfa tapdım və rahat sağaldım! Daha sonra növbəti müayinəyə gələn həkimə dedim ki, özümü daha yaxşı hiss edirəm, heç bir problemim yoxdur. O isə təkidlə əməliyyata hazır olmağı söyləyərkən mən də fikrimdən dönmədim. Meylsiz halda məni müayinə edəndən sonra özü də mat qalaraq dedi: Həqiqətən

sizin daha əməliyyata ehtiyacınız yoxdur!"[1] Beləliklə, heç bir cərrahi əməliyyata ehtiyac olmadan xəstəxananı tərk edib, Zərəndə qayıtdıq.

---

[1] Qohumlarından höccətül-islam Məhəmmədhüseyn Məğfuri başına gələn hadisə barədə belə nəql edir: "Bir dəfə ağır xəstəliyə tutulmuşdum. Həkimlər sağalmağıma ümid olmadığını demişdilər. Əbdülmehdinin bir dəstə güllə xəstəxanaya gəldiyi gün vəziyyətimi ona danışdım. Özündən asılı olmayaraq gözləri yaşla doldu. Daha sonra bir stəkan götürüb, içinə yarıya qədər su tökdü və nə isə pıçıldayaraq ona üfürdü. Sonra cibindən yaşıl bir parça çıxarıb, stəkandakı su ilə onu islatdı və nəmini dodaqlarıma çəkdikcə pıçıltı ilə "Hüseynin üç yaşlı qızına and verirəm!" – dedi. Ertəsi gün röyada özümü hicri 61-də Kərbəlada müşahidə elədim. Birdən kiçik bir qız uşağının mənə tərəf gəldiyini gördüm. Özümdən asılı olmayaraq əlimdəki su qabını ona tərəf uzatdım. Qabı alandan sonra yalnız quruyan dodaqlarını isladıb, xeymələrə tərəf geri döndü. O anda kənarından ötən bir atlı ona bir şillə vurdu. Kömək üçün nə qədər əlləşsəm də bacarmadım. Keçirdiyim amansız vəziyyətdən ayılarkən tam şəfa tapdığımı hiss etdim!" Doğrusu, bəzən belə qeyri-adi hadisələrin yaxından şahidi və içində olduğum üçün mənə adi görünürdü və onun dərinliyini qavraya bilmirdim. O illərin xatirələri bir-bir xəyalımdan ötdükcə bütün vücudu Allahın eşqi ilə dolan o böyük şəxsiyyətin məqamından qafil olduğuma görə çox təəssüflənirəm.

# On beşinci fəsil

## Cümə qüslü

1986-cı ilin qışı Bafta rayonunda iclasa dəvət olunmuşdu. Ora Kermanın ən soyuq nahiyələrindən idi və yayın oğlan çağında havası və suyu soyuq, qışında isə hər yeri buz bağlayırdı. Oranın sepah komitəsinin komandiri Əbdülmehdi ilə dost idi. Biz ailəvi onlara qonaq getmişdik. O gün evlərində başqa qohumları da vardı. Ertəsi gün səhər yeməyindən sonra yoldaşım ona dedi ki, cümə qüslü etmək istəyir. Hamı belə soyuq havada vacib olmadığını bəhanə edərək gülüşdü. O da cavab verməyib, gülümsəyərkən dedim: "Qoy, bu həftə qalsın! Hava soyuqdur, az qalır, daş çatlasın!" O isə heç nəyi nəzərə almadan "Soyuğa görə cümə qüslünü tərk etməzlər!" – deyə cavab verdi. Bilirdim ki, hər bir halda heç cür fikrindən daşınan deyil. Dostlarından eşitmişdim ki,

qışın ortasında belə buz tikələrini əridib, müstəhəb olan cümə qüslünü yerinə yetirirmiş.

Demək olar, bütün həyatı və məqsədi iki hissəyə ayrılırdı: vacib və haram. Onun baxışlarında – Allahın razılığını qazanmaq üçün – müstəhəb əməllər bir növ vacib, məkruhlar isə haram hökmünü daşıyırdı. Quran oxuyarkən ayələrin məzmununa qərq olaraq dünyadan üzülürdü. Uşaqlar çiyinlərinə qalxaraq o tərəf-bu tərəfə aşsalar da eyninə almaz, hay-küy və qışqırıqlarını eşitməzdi. Mən də ona "İnsafın olsun! Uşaqlar səni çağırır, özlərini əl-ayağına sürtür, ata-ata deyə səsləyirlər! Fikrin haradadır?" – deyərkən belə cavab verərdi: "Haçan? Harda? Əsla hiss eləməmişəm!" Mən də sözlərinə zərrə qədər şübhə etməzdim. Maşınla ora-bura gedərkən radionu yandırıb, ya xəbərlərə, ya da Qurana qulaq asardı. Bir dəfə dördyol ayrıcında vacib səcdə ayəsini eşidəndən sonra elə orada maşını saxlayıb düşdü və hamının gözü qabağında yolun kənarında vacib səcdəni yerinə yetirdi. Bütün işləri "bismillah"la başlayıb, "əlhəmdulillah"la bitirdi. Hətta neçə xətt yazını bismillahla başlayıb, axırda əlhəmdudillah deyərək imza qoyardı. Dəstəmazı olmadığı hallarda "Allah" və s. müqəddəs kəlmələrə əl vurmaz, "Qüdrətullah" kimi adları Qüdrət və s. deyə çağırardı. Kömək və yardım işlərində əlindən gələni edər, heç nəyi əsirgəməzdi. Evdə hər işimə əl tutar, məsələn, qəndi özü doğrayar, ət, göyərti və sairi yuyub təmizləyər, heç vaxt yoruldum deməzdi. Adətən, oturduğu, uzandığı və ya yemək yediyi zaman üzü qibləyə tərəf olardı. Hər

hansı qidanı yalnız Allaha və qüvvə toplamaq qəsdi ilə yeyərdi. Həmişə az yeyər və doymamış süfrədən kənara çəkilərdi. Səhər, günorta və axşam yeməkləri arasında bir şey yeməz və deyərdi: "Vaxtsız-vədəsiz yeməyə ehtiyac yoxdur və insan gördüyü hər şeyi yeməz. Bir şeyin dadlı olması hökmən yeməyə dəlalət etmir. Qida gərək ürək istəyi və tamahla yeyilməsin. Əsas məsələ bədən və orqanizmin ehtiyacını təmin etməkdir və əldə edilən qüvvə Allah yolunda sərf edilməlidir." Heç vaxt yediyi xörəyin dadına əhəmiyyət verməz, nə çeşidə fikir verər, nə də israf edərdi və orta həddi qoruyaraq yedikdən sonra zəhməti qiymətləndirərək təşəkkür edərdi. Süfrədə artıq qalıb, istifadəyə yararlı olan heç nəyi atmaz və Allahın nemətlərinə qarşı israfa yol verilməyinə razı olmazdı. Belə cüzi və eyni halda dəyərli əməlləri ətrafındakılara söz və nitqlərindən daha çox təsir edərdi. Çox vaxt aldığı meyvə-tərəvəzin bir qismi yararsız olduğundan atmalı olurdum və onun alver işlərində bacarıqsızlığına təəssüflənirdim. Axır, bir dəfə ondan soruşdum: "A kişi, bu nədir alırsan?! Yaxşı və sağlamını seçib, ala bilməzsən?!" Dedi: "Bilərəm! Amma satıcı onları seçib və ya ayırıb almır, qarışıq alır. Hər gələn yaxşısını seçib alsa, yazıq zərər görər ki! Ona görə mən də qarışıq alıram." Çalışırdı ki, əməlinə görə boynuna heç kimin haqqı düşməsin və ruzimizə haram və şübhəli tikə qarışmasın. Heç vaxt dilindən qeybətə bənzər kəlmə çıxdığını eşitməmişəm. Ümumiyyətlə, sözü, əməli və rəftarı hər hansı faydalı işin və ya problemin həlli ilə bağlı

məntiqə əsaslanırdı. Yaxşı əməllərinə toxunulduğu və ya tərifləndiyi hallarda tez sözü dəyişərək başqa mövzuya keçərdi. Az danışar, işi və ya cəbhə ilə bağlı mühüm məsələlər barədə heç vaxt söz açmazdı. Soruşsam da xeyri yox idi və anlayırdım ki, filan məsələ barədə artıq maraqlanmaq olmaz. Bəziləri hər şeyi evdə danışsalar da Əbdülmehdinin elə xasiyyəti yox idi. Çox vaxt namazlarını məsciddə camaatla qılardı. Əgər kirayə etdiyimiz ev neçə otaqlı olsaydı, bir otağı və olmadıqda isə bir guşəni xüsusi olaraq ibadət üçün ayırardı. Dəfələrlə müşahidə etdiyim hallardan biri əllərinin qünutdan aşağı enməməsi idi. Bəzən əlləri qünutda bir saatdan artıq çəkərkən hansı namazı qıldığına təəccüblənirdim.[1] Dünya malı gözündə çox dəyərsiz idi və heç vaxt həsrət hissi çəkməzdi. Deyirdi: "İnsan Allahın halalından ehtiyacı qədər istifadə etməli, nə göz yummalı, nə də həddini aşmalıdır. Hər bir halda orta həddi qorumaq lazımdır." Odur ki, tələbatımızı cəmiyyətin aşağı təbəqəsinə uyğun ödəyərdi. Zahiri dəbdəbə və təmtərağa əhəmiyyət verməzdi. Bəzən qonağımız çox olub, məxsus boşqab və ya stəkan çatışmayanda deyərdi ki, evdə olan kasa, piyaləyə tök gətir, mühüm deyil. Belə şeylərə görə mübahisəmiz yaranarkən ona hər şeyin bir tərzi, adət-ənənəsi olduğunu başa salmağa çalışırdım. Ona isə yalnız Allahın kəlamı və Peyğəmbərin sünnəsi mühüm idi. Söhbət zamanı qarşı

---

[1] Şəhadətindən sonra öyrəndim ki, bəzən qünut və səcdələrdə "Kumeyl" duasını oxuyurmuş.

tərəfə hörmət olaraq mömin deyər, görüş və iclaslarda isə kütləyə "hörmətli möminlər" deyə müraciət edərdi. Məni heç vaxt öz adımla çağırmazdı və həmişə "xanım", ya "əzizim" deyərdi. Bəzən mənə də mömin deyəndə, yaman xoşuma gələrdi. Aramızda hökm sürən səmimi məhəbbət əksər problemləri həll edir, evdə bərəkəti artırırdı. Belə məhəbbət sayəsində insanın ömrü və həyatı dəyər kəsb edirdi. Get-gedə onun bəyəndiyi və xoşladığı şeylər mənə də xoş gəlirdi. Odur ki, mən də öz növbəmdə yemək-içməyindən tutmuş əyin-başı, paltarlarının ütülənməyi və çəkmələrinin mazlanmağınadək hər işdə ona layiqincə qulluq göstərməyə çalışırdım. Əlimdən gələni edirdim ki, onun istədiyi kimi olum. Anamın qulağımdan sırğa kimi asılan sözləri doğru idi: "Kişi nə qaşın rənginə, nə gözün sürməsinə, nə qolun bilərziyinə, nə də saçların hörüklərinə bənd olar. Kişi qadının sadə və zərifliyinə aşiqdir. Min bir gözəlliyin olub, dilin acı və baxışların soyuq və sərt olsa, uduzmusan. Bizim kişilərimiz evdə tez-tez üzərlik yandıran, başına dolanıb, sədəqə verən arvadlar üçün ölür." Beləliklə, hər səhər onu qapıyadək yola salarkən soruşardım: "Bu gün ürəyin nə istəyir, sənə bişirim?" O da "Hər nə hazırlasan, mənim ürəyimcədir!" – deyər, dəfələrlə soruşduqda isə zarafata "Kuft!"[1] – deyə cavab verərdi. Mən də həmin gün küftə bişirib, qarşısına qoyarkən doyunca ürəkdən

[1] Kuft sözünü iki mənası var: Eşidənlər tərəfindən ilk başa düşülən küftə və kiməsə acıqla deyilən zəhrimar məfhumu.

gülərdi. Həmişə mənə görə nigaran idi və deyərdi: "Cəbhədə ən ağır vəziyyətlərdə də sizi unutmuram. Mənə bu qədər bağlı olmağınıza görə nigaranam. Mənə bu qədər ürək bağlama və daha çox Allaha bağlan. Bütün məhəbbət və nifrətin Allaha görə olsun ki, onun təsirini duyasan..." Bununla belə, ürəyində mənə də böyük yer ayırdığını hiss edirdim və bu bizi bir-birimizə bağlayan qırılmaz halqa idi. Amma özü isə mənim ona birtərəfli hədsiz sevgimdən xəbərsiz idi. Cəbhədə olduğu zamanlarda heç vaxt evə zəng etməz, sadəcə məktub yazardı. Mühüm bir şey yazmasa da dəfələrlə hər birini əvvəldən axıradək oxuyardım. Salamdan sonra özünün sağ-salamat olmağı, bizə də arzulamağı və s. mənə yetərincə təskinlik verirdi. Hətta məktublarında da bizə sifariş və tövsiyələrdən əl çəkmirdi. Məsələn, aşağıdakı məktubda mənimlə bacılarıma belə yazmışdı:

"...Bu günlərdə qohum-əqrəba və tanışların evlərinə get-gəllər artdığı üçün artıq dedi-qodu, qeybət, töhmət və s. günahlardan özünüzü qoruyun! Bacılarına tapşır ki, hicablarına fikir versinlər və naməhrəm olan qohum-əqrəba yanında çadralarını açmasınlar! Nəqliyyatla bir yerə gedərkən, yaxud alış-veriş zamanı qarşı tərəflə səmimi, isti söhbətiniz olmasın! Həmişə özünüzə həzrət Zəhranı (s) nümunə bilin!

Vəssəlam, Əbdülmehdi Məğfuri."

# On altıncı fəsil

## Şəhid Ələkbər Bəxtiyari

Əbdülmehdi ilə Ələkbər bir məhəllənin uşaqları idi. Hər ikisi yoxsul ailədə böyüyüb və bir yerdə təhsil almışdılar. Onların arasında son dərəcə qırılmaz səmimi dostluq vardı. 1986-cı ilin isti yay günlərində Ələkbər İylamda yaralanır və onu Şirazın "Namazi" xəstəxanasına köçürürlər. Təəssüflər olsun ki, xəstəxanada münafiqlərin əli ilə şəhadətə yetir. O günlərdə biz Zərənddə idik. Avqust ayının 1-i Əbdülmehdi zəng edib, hal-hazırda yolda olduğunu və rayona qayıtdığını xəbər verdi. Gecənin bir aləmi evə çatanda, solğun çöhrəsindəki kədər və narahatçılığı aydın müşahidə elədim. Səbəbini soruşanda, dedi ki, Ələkbər şəhid olub. Süzülən göz yaşları və sınan qəlbinə təskinlik verməyə qadir deyildim. Ertəsi gün səhər onun şəhadət xəbərini ailəsinə çatdırmaq üçün

onlara getdik. Əbdülmehdi onun igidliyi barədə söz açaraq həyat yoldaşının qəlbinə elə təskinlik bəxş etdi ki, mən özüm də xeyli təsəlli tapdım. Amma onun dəfn mərasimində canının parasını itirdiyini bütün vücudumla hiss etdim. Əbdülmehdinin şəhid silahdaşlarına hədsiz məhəbbəti vardı. Kermanda olanda hər cümə axşamı şəhidlər xiyabanına baş çəkərdi. Deyərdi: "Şəhidləri unutmaq olmaz və onların məzarı sahibsiz qalmamalıdır! Onlar hidayət yolunun məşəlləridir!" Hətta hörmət əlaməti olaraq xiyabanı geriyə doğru hərəkət edərək tərk edər və səhərlər üzüqibləyə və şəhidlər xiyabanına doğru dayanaraq fatihə oxuyardı. Kerman könüllülər komissarlığının komandirliyindən əlavə gözəl nitqinə görə "Sarəllah-41" diviziyasının təbliğat şöbəsinə rəhbərliyi də ona tapşırmışdılar. Mənəvi hissindən doğan sözləri cavanlara çox təsir edirdi. Əlbəttə, ayə və rəvayətlərlə kifayət qədər tanışlığı və səsinin ahəngdarlığı nitqlərinə bir az da hüsn bəxş edirdi. Odur ki, müxtəlif şəhərlərdən təbliğə dəvət olunur və cəbhə bölgələrində atəşli çıxışları ilə tanınırdı. Belə təsirli səciyyələrinə görə həmişə xəyanət və terrora məruz qalma ehtimalı çox idi. Çünki münafiqlər müxtəlif hiylə və kələklərlə onun başını əkmək istəyirdilər. Mən də hər dəfə onu yola salarkən bildiyim dua və ovsunları oxuyub, arxasınca üfürürdüm.

Anam nəvələrini görmək üçün bizə gəlmişdi. Mənə dedi ki, neçə gündən sonra dayıoğlunun toyudur. Doğrusu, mənim ürəyimcə deyildi. Əbdülmehdi təkid

edərkən dedim: "Siz dost olmusunuz, getsən yaxşıdır, mən isə üç uşaqla gələ bilmərəm." Hər dəfə xoşlamadığım yerə getmək istəmədikdə, uşaqları bəhanə edirdim. Həqiqətdə, adamı bezdirən adət-ənənələrdən xoşum gəlmirdi. Çünki yerli toyların özünəməxsus dəb və ənənələri vardı; səhər tezdən tədarükə başlayırdılar, günorta qız evində qonaqlıq olurdu, gəlin əqd mərasimi üçün yaşıl paltar geyinməli idi, əqd mərasimi günortadan sonra təşkil olunurdu, axşam isə bəy evində qonaqlıq və toy keçirilirdi və axırda da bəy atasının evinə gedirdilər. Qohumlarımızın çoxu varlı idi və belə şənliklər zamanı qadınlar dəfələrlə paltar, zinət əşyaları və s. çeşidləri gözdən keçirərək təmtərağa xüsusi əhəmiyyət verirdilər. Mənim də belə şeylərdən qətiyyən xoşum gəlməzdi. Əbdülmehdi zehnimi oxuyaraq səbəbini üzümə deyərkən inkar etdim. Düzü, səbəbi o idi və ona sadəcə qarışıq yerdən xoşum gəlmədiyini və uşaqların əl-ayağıma dolaşacağını dedim. O da mənə xeyir işdə qohumlarla rabitə və sileyi-rəhmin mühüm olduğunu söylədi. Dayıoğlum Zərəndin sepah komitəsində pasdar idi və yoldaşımın cəbhədən göndərdiyi məktubları o mənə çatdırırdı. Sözün düzü, neçə vaxt idi ki, əlindən dilxor idim. İşi və iclası çox olduğundan evə lazım olan neçə zəruri şeyi almırdı. Bunları nəzərə almadan dayıoğlumun toyuna əhəmiyyət verməyinə narahat idim və heç cürə fikrimdən daşınmaq istəmirdim. Bütün hallarda hər bir fikir və tövsiyəsini sözsüz qəbul etsəm də bu məsələdə əsla barışmaq istəmirdim.

Fikrini səmimi şəkildə təkid etsə də məcbur eləmək qəsdi yox idi. Axır, "Mənim idarədə bir az işim var. Gedib-gəlincə siz də hazırlaşın." – deyib, çölə çıxdı. Mən də susaraq bir söz demədim. Həmin gün körpə Mustafa ilk dəfə olaraq soyuqlamışdı və yoldaşım gəlincə neçə dəfə qusdu. Günortadan sonra qayıdanda uşağın vəziyyətini ona dedim. Hər dəfə uşaqlar xəstələnərkən həddən artıq nigaran olduqda, Əbdülmehdi mənə ürək-dirək verərək deyərdi: "Çox da nigaran olma. Hər şey Allahın istəyi ilədir; kimisi xəstələnir, kimisi sağalır. Xəstəlik və şəfa onun əlindədir. Sağlamlığa əhəmiyyət verməyimiz, həkimə müraciət etməyimiz və dava-dərman içməyimiz mühüm və zəruri olsa da, nəhayət, onun istəyi ilə biri sağalır və digəri yox. Bəs, hər şeyə görə nigaran olmağa dəyməz." Bunlara baxmayaraq mənim ürəyim onunku qədər geniş deyildi. Bu dəfə də uşağa nəzər salaraq dedi: "Sadəcə soyuqlayıb, heç nə olmaz. Şərbət ver, keçib gedər." Bunlar onun hər dəfəki sözü idi və doğurdan da şərbətdən sonra uşaqların halı yaxşılaşardı. Dedim: "Şərbət içib ölsə, onda necə? Axı, şərbətin qusmağa nə dəxli var?!" Mənə "Sən ver, əgər yaxşılaşmasa, onda sən deyən olsun!" – deyə cavab verdi. Vaxtımız az olduğundan bu işi anamgildə görməyə saxladıq. Maşına minərkən dedim: "Əvvəl bizi anamın evinə çatdır, sonra dayımgilə gedərik!" Yoldaşım yolda bir cavanı[1] da

[1] O cavan ruhani tələbə idi və "Kərbəla-5" əməliyyatında şəhid oldu.

maşına mindirdi. O şəxs minəndən sonra uşaq bir daha qaytardı. Özümü saxlaya bilməyib, bərkdən dedim: "Ay aman, kül oldu başıma! Uşaq yenə qusdu!" Əbdülmehdi güzgüdən mənə gözucu baxaraq bir söz demədi. Zərəndə çatandan sonra yoldaşım o cavanı məqsədə çatdırmaq üçün səmti dəyişərkən yenə deyinməyə başladım: "Mən ki, sənə demişdim, əvvəl anamgilə, sonra dayımgilə gedərik! Sən isə birbaşa onlara gedirsən, bu uşaq da qusub, üst-başımızı batırıb!" O, yenə mənalı şəkildə güzgüdən məni süzərək bir söz demədi. Daha sonra onu məqsədə çatdırıb, səmtini evimizə tərəf döndərərək dedi:

– Əzizim, naməhrəm olan yerdə ucadan danışma! Uşaq qusar da, nə olar ki!

– Özümdən asılı deyil, narahatam, nigaranam!

– Lap yaxşı! Ucadan desən, düzələcək? Sadə qusmağa görə adam özündən çıxmaz ki! Məlumdur ki, əvvəl sizi ora çatdırmalıyam! Yaxşı olardı, o şəxsin yanında deməzdin!

– Olar mən heç danışmayım?! Daha qurtardı, bundan sonra danışacağam!

– Mənim ürəyim sənə yanır! Naməhrəm olan yerdə ucadan danışma!

– Ümumiyyətlə, sənin mənimlə işin olmasın! Qoy mən cəhənnəmə, sən isə behiştə get!

Daha bir söz demədi və mən də susdum. Mənim narahat olduğum hallarda daha sözü uzatmazdı və söhbətə son qoyardı. Yəni, adamı hey dilə tutaraq bezdirməzdi. Evimizə çatandan sonra atamla

qardaşım bizi gözləyirdilər və anam isə dayımgildə idi. Elə fikirləşirdim ki, atam aramızda baş verəndən xəbərdar olandan sonra tərəfimi saxlayaraq onu danlayacaq. Salaməleyk və hal-əhvaldan sonra dedim: "Uşağın vəziyyəti yaxşı deyil və mən də gəlmək istəmirdim! Bu isə deyir ki, hökmən gəlməlisən!" Atam dedi: "Bala, arvad gərək ərinin sözünə qulaq assın, hər nə desə, gərək əməl etsin! Əgər deyirsə gəl, deməli, gəlməlisən!" Mən yenə uşağın halının pis olduğunu dilə gətirərkən Əbdülmehdi gülümsəyərək belə dedi: "Hacı, mən deyirəm ki, sadəcə soyuqlayıb, şərbət ver sağalar! Burda nə var ki! Elə indi versin, biz məscidə gedib-gəlincə uşağın da halı yaxşılaşar!" Mən də "Yəni sənin bu şərbətin ölümə də çarədir?!" – deyib, mətbəxə girdim. Hər yeri ələk-vələk elədim. Gözümə həmişə işlətdiyimiz şərbət toxumu dəymədi. Axır, nanə dəmləyib, uşağa verdim və halı yaxşılaşdı. Onlar məsciddən qayıdandan sonra macəranı danışdım və daha başqa söz-söhbət olmadan toya getdik və ertəsi gün Kermana qayıtdıq.

Növbəti gün səhər işə gedəndən hələ bir saat keçməmiş qapının zəngi çalındı. Qapını azacıq aralayaraq çölə baxdım. Nisbətən möhtərəm bir şəxs təmkinlə söhbətə başladı:

– Yoldaşınız mənə dedi ki, neçə vaxtdır sizdən narazıdır, daha bir-birimizi başa düşmürük və sizi boşamaq istəyir. Mən indi sizi məhkəməyə aparmağa gəlmişəm, o da ora gələcək.

Diqqətlə onu yuxarıdan aşağı süzməyə başladım. Başını sağa-sola çevirib, o tərəf-bu tərəfə baxarkən dedim:

– Yoldaşım heç vaxt qeybətə yol vermir! Necə ola bilər ki, sizin yanınızda mənim qeybətimi etsin?!

– Bilmirəm! Özü dedi ki, biz artıq bir-birimizi başa düşmürük, yoldaşımı apar məhkəməyə, mən də gəlirəm!

Onsuz da əsəbli və dilxor idim. Elə narahat oldum ki, əgər uşaqlar yuxuda olmasaydı, mütləq gedərdim. Ona "Gözləyirəm, qoy, özü gəlsin və vəziyyəti aydın eləsin! Mən sizi tanımıram, ona deyin ki, ya zəng eləsin, ya da dalımca gəlsin!" – deyərək qapını çırpdım. Evə keçəndən sonra uşaqların başı üzərində oturub, ağlamağa başladım. Ayrılığa dözməyə hazır olsam da boşanandan sonra uşaqların taleyi və kimin əlinə düşəcəyi barədə düşünürdüm. Bir qədər sakitləşəndən sonra idarəyə zəng elədim. Həmkarı dedi ki, hal-hazırda qonaqlarla söhbəti var, cavab verə bilməz. Gözlərimdən ardıcıl olaraq yaş süzülürdü. Yarım saatdan sonra bir də zəng elədim. Danışarkən kəkələyirdim. Həmkarı yenə cavab verə bilməyəcəyini deyərkən ağladığımı hiss etdi. Üçüncü dəfə zəng edərkən o da narahat oldu və yoldaşıma məsələnin ciddi olduğunu bildirdi. Əbdülmehdi dəstəyi əlinə götürəndən sonra mühüm iclası olduğunu söyləyərkən "İclasın varsa, onda nəyə görə dalımca adam göndərirsən ki, məni məhkəməyə aparsın?!" – deyə cavab verdim. Bir anlıq həyəcanlanaraq soruşdu: "Nə vaxt? Kim?" Sözlərimi

dinlədikcə həyəcanla onun qiyafəsi, üzünə qapını açıb-açmadığım barədə soruşaraq elə indi evə gələcəyini dedi. Ağlamaqdan gözlərim şişmişdi. Qızlar bir küncə qısılaraq hürkək halda mənə tamaşa edirdilər. Mustafa da qucağımda mənə qısılmışdı. O, təşvişlə özünü evə çatdırandan sonra məndən soruşdu: "Səndə bizim təhlükəsizlik komitəsinin nömrəsi var, niyə ora zəng eləməmisən?! Tez mənə xəbər verərdilər! Məni yaxşı tanıyırsan, heç elə iş görərəm?! Çox güman ki, səsimizi ətrafdan dinləyirlər. Hələlik bilmirəm hansı yolla! Ola bilsin, səni girov götürmək fikirləri varmış!" O şəxs tam tərəddüdsüz aramızda olan münaqişə barədə arxayın-arxayın danışandan sonra dilxorçuluğum bais oldu ki, qəlbimdə yoldaşıma qarşı şəkk-şübhə yaransın. Hər halda Allahın köməyi ilə o hadisə xeyirlə başa çatdı.

# On yeddinci fəsil

## Abbas getsə qayıtmayacaq

Əbdülmehdi subay vaxtlarında çayın yerinə yalnız qaynanmış su içdiyi halda evləndəndən sonra ona çay otlarını dəmləyib, verərdim. Son vaxtlar kəmrəng çaya öyrəşmişdi və təzəlikdə aldığımız samovarla dəmlənən çayın ayrı ləzzəti vardı. Adətən, axşamlar işdən gec qayıdardı. Odur ki, mən də gəlincə uşaqları yatırar, ətirli samovar çayı hazırlayıb, yolunu gözləyərdim. Soyuq havalarda isti samovar çayı adamın canını qızdırardı. Həmin günlərdə anam Məşhədə ziyarətə getmək üçün bilet almışdı. Yoldaşım anamla birgə getməyimi istəsə də onsuz yola çıxmağa razı olmadığımı bildirdim. Kiçik qardaşım Abbas xəstəxanadan çıxandan sonra (noyabr ayı, 1986) bizə qonaq oldu. Yazıq yaman arıqlamışdı və ürəyim ona çox yanırdı. Uşaqlar dayısının

çiyinlərinə dırmaşaraq başına oyun açırdılar. Yanımızda çox qalmadı və üzünü doyunca görməmiş bizdən ayrıldı. Onu Quranın altından keçirib, yola salarkən əlimdə bir kasa su qapıya tərəf yaxınlaşdım. Əbdülmehdi də bir anlıq çölə çıxıb, geri qayıtdı. Mənalı baxışlarından anladım ki, sözlü adama oxşayır. Dedi: "Elə indi doyunca qardaşını gör və bağrına bas ki, daha gedib-qayıtdı yoxdur!" O anda sanki içimdən bir ox keçdi. Onun tam arxayınlıqla açdığı qeybi sirrə mat-məəttəl qalaraq əlimdə titrəyən kasadan əvvəl ürəyim üzüldü. Axırıncı xoş ayrılığı matəmə çevirməmək üçün boğazıma dirənən qəhəri udmağa və özümü ələ almağa çalışdım. Abbası ötürmək üçün avtovağzala qədər gedincə, Allah bilir, hansı halları keçirdim. Dəfələrlə onu bağrıma basıb, üz-gözündən öpərkən özümü bir anlıq həzrət Zeynəblə müqayisə elədim. Evin sonbeşiyi ilə son vida hislərimi bölüşdükcə gülümsəyərək deyirdi: "Bacı, mən Zərəndə – evə gedirəm ha, cəbhəyə yox!" Elə həmin andan ayrılıq hissi bütün vücudumu bürüdü. Hələ bığ yeri tərləməmiş cəbhəyə gedən qardaşım hal-hazırda özünə görə kişi olmuşdu və o vaxtdan altı ilin necə gəlib-keçdiyi yadımda deyil. Gözlərim gözlərinə zilləndikcə istər-istəməz onun da gözləri yaşla dolurdu. Süzülən yaşları barmaqlarımla silərək bu misilsiz anları əldən vermək istəmirdim. Bilirdim ki, bacı-qardaş məhəbbəti onun taleyini dəyişməyə qadir deyil və bunu həzm etmək üçün dərya qədər geniş ürəyə ehtiyacım vardı. Haçandan başını aşağı salan Əbdülmehdi bir daha "Doyunca

görüş!" – deyərkən ayıldım və ona tərs-tərs baxaraq "Sən Allah, dilini dişlə!" – demək istəsəm də bacarmadım. Qəribə təbəssümü deyirdi ki, təqdir mənim və sənin əlində deyil, bütün kainat Tanrının əzəli hökmünə tabedir. Bir qədər duruxandan sonra qəhərimi udaraq öz-özümə dedim: "Bəli, tale Allahın əlindədir! Əgər Abbas şəhid olsa, yalnız valideynlərim oğlunu itirəcək və arvad-uşağı yoxdur ki, yetim və gözü yolda qalanı olsun! Heç olmasa, sən özünü qoru ki, arvad-uşağın var!" Bunları fikirləşdikcə qəhərlə yaşlarım bir-birinə qovuşurdu. Abbas avtobusa minəndən sonra qəlbimə dünya qədər kədər yükü çökdü. Evə qayıdarkən yolda sükuta qərq olaraq uşaqlığından indiyədək olan xatirələri gəlib, gözümün qabağından keçirdi. Ayağı cəbhəyə on dörd yaşında açıldığı zamandan dəfələrlə yaralanaraq günləri cəbhə ilə xəstəxanalar arasında keçdiyi halda valideynlərim bunlardan xəbərsiz idi və bir daha cəbhəyə yollanırdı. Yaralı hallarında cəmi bir dəfə burada Kermanda yatarkən yoluxmağa getmişdim. Qohumlarımızdan biri "Abbas, sən bütün qohumların əvəzinə cəbhəyə getmisən, daha kifayətdir!" – deyərkən ona belə cavab vermişdi: "Mən nəinki başqasının yerinə, hələ öz yerimə düz-əməlli gedib, borcumu ödəməmişəm!"

Abbas Zərəndə gedib, atam və bacı-qardaşlarımla vidalaşandan sonra Məşhədə getdi. Məqsədi həm ziyarət, həm də anamla görüşüb, halallıq almaq idi. Həmin günlərdə Əbdülmehdi də qabaqcadan dediyi

ezamiyyətə yollandı.[1] Anamgil ziyarətdən qayıdandan sonra onları görmək üçün Zərəndə gedəndə artıq Abbas cəbhədə idi. Bir axşam anam yoldaşıma dedi: "Sən də cəbhəyə getsən, arvad-uşağını gətirərəm öz yanıma, tək qalmasınlar." O isə gülümsəyərək "Artıq belə hallara adət etməlidirlər." – deyə cavab verərkən soruşdu: "Bala, məgər nə vaxta kimi cəbhədə qalacaqsan?" Dedi: "Bu dəfə getsəm, daha öz ayağımla yox, əllərdə qayıdacağam." Əlbəttə, bizi vahiməyə salmamaq üçün söhbəti zarafatla başqa səmtə dəyişdi. Hər halda iztirab və nigarançılıq məndən əl çəkmirdi və ayağını evdən çölə basarkən sanki vidalaşırdım. Gedəndən qayıdanadək gözlərim qapıda olurdu və zəngi çalınanda isə ürəyim üzülürdü. Sübhlər gözlərimi açarkən daha növbəti sabaha ümidimi itirirdim. Müharibə uzandıqca hamı təngə gəlir, cəbhə bölgələrindən pis xəbərlər eşidirdik. Çox vaxt mühüm əməliyyatlar ilin axırına düşürdü. Elə keçən il bu vaxtlar "Vəlfəcr-8" əməliyyatından yaralı qayıtmışdı. O günlərin xatirələri xəyalımdan keçdikcə gözlərim yaşla dolurdu. Atası ayağı sındığına görə xəstəxanada yatırdı və hər gün anası ilə ona baş çəkməyə gedirdik. Günlərim qəribə kədər və nigarançılıqla keçirdi. Nəhayət, gözlənilən vida günü gəlib çatdı və neçə gündən sonra cəbhəyə getməli idi. Axırıncı dəfə valideynləri ilə xudahafizləşmək üçün

[1] Şəhadətindən sonra bildim ki, nə üçün məni də anamla Məşhədə göndərmək istəyirdi. Çünki o ərəfədə özü də işi ilə əlaqədar Məşhədə ezam olunmuşdu.

birgə xəstəxanaya gedərkən dedi: "Xanım, mənim içəridə çox qalmaq fikrim yoxdur. Bir qədər oturandan sonra cəbhə ilə bağlı bir söz demədən çölə çıxacağam. Tələsik ayrılacağam ki, məni çağırsalar, səslərini eşitməyim. Özün axırda deyərsən ki, Əbdülmehdi cəbhəyə gedir." İstər-istəməz atasının "Qızım, onu cəbhəyə getməyə qoyma! Əgər getsə, daha qayıtmayacaq!" – sözləri yadıma düşdü. Nəyə arxayın olduğunu və nə plan cızdığını anlaya bilmədim. Üzünə təəccüblə baxarkən dedi ki, nə deyirəmsə, qulaq as, vəssalam. Əbdülmehdi görüş saatı qurtarana yaxın valideynləri ilə xudahafizləşib, çölə çıxarkən rəftarı təəccüblü göründü. Çünki həmişə birgə girib, birgə çıxardıq. Atası maraqla səbəbini soruşarkən dedim: "Ata, Əbdülmehdi bir-iki günə cəbhəyə gedir." Qəm dolu baxışları ilə məni süzərkən mən də sağollaşıb, çölə çıxdım. Yoldaşım xəstəxananın qapısı ağzında məni gözləyirdi. Ona yaxınlaşarkən məndən atasının nə deyib-demədiyini soruşdu. Dedim: "Heç nə demədi, sadəcə kədərləndiyini hiss etdim." Daha sonra məni evə çatdırıb, özü işə yollandı. Gecə yarısı evə qayıdandan sonra nafilə namazlarına başlayıb, nə vaxt yatdığını bilmədim. Səhər yolasalma zamanı adətim üzrə başının üzərinə Quranı tutarkən o da bir qayda olaraq müqəddəs kitabı açıb, sağ səhifənin ilk ayələrini oxudu. Bu dəfə "Nur"surəsinin 35-ci ayəsi ilə üzləşdi. Bir anlıq yanaqlarında sevincin qızartısını hiss etdim. Quranı öpərək dedi: "Bəh-bəh, gör nə ayə gəldi! İnşallah nurla qayıdaram!" Məqsədini və şəhadəti ilə

bağlı xəbər verdiyini anlaya bilmədim. Çünki həmişə üzü nurlu idi. O, cəbhədə olduğu ərəfələrdə biz də əksərən Zərəndə gedib, orada qalardıq. Cəbhəyə gedərkən ayrılıq zamanı heç vaxt tapşırıq vermədiyi halda bu dəfə belə dedi: "Hara getsən, axır, öz mənzilinə qayıdıb, tək yaşamalısan. Artıq Məryəm Quran dərslərini öyrənir. Qoyma geri qalsın və bu dəfə Zərəndə getməyin." Dekabr ayının axırları idi və yavaş-yavaş havalar soyuyurdu. Məncə titrəyən bədənim soyuğa görə deyildi. Dedim: "Tək mənə çətindir. Orada valideynlərim var, yeri gələndə əlimdən tuturlar." O da belə dedi: "Xanım, daha təkliyə öyrəşməlisən! Hər dəfə mən olmayanda, Zərəndə qaçmalı deyilsən ki! Bu dəfə evinizdə oturun!" Arxasınca su səpərkən ayrılıq hissi mənə qalib gəldi və acısı zərrə-zərrə içimə çökdü. Küçənin başına çatarkən bir anlıq dayanıb, başını döndərərək bizə nəzər saldı. Neçə addımdan sonra bir daha bizə tərəf baxdı və beləcə, bu hal neçə dəfə təkrar oldu. Sanki hər birimizlə bir-bir vidalaşırdı. Nəhayət, üzünü döndərib, getdi və gözlərimdən itərək həmişəlik ayrıldıq.

# On səkkizinci fəsil

## Qərarsız günlərim

Neçə gündən sonra anam bizə baş çəkməyə gəldi. Tək qalmağımıza nigaran idi və yoldaşım gəlincə bizi Zərəndə aparmaq istəyirdi. Məryəmin Quran dərslərinə görə gedə bilməzdik. İsrar edərkən dedim ki, dərsləri olmadığı cümə axşamı və cümə günləri fürsət tapıb, gələrik. Anam gedəndən sonra yenə gözlərim qapıya dikildi. Əməliyyatdan qabaq evə heç vaxt zəng etmədiyi halda bu dəfə zəng elədi. Həmişəki kimi salam-kəlamdan sonra əhvalımızı soruşdu. Səsinin tonunda qəribə yanğı vardı. İstədim ki, uşaqlarla da danışsın. Razı olmadı və dedi ki, sonra səni incidərlər. Məndən olsaydı, saatlarla danışardım. Amma həmişəki kimi vaxtı yox idi və söhbətimiz çox çəkmədi.

Hər dəfə əməliyyat marşı çalınandan sonra övladları cəbhədə olan ailələrin ürəyinə vəlvələ düşürdü. "Kərbəla-4" əməliyyatının başlanması ilə sanki bir daha Kərbəla faciəsinin şahidi olduq. Mən də nigaran qalmaya bilməzdim. Adətən, əməliyyatdan sonra zəng etdiyi, yaxud evə baş çəkdiyi halda, nədənsə, bu dəfə ondan xəbər-ətər yox idi. İçim daim təlatümdə idi və acı həqiqətlə barışmaq üçün əlləşirdim. Bütün pis fikirləri zehnimdən qovmağa çalışsam da mövcud əlamətlər şəhadətindən xəbər verirdi. Halım getdikcə pisləşir, əlim heç bir işə yatmırdı. Hara zəng vururdumsa, telefona cavab verən və haqqında dəqiq məlumat verən yox idi. Bəzən gecələr başımı möhürə qoyub, dua və and-amandan sonra ağlayaraq haçan yuxuya getdiyimi bilmirdim. Anamın tapşırığı ilə bacım Sərvət mənə kömək məqsədilə bizdə qalırdı. O, cümə axşamı Fatimənin əlindən tutub, məscidə getdi. Qayıdandan sonra dedi ki, başı çox pis ağrıyır. Uşaqlar bir yerə yığışıb televizora baxırdılar. Birdən Fatimə "Ana, atam şəhid olub?" – deyərkən ürəyim üzüldü. İxtiyarsız olaraq "Ağzını yum!" – dedim. Uşaq bunları məsciddə eşitdiyini söyləyərkən bacım söhbətə qarışaraq dedi: "Elə bir söz deyən olmayıb. Sadəcə deyirlər ki, şəhid olanlar çoxdur və sayı məlum deyil."

Daxilən üzüldükcə başımı itirir, yalqızlıq məndən əl çəkmirdi. Nəyi anlayıb, nəyi anlamadığımı bilmirdim. Cümə axşamından sonra gic kimi olmuşdum və uşağın sözləri tez-tez beynimdə dolanırdı. Birdən qapının zəngi çalındı və uşaqlar cəld

həyətə yüyürdülər. Fatimə qışqıraraq "Atam gəldi, atam gəldi!" – deyərkən bilmədim özümü necə qapıya çatdırdım. Atası ilə anası qapını açıb, içəri girəndə hönkür-hönkür ağlamağa başladım. Qayınatam niyə ağladığımı və barəsində bir söz eşitdiyimi soruşarkən dedim: "Həmişə əməliyyatdan sonra zəng edərdi. Bu dəfə nə zəng edib, nə də xəbər göndərib. Həmkarlarından biri teleqram vurduğunu desə də qane olmadım. Ya gərək üzünü görəm, ya da səsini eşidəm! Daha məni məktub, teleqram və s. maraqlandırmır!" Onlar da mənim kimi xəbərsiz və çaş-baş qalmışdılar.

Hər günüm mənə bir ömür kimi uzun keçir, səbir və hövsələm tükənirdi. Gecələr yalnız ağlayıb-sızlamaqla toxtayırdım. Fatiməyə də ürəyim yanırdı. Məryəmlə Mustafadan çox o, atası üçün darıxırdı. Evin içində var-gəl edərkən telefonu da özümlə dartıb aparırdım. Nə zəngimə cavab verən vardı, nə də bizə zəng edən. Get-gedə şübhələnməyə başladım və mənə elə gəldi ki, telefon xarabdır. Həmkarlarına tapşırdım ki, telefon xəttimizin problemini araşdırıb, mənə xəbər versinlər. Tez bir zamanda yoxlayıb, heç bir problemi olmadığını dedilər. Həmin günlərdə evimizə get-gəl edən çox idi. Əmisi oğlu bizə baş çəkərkən ondan da Əbdülmehdini soraqladım. O da elə bir hadisə baş vermədiyini və nigaran qalmamağımı dedi. Hər halda mən şübhəli rəftarlara görə heç kəsə tam inanmırdım. Hamımız nigaran və iztirab keçirdiyimiz

halda barəsində qəti söz deyən yox idi.[1] Qardaşlarım bizə gəldiyi gün öz aralarında pıçıldaşarkən mənə qarşı süni təbəssümlərindən sonra şəkkim lap artdı. Ürəyim sınaraq dodaqlarımı çeynəməyə başladım. Özümü bir növ qane etmək qəsdi ilə Əbdülmehdinin canamazını və asılqandan asılan paltarlarını qatlayıb, şkafa yığdım. Gələnlərin bir-birləri ilə pıçıldaşmaları və qəribə baxışları bədbəxt hadisədən xəbər verirdi. Özüm isə içimdə qorxunc həqiqətlə çarpışaraq hələ ki, şirin gələcəyə ümid bəsləyirdim. Hər dəfə içim alovlanarkən təşvişlərimi dəf etməyə, özümə onun diri olduğunu təlqin etməyə çalışırdım. Qardaşlarımın həyat yoldaşları məndən soruşmadan komod və albomumuzdan kiminsə fotoşəkilini axtararkən şübhələnsəm də özümü bilməməzliyə qoyurdum. Son günlər çoxunu tanımadığım dost-tanışları və həmkarlarından evə zəng edib, soruşanlar vardı. Hətta könüllülər komissarlığından bir qadın ailəmizin vəziyyəti ilə maraqlanmağa gəlmişdi. Deyirdi: "Heç nigaran qalmayın, neçə gündən sonra yoldaşınız sağ-salamat qayıdar! Biz də məsuliyyət daşıyırıq və elə fikirləşməyin ki, sizinlə maraqlanan yoxdur!" Düşünürdüm ki, hər şey öz qaydasında ikən ondan bir ayadək xəbər çıxmaması təbii deyil. Mən də ona belə cavab verdim: "Heç nədən şikayətlənmirəm! Çoxları cəbhəyə gedir və yoldaşım da onlardan biridir!" Gələn

[1] Əməliyyatın qızğın çağında Əbdülmehdinin cənazəsi İsfahandan olan şəhidlərin cənazələrinə qarışaraq arxa cəbhəyə göndərilir. Cəbhədə hamı onun bombardman zamanı şəhadətə yetdiyinə əmin olsa da altı günədək cənazəsini tapa bilmirlər.

qonaqların hörmətini saxlamaqla bərabər hər kəsə sözümü qəti və aydın deyirdim. Ona görə də məndən çəkinirdilər və söhbətimiz çox qısa olurdu. Dekabr ayının 31-i səhər qardaşım evə daxil olaraq Səadət xanımın[1] məni görməyə gəldiyini deyərkən maraqla qarşısına çıxıb, içəri dəvət elədim. Uzun söhbətdən sonra, axır, bir təhər haçandan bəri dilinin ucunda qalanı – "Əbdülmehdi şəhid olub!" – deyərkən bir anlıq nəfəsimi dərə bilmədim. O gün ərimin yaxın həmkarı Mehdinin həyat yoldaşı Zöhrə də bizdə idi. Səadət xanımın gözlənilməz sözü beynimdə dumanlı şəkildə dolanarkən Zöhrə dərhal ardınca belə söylədi: "Bu vaxtadək əzizini itirənlərə verdiyin təsəllini indi özünə verməlisən!" Artıq burada zərrə-zərrə qoruyub saxlamaq istədiyim ümidimin sona yetdiyini hiss etdim. Daha heç nəyə inanmaq istəmədim. Birdən elə hönkür-hönkür ağlamağa başladım ki, kimsə məni sakitləşdirməyə qadir deyildi. İçim odlandığı halda çölüm buz kimi soyuq idi. Evdən yayılan nalə-şivənə qonum-qonşu bizə axışdı və əməlli-başlı matəm quruldu. Hamı pərvanə kimi başıma dolandıqca vücudum şam kimi əriyirdi. İndiyədək belə mənzərənin şahidi olmayan körpə balalarım da qəribə vahimə içində bizimlə bərabər qışqırıb, ağlaşırdılar. Gözlərim qaraldıqca səsim də nazilərək kəsilirdi. Əl-ayağım ixtiyarsız olaraq əsirdi və get-gedə iradi qüvvəmi əldən verirdim. Elə bilirdim ki, daha hər şey

---

[1] Səadət xanım o zaman Kerman sepah komitəsinin qadınlar üzrə nümayəndəsi idi.

mənim üçün sona yetib. O anda qulağıma yaxınların ürək-dirək və təsəllisindən çox nalə və şivən səsləri gəlirdi. Yerimdən qalxmağa taqətim yox idi. Hər iki tərəfdən qoltuğuma girib, məni çəkə-çəkə qayınatamgilə apardılar. Bütün vücudumla deyilənlərin həqiqət olmadığına inanmağa çalışsam da olmurdu. Evlərinə çatanda, gördüm ki, burada lap qiyamət qopubdur. Anası camaatın qolları üstündə gah özündən gedir, gah da ayılırdı. Öz-özümə fikirləşirdim: "Görəsən, bunların hamısı bir yuxu və Əbdülmehdi də sağ ola bilərmi? Bu kabusdan oyanmağım mümkünmü?" Axşamüstüyədək onlarda qaldıq. Gələnlərin sayı get-gedə artırdı və həyət-bacada tərpənməyə yer yox idi. Özümə qapılıb, zar-zar ağlayırdım və bəzən güclə nəfəsimi dərirdim.

Ucadan "La ilahə illəllah" səsləri hər yeri bürüdüyü vaxt Əbdülmehdinin ətirli qoxusu bütün vücudumu əhatə etdi. Cənazəsi əllərdə həyətə daxil olarkən inamsız halda barmaqlarımı ağzıma salıb, dişləməyə başladım. Özünü itirmiş adam kimi, əl-ayağım şiddətlə əsirdi və gərginlikdən içimlə çölüm od tutub yanırdı. Həyət-bacaya yığışan qohum-əqrəba və qonşuların sayı artdığı zaman çarəsizlikdən bir qismini çölə çıxarmalı oldular. Tabutu həyətin ortasına qoydular və bu mənim çoxdan intizarını çəkdiyim qərarsız görüşüm idi. İnsanın bir ömürə bərabər qərarsız yolunu gözlədiyi can-ciyərini indi tabutda qarşılaması həyatın ən çətin anlarındandır. Hər ikimizin valideynləri, bacı-qardaşları və yaxın qohumları tabutun başına pərvanə kimi yığışdığı

halda heç birini görmədən zar-zar ağlayır, nalə-şivən qoparır, ürəyimdə qalan son sözlərimi deyərək üz-gözündən öpürdüm. Doğrusu, tale məni uzun müddətdən bəri bu günə hazırlayırdı və istəyirdim, başı üzərində tək-tənha əyləşib, ah-zarımı səmalaradək ucaldım. Kaş, tək-tənha olardıq və qollarımı boynuna salıb, doyunca hönkür-hönkür ağlayardım. İlk görüşümüzdə başıaşağı qarşı-qarşıya oturaraq Əbdülmehdi danışıb, mən susarkən indi isə son görüşdə o susub, mən şivən qoparırdım. Nurlu simasından başqa bütün bədəni ağ kəfənə bürünmüşdü. Gecə-gündüz Allah xofundan ağlayan gözlər artıq həmişəlik qapanmışdı. İndiyədək başını rahat balışa qoymadığı halda bu qədər asudə yatdığını görməmişdim. Gecələr raz-niyaza qalxan əlləri indi aşağı enib, yanlarına düşmüşdü və saatlarla "Kumeyl" duası oxuyan dili daha susmuşdu. Ayna kimi parlayan çöhrəsində gəlib çox tez sovuşan qısa həyatımıza tamaşa edirdim. Özünü atasının üzərinə atan qızım Fatimənin çığırtısına sanki yuxudan ayıldım. Uşaqların arasında hamıdan çox o, atasına bağlı idi. Yazıq uşaq o qədər ağlamışdı ki, bədəni buz kimi idi. Balaca Mustafanı əlimə alıb, atasının sinəsinə qoydum. Məryəm də bir tərəfə qısılıb, acı-acı ağlayırdı. Bu müsibətə dözə bilməyib, ağı deyib nalə etdikcə ətrafımdakılar da hönkür-hönkür ağlayırdılar. Deyirdim: "Kaş, bir az artıq yaşayardın! Kaş, üzünü bir az çox görərdik! Kaş, ömrün bu qədər qısa olmazdı! Kaş, kaş, kaş..." Nəhayət, "La ilahə illəllah" sədaları altında tabutun üstü bağlanaraq üzü üzümə

həsrət qoyularkən özümdən getdim. O, dünyadan ayrıldıqca sanki mənim də ruhumu özü ilə aparırdı. Dünya gözlərimdə neçə anlıq qaraldı və bir daha uşaqların ağlaşma səsləri ilə özümə gəldim. Bəlkə də bu onun dağlı köksümü tumarlayan əli idi. Çünki yavaş-yavaş sakitləşməyə və toxtaqlıq hiss etməyə başladım. Anam başımı çiyninə qoyarkən yenidən kövrəlib, ağlamağa başladım. O, əzizini itirməyin nə olduğunu məndən yaxşı bilirdi. Vücudumda yerimdən qalxmağa əsla taqət yox idi.

Anamın ardıcıl ürək-dirək və təsəllilərindən sonra bir qədər təskinlik tapdım. Mustafa ac idi və mənim ona süd verməyə taqətim qalmamışdı. Bacılarım Məryəmlə Fatiməni özləri ilə aparandan sonra anam mənə belə dedi: "Qızım, heç birimiz Əbdülmehdini yaxşı tanımamışıq! Həmkarları tabutu həyətin ortasına qoyduqları zaman izdihamın arasında mən də tabuta tərəf cumdum! Amma bir anlıq hiss etdim ki, dəstəmazsızam və o, həmişə dəstəmazlı olduğu halda mənim ona belə yaxınlaşmağım düzgün deyil! Geri qayıdıb, dəstəmaz alandan sonra özümü birtəhər tabutun başına yetirdim! Əyilib, alnından öpmək istəyərkən hiss etdim ki, "Kövsər" surəsini zümzümə edir və mən "İnna ə`təyna kəl-kovsər" ayəsini aydın eşitdim! Öz-özümə dedim ki, yəqin mənə elə gəlib, yanılıram! Amma o cür səs-küy və ağlaşma səslərinə baxmayaraq diqqətlə qulaq asarkən eşitdim ki, Kövsər surəsini oxuyur!" Anam danışdıqca havalı adamlar kimi mat-məəttəl üzünə baxır, həyatımda yadda qalan epizodlar bir-bir gəlib, gözümün önündən keçirdi. O

vaxtadək həqiqətən ilahi rəngin timsalını tanımamışdım və indiyədək ondan müşahidə etdiklərim və etmədiklərim, anladıqlarım və anlamadıqlarım qətiyyən bərabər deyildi.

O gecə dost və həmkarları cənazəsi ilə vidalaşmaq üçün tabutu hüseyniyyəyə apardılar və orada səhərədək "Təvəssül" duası oxuyub, əza məclisi təşkil etdilər. Mən özüm də səhərədək ağlayıb, sızladım, nə qədər göz yaşı axıtdım. Keçirdiyim halları yalnız Allah bilir. Evin bir küncünə sıxılıb qalmışdım və heç kimin səsini eşitmirdim. Məni neçə dəfə tərpədəndən sonra dilimdən bir söz qoparırdılar. Qısa sürən xoşbəxtliyimin acı sonu ilə barışmaq mənə çox çətin idi. Bundan sonra uşaqların və ev-eşiyin ağır yükü üzərimə düşürdü və bu əmanətin öhdəsindən gələ biləcəyimə ümidim yox idi. Anasının minarələrdən yayılan sübh azanının səsinə qarışan ah-nalələri bir daha ürəyimi kabab elədi. Hər dəfə səsi ucaldıqca özündən gedirdi. Çünki daha bu ev-eşikdən Əbdülmehdinin azan səsi heç vaxt eşidilməyəcəkdi.

Dəfn mərasimindən qabaq qohum-əqrəbası, dost-tanışları və həmkarları şəhidlər xiyabanına toplaşmışdılar və bir neçə dolu mikroavtobus da Zərənddən gəlmişdi. Mərasimə sel kimi axışan izdiham əlindən tərpənmək olmurdu və lap qiyamət idi. Dəniz kimi dalğalanan izdiham onu son məqsədə doğru yola salırdı. Ürəyimdə bir aləm deməyə sözüm qalmışdı və məzaradək olan qısa məsafəni başa vurunca mən də ölüb-dirilirdim. Öz əllərimlə evimin dirəyini torpağa tapşırmağa daha məndə can yox idi.

Köksümdən alovlanan hislərimi – "Mehdican, bundan sonra sənin məlahətli səsinlə, dürr kimi dəyərli tövsiyələrinlə həmişəlik vidalaşmağın nə qədər çətin olduğunu deməyə qadir deyiləm! Sənin misilsiz sayəndə heç vaxt eşq və məhəbbətimizə ləkə düşməyib! Mən aciz bəndənin xəta və nöqsanlarına göz yum və Allah dərgahında məni də yada sal! Bundan sonra hansı ümidlə sənsiz həyata davam edəcəyimi bilmirəm!" – onunla birgə yola salırdım. Məzarı kənarında yerə çöküb, doyunca ağladım. Atamla başqa bir nəfər qəbirə daxil olub, cənazəsini torpağa qoyduqları an pərişan halıma heç bir təsəlli məlhəm ola bilməzdi. İçimdən ah-fəğan edərək deyirdim: "Kaş, səninlə tənha olaydım! Kaş, bütün bunlar hamısı yuxu olaydı! Kaş, heç vaxt ayrılmazdıq! Hicrin edibdi könlümü bərbad, ağlaram; Çoxlar tutar bu halıma irad, ağlaram!" Hərə məzarına bir ovuc torpaq atdıqca mənim də vücudum şam kimi əriyirdi. Qəbri bütöv örtülərkən mənim də gözlərim qapandı və bütün hislərim dondu. Sanki nurlu aləmdən ayrılıb, qaranlıq aləmə düşdüm. Dəfn mərasimi hədsiz hüznlə başa çatdı və xalq öz igid oğlu ilə vidalaşarkən məni də Əbdülmehdimdən ayırdılar.

Qayınatamgildə yas mərasimi zamanı hərə Əbdülmehdidən bir xatirə nəql edirdi. Hətta dəfn mərasimində onun azan səsini eşidənlər olmuşdu. Çoxlarına bu qeyri-adi görünsə də artıq mənə adi idi. Çünki mən dəryada üzüb, suyun dəyərindən qafil olan

balığa bənzəyirdim və onu itirəndən sonra qiymətini anlayırdım.

Dəfn gecəsi "vəhşət" namazı qəsdi ilə üzüqibləyə dayandığım və keçirdiyim halları vəsf etmək qeyri-mümkündür. Qəhərdən köksümə çökən hisləri ifadə etməyə nəfəsim çatmırdı. Allah dərgahından onun mələk kimi xalis qulunun hansı günahının bağışlanmağını dilimə gətirməyə qadir deyildim.

Qayınatamın evinin qabağında başqasının torpağı olan açıq sahə vardı. Sahibindən icazə alıb, orada yas mərasimi üçün böyük çadır qurmuşdular. Əbdülmehdi heç vaxt o sahədən o tərəf-bu tərəfə keçməzdi. Maraqla içəri girib, bir guşədə əyləşdim. Matəm təəssüratı qəlbimi bərk kövrəltdi və göz yaşlarım sel kimi axmağa başladı. Nagahan gözümdən pərdə çəkilərək onun öz qiyafəsində içəri girdiyinin şahidi oldum. Gəlib, kənarımda əyləşdi və neçə kəlmə kəsəndən sonra qeyb oldu. Sözləri yadımda qalmadı, amma ondan sonra daimi təskinlik tapdım.

Ertəsi gün bacım bizə dəyməyə gəlmişdi. O da gecə atamın başına gələn hadisəni belə nəql etdi: "Ata dünən gecədən səhərədək oyaq qalıb, ağlayıb. Ona dedik ki, qızına təsəlli vermək əvəzinə özün lap çox ağlayırsan. O isə bizə indiyədək bir çox şəhidləri dəfn etdiyi halda Əbdülmehdinin mislini görmədiyini dedi. Ondan dəfələrlə dəfn zamanı nə gördüyü barədə soruşsaq da heç nə demədi." Bircə Allah bilir, o aləmlə bağlı nə görmüşdü və təəssüflər olsun ki, dünyadan köçənədək bu haqda bir kəlmə kəsmədi.

Əbdülmehdi bilirdi ki, mən ona çox bağlıyam. Bəzən zarafatla ona "Allah səni öldürməsin, nə qədər parlaq gözlərin var!" – deyə sataşarkən gülümsəyərək deyərdi: "Əzizim, insan dünyanın heç nəyinə bel bağlamamalıdır. Dünyanın hər şeyi tükənəndir. Mən də sizi çox istəyirəm, hamı kimi mənim də gəzintiyə, səfərə, istirahətə və sairə ehtiyacım var. Əgər bunlara bağlansam, cəbhəyə gedə bilmərəm. İndi bütün işlərin başında cəbhə dayanır və şəri vəzifəm mənə cəbhədə qulluğu hökm edir." Müharibə sonralar Əbdülmehdi kimi misilsiz igidlərimizin qəhrəmanlıqları sayəsində başa çatdı və o isə həmin şanlı günləri görmədi.

# On doqquzuncu fəsil

## Əbdülmehdidən sonra

Əbdülmehdinin şəhadətindən sonra Kerman rayonunun müxtəlif yerlərində qohum-əqrəbası, həmkarları və dost-tanışları tərəfindən xatirəsinə həsr edilən məclis və mərasimlər təşkil olunurdu. Onun səciyyələri ilə bağlı cəbhə silahdaşları igidlik və rəşadətindən, həmkarları və iş yoldaşları tələbkarlığı və təmənnasız işgüzarlığından, dost-tanışları səmimi dostluq və sədaqətindən hərə bir xatirə nəql edirdi. Bütün bunlara baxmayaraq şəhadəti barədə məlumat çox az idi. Deyilənlərə görə, "Kərbəla-4" əməliyyatında Ərvənd çayında qayıqların təchizi zamanı sahil estakadası düşmən təyyarələri tərəfindən bombardmana məruz qalır və o, neçə silahdaşı ilə birgə şəhadətə yetir. Əbdülmehdinin şəhadəti hamımıza, məxsusən valideynlərinə çox ağır zərbə

oldu. Atası bu itkinin yerini nəvələri ilə əylənməklə doldurmağa çalışırdı. Odur ki, uşaqlarla birgə tez-tez onlara baş çəkir, dərdlərinə şərik olaraq qəm-qüssələrini azaltmaq istəyirdim. Həmin günlərdə rəfiqəm Zöhrə yoldaşı Mehdi Təhaminin cəbhədən göndərdiyi məktubuna əsasən, bizə gəlmişdi. Yaman narahat idi və yoldaşımdan gileylənirdi. Ürəyinə danmışdı ki, iki dost bir-birinin bəhsinə şəhadətə hazırlaşır və tezliklə o da ərini itirəcək. Elə belə də oldu və hər ikimizin ulduzu təxminən eyni vaxtda söndü.

Zaman ötdükcə Əbdülmehdinin yeri daha çox hiss olunurdu. Ondan sonra qardaşım Abbasın yolunu da çox gözlədik, amma aylar-illər ötsə də ondan xəbər çıxmadı. Sonralar onun "Kərbəla-4" əməliyyatında yoldaşımdan bir gün əvvəl şəhadətə yetdiyi xəbəri yayılsa da anamın intizar çəkən gözləri yorulmadı. Fəsillər ardıcıl gəlib keçdikcə uşaqlar da gözümün qabağında böyüyür, bir-bir məktəbə gedirdilər. 1990-cı ilin iyul ayı İraqdan azad edilən əsirlər arasında qaynım Əli də geri qayıtdı və valideynlərinə hədsiz sevinc bəxş elədi.

Əbdülmehdidən hər bir halda taleyə razı olmağı, şükür edib Allaha təvəkkül etməyi öyrənmişdim. Qısa sürən birgə həyatımızın özəllikləri çoxlarının təmtəraqlı güzəranından dəyərli və üstün idi. Cəmi beş il səkkiz ay çəksə də mənim üçün bir ömürə bərabər idi.

# İyirminci fəsil

## Son söz

Əbdülmehdi bəndəlik ocağında eşq təlimini keçərək özünü Allahın qulu hesab edirdi. Bütün vücudu ilə onun dərgahında qərq olmuşdu. Bu məqama qısa müddət ərzində deyil, yeniyetməlik dövründən gecə-gündüz belini bükərək yüksəlmişdi. Deyirdi: "Kamil insan Allahın xəlifəsi sayılır və bu məqama ilahi sifətləri əldə edəndən sonra nail olur. Onun adi hərəkətlərindən başlayaraq hər bir niyyət və rəftarı Allahın razılığına uyğun olmalıdır." Ondan sonra mənim də həyatım cızdığı çərçivədə yerləşirdi. Çalışırdım ki, günah törənən məclis və məkanlara getməyim və o yerlərdə iştirak etməyim. Belə toy və şənliklərdən mənə qalan yalnız narazılıq və peşmançılıq idi. Sözü və əməlində özü qabaqcıl

olduğu üçün mənə də böyük təsiri vardı və onu yaddaşlarda yaşadan sirri bu idi.

Doqquz ildən sonra bizim igid də "Sarəllah" diviziyasının şəhid dalğıc qrupu tərkibində geri qayıtdı və nəhayət, anamın intizarı başa çatdı. O ərəfədə çətin günləri yaşadıq. Valideynlərim Əbdülmehdini itirərkən ruzigarın sərt üzünü görmüşdülər və onlar da mənimlə birgə o ağır hicrana dözürdülər. Qardaşım Abbasın qolları qandallı sümüklərini təhvil alarkən növbəti göz yaşlarım onu laçın oğlan kimi yola saldığım gündə tökülən yaşlarıma qovuşdu.

Ailəmizdə olan ciddi tərbiyə sayəsində uşaqların əxlaq və təhsili də yüksək səviyyədə idi və qızım Fatimə xüsusi istedadı ilə Məryəmlə Mustafadan seçilirdi. Onlar boya-başa çatandan sonra, qızlarımın hərəsi bir şəhid ailəsinə qismət oldu və hər ikisinin kəbinini Ali Rəhbər kəsib. Fatimənin əqd mərasimi mənim üçün daha çox yadda qalan hadisədir. Bu mərasim Ali Rəhbərin 2005-ci ildə Kermana gəldiyi və Əbdülmehdinin ən yaxın dostu Mehdi Təhaminin evində şəhid ailəsi ilə görüşdüyü zaman həyata keçdi. Həqiqətən gözəl anlar idi. Neçə şəhid ailəsi bu səmimi görüşdə rəhbəri dinləmək üçün onlara yığışmışdı. Xudahafizləşmə zamanı görüşdə iştirak edən Qasim Süleymani rəhbərə belə söylədi: "Ağa, şəhid Təhaminin oğlu ilə Məğfurinin qızı əqdlərinin sizin vasitənizlə kəsilməyini istəyirlər. Lütfən, elə bu axşam kəsə bilərsinizmi? Rəsmi nikaha dair işləri görülüb, sadəcə sizin dilinizlə əqdin oxunması qalıb!"

Rəhbər təəccüblə soruşdu: "Elə bu axşam?!" O da dedi: "Əgər mümkündürsə!" Rəhbər üzünü Əli ilə Fatiməyə tərəf çevirərək Qasim Süleymaniyə belə dedi: "Maraqlıdır, maraqlıdır, maraqlıdır! Deməli, bu iki cavanın əqdi indi oxunmalıdır, eləmi?" Qasim Süleymani də "Bəli!" – deyərək cavab verdi. Bundan sonra Rəhbər soruşdu: "Mehr nə qədərdir?" Əlinin anası Zöhrə otağın o başından belə səsləndi: "On dörd sikkə!" Rəhbər bir daha "On dörd sikkə? Elə bu qədər?" – deyə soruşarkən kənarında dizi üstə əyləşən qızım Fatimə xəcalətli halda söylədi: "Əlbəttə, əlavə bir cild Quranla!" Bu zaman Zöhrə gülümsəyərək yenə belə dilləndi: "Bəli, bəli, burdadır, indi gətirərlər!" Nəhayət, rəhbər üzünü Fatiməyə tutaraq soruşdu: "Lap yaxşı, adınız nədir?" O da astadan "Fatimə" – deyə cavab verdi. Rəhbər bu dəfə ona belə müraciət etdi: "Çox gözəl! Fatimə xanım Məğfuri, məni vəkil təyin edirsinizmi?" Fatimə utancaq halda başını aşağı dikərək "Bəli!" – deyə cavab verdi. Rəhbər bir daha aydın şəkildə soruşdu: "Məni sizinlə Əli Təhami arasında əqdinizi kəsməyə vəkil edirsinizmi?" Fatimə bu dəfə bir qədər ucadan "Bəli!" – dedi. Rəhbər sonra üzünü Əliyə tutaraq belə soruşdu: "Əli Təhami, mehriniz on dörd sikkə və qarşımızdakı bu bir cild Qurani-məcid üzrə təyin olunub, eləmi?" Əli də həyadan başını aşağı dikərək "Bəli!" – deyə cavab verdi. Rəhbər Əlinin kənarında əyləşən öz oğlu Mustafa Xameneiyə təklif etdi ki, kürəkənə vəkil olsun. O da "Baş üstə!" – deyərək vəkilliyi üzərinə götürdü. Rəhbər icra münasibəti ilə

imam Cavad (ə)-ın əqd mərasimindəki xütbəni söyləyərək Mustafaya belə buyurdu: "Mən öz müvəkkilim xanım Fatimə Məğfurini həmin mehr və nikahnamədə təyin olunan şərtlər üzrə Əli Təhamiyə daimi həyat yoldaşı təyin edirəm!" Mustafa da cavab olaraq dedi: "Həmin mehr və şərtlər üzrə müvəkkilim Əli tərəfindən daimi nikahı qəbul edirəm!" Daha sonra onlar əqdi ərəbcə oxudular və bu mərasim Rəhbərin son – "İnşallah, mübarək olsun!" sözü və hamının birgə salavatı ilə başa çatdı. O gün mən özümdə deyildim, həm ağlayır, həm də sevinirdim. Axırda Rəhbər Quranın cildinin üzərinə qısa rəyini yazandan sonra ayrıca hədiyyə ilə birgə Fatiməyə təqdim edərək dedi: "Buyur, inşallah müvəffəq olasan!" Daha sonra bir anlıq gözü oğlum Mustafaya sataşdığı zaman gülümsəyərək buyurdu: "Allah bu əziz cavana da yaraşıqlı və layiqli bir həyat yoldaşı qismət eləsin, inşallah və birgə xoşbəxt olsunlar!" Xoşbəxtlikdən, Rəhbərin duası sayəsində Mustafa da evləndi və hal-hazırda Əbdülmehdinin hər üç övladı özünü Ali Rəhbərə xidmətçi hesab edir.

Əbdülmehdi qızım Fatiməyə hədsiz məhəbbət bəslədiyi kimi Qasim Süleymani də şəhid övladları arasında ona xüsusi hörmət göstərirdi. Belə ki, 2019-cu ildə Fatimənin qızı Zeynəb ağır xəstəlik üzündən Tehranda xəstəxanada yatdığı zaman maya ayının 11-də (5 ramazan) cərrahi əməliyyatdan qabaq Qasim Süleymani də səhər saat 8:30 radələrində özünü xəstəxanaya yetirir. Qızım dəfələrlə ona daha mühüm işləri olduğunu və hələ əməliyyat vaxtının məlum

olmadığını söyləsə də Qasim Süleymani gülümsəyərək belə cavab verir: "Qızım, mən atanı özüm getməli olduğum yerə göndərmişəm və indi isə onun əvəzinə kənarınızda olmalıyam!" Hətta onun xahişi ilə Fatiməyə əməliyyatadək qızının başı üstə olmağa icazə verdilər. Anesteziyadan sonra Zeynəb huşdan gedərkən Fatimə yanıqlı-yanıqlı ağlayaraq imam Rzaya (ə) təvəssül etdiyi zaman Qasim Süleymani arxayın halda ona deyirmiş: "Narahat olma, ağlama! Gülümsə, hər şey yaxşı qurtaracaq!" Fatimə yenə Qasim Süleymanidən onlara görə vaxtını itirməməyi və getməyini xahiş etsə də Zeynəb huşa gələnədək gözləyir və arxayın olandan sonra xəstəxananı tərk edir. O, sanki vacib vəzifəsi olaraq Zeynəbin əməliyyata başladığı andan reabilitasiyasına qədər bütün müalicə prosesi ilə axıradək maraqlanır.[1] Çox təəssüflər olsun ki, Qasim Süleymani həmin il şəhadətə yetir və Kermanın şəhidlər xiyabanında dəfn olunur.

Hal-hazırda bir çox şəhidlər kimi Əbdülmehdinin də məzarı ziyarətgaha çevrilib. Qəbrinə ziyarətə getdiyim vaxtlarda həmişə kənarı ziyarətçilərlə dolu olur. O vaxt bir kənarda əyləşib, ürəyimi boşaldaraq deyirəm: "Mehdican, yenə başın qarışıqdır və mənə vaxtın yoxdur! Nə olar, eybi yoxdur! Bilirəm ki, mənim də fikrimdəsən! Allah haqqı, var-gücümlə

---

[1] Ali Rəhbər 2021-ci ilin dekabr ayında Qasim Süleymaninin şəhadətinin ikinci ildönümü ilə əlaqədar etdiyi çıxışda bu hadisəyə xüsusi olaraq toxunub.

çalışıram ki, sən istədiyin kimi olum! Allah eləsin, məndən razı qalasan!" Mənim kimi ziyarətçilər də ürəyini ona boşaldır, istəklərinə nail olurlar. Hətta şəhidlərin də ona böyük ehtiramı vardır. Belə ki, bir dəfə məzarı ziyarətçilərlə dövrəyə alınarkən ətrafındakı şəhidlərdən birinin məzarı kənarında əyləşməli oldum. Həmin şəhidin anası da qəbri üstə idi. Mənə dedi: "Görürsən, şəhid Məğfurinin məzarı başına necə toplaşıblar?!" Əvvəlcə, gileyləndiyini başa düşərək yaşla dolu gözlərinə baxarkən dedi: "Bir cümə axşamı elə burada nəvəmlə oturduğum zaman mənə dedi ki, nənə, şəhid Məğfurinin qəbri üstə hacət istəyənlərin hacətinə çatdığını bilirsən? Zarafata dedim ki, sən də hacətini istə, əgər qəbul olsa, mən burada beş yüz min xərcləyəcəyəm! O gecə yuxuda balam şəhid Hüseynimi gördüm. Halbuki heç vaxt yuxuma girməzdi. Amma həmin gecə yuxuda gördüm ki, yaman narahatdır. Qolları ilə dizlərini qucaqlayıb, başını üzərinə qoymuşdu. Gördüm ki, əsla üzümə baxmır. Soruşdum: Hüseyncan, niyə narahatsan? Kimdən küsmüsən? Dedi: Ana, bundan sonra heç vaxt şəhid Məğfuri haqqında belə söz demə! Elə o anda yuxudan ayıldım və öz-özümə dedim ki, zarafat eləmişəm və o gündən mən də şəhid Məğfurinin Allah dərgahındakı məqamına iman gətirdim!" Onu dinləyəndən sonra başımı aşağı salıb, daha başqa sözə ehtiyac olmadığını gördüm. Həqiqətən də o, nur parçası idi. Ömrünün axırınadək heç vaxt iki işə – naməhrəmə baxmağa və qeybətə yol vermədi və iki əməli – namazı vaxtında qılmağı və valideynə hörməti

də tərk etmədi. Onunla birgə həyatımdan mənim payım yalnız həsrət, hicran və çətinliklər idi. Çox dedi-qodu eşitmişəm və çoxlarına da güzəştə getmişəm. Çünki o, belə istəyirdi. Elə indi də biz bir-birimizin vurğunuyuq, hər yerdə, hər zaman...

# Əlavələr

## Məktublar

**Allahın adı ilə**

Əziz həyat yoldaşım Zəhra xanıma və onun valideynləri, qardaşları və bacılarına!

Salamun əleykum.

Hamınızın Mütəal Allahın mərhəməti sayəsində İslama və müqəddəs İslam inqilabına xidmət və haqq yolunda hərəkətə sağ-salamat davam etməyinizə ümidvaram. Həmçinin nəfslə, şeytanla, inqilabın düşmənləri mübarizədə, eləcə də bütün mübarizə meydanlarında əzmkar və qalib olasınız!

Allaha şükür halım yaxşıdır. Cəbhədə təbliğat şöbəsində bir qismi Zərənddən olan hərbiçi qardaşlara xidmətlə məşğulam. Haqq yolu və bu müqəddəs vadidə xidmətə ləyaqətim çatmasa da Allaha mənə minnətlə imam Zamanın əsgərlərinə qulluğu nəsib

etdiyinə və arzuma çatdığıma görə şükür edirəm. Elə buradan sizin də sədaqətlə İslama xidmət göstərməyinizi və xidmətinizin qəbulunu Allah dərgahından təmənna edirəm.

Burada məndən əlavə Zərənddən Təhami, Şademan, Mirzayi, Ərəbnejad, Həbibzadə və s. qardaşlar da vardır ki, hamısının halı yaxşıdır. Qardaşım Əlinin də halı yaxşıdır və sizə salam yetirir. Sizdən xahişim Allah dərgahında döyüşçülərə dua etməyiniz və əziz İmamımıza uzun ömür və can sağlığı arzulamağınızdır!

Hörmətlə
Sarəllah diviziyasının təbliğat şöbəsi
Əbdülmehdi Məğfuri
02-04-1982

**Allahın adı ilə**

Zəhra xanım salam!

Ümidvaram əziz vücudun Allahın mərhəməti sayəsində sağ-salamat olub, həmişə şəri göstəriş və vəzifələrə qarşı ciddi yanaşasan.

Allaha şükür, mən yaxşıyam. Əmim, qardaşım Əli və dostum Mehdi də yaxşıdırlar və onlar da salam yetirirlər. Mənim də salamımı valideynlərimizə və bacı-qardaşlarımıza, o cümlədən halımı soruşan hər kəsə yetir və de ki, İslamın və onun əsgərlərinin qələbəsi üçün dua etsinlər. Mənim tərəfimdən qızım Məryəmi əzizləyib öp və həmişə tərbiyəsinə ciddi əhəmiyyət ver və rəftarının pozulmağına icazə vermə.

Çünki pis rəftar daş üzərində həkk olan izə bənzəyir, məxsusən uşaqlıq dövründə.

Mən hal-hazırda "Sarəllah" diviziyasının təbliğat şöbəsində təbliğ işləri ilə məşğulam. Şükür Allaha, cəbhədə vəziyyət yaxşıdır. Öz-özümə deyirəm ki, kaş, qadınların da cəbhədə iştirakına şərait olaydı. Kaş, onlar da bu müqəddəs mübarizə meydanında öz hədlərində xidmət göstərərək bəhrələnib, mənəvi inkişafı uğrunda çalışa biləydilər. Qabaqlar dediyim kimi, belə şey mümkün olmasa da, amma onlar da daha geniş cəbhədə hazırdırlar, yeni nəslin tərbiyəsi ilə İslamın gələcək taleyində rol oynayır, bir növ, müharibə və inqilabı idarə edirlər. Mütəal Allahdan bütün müsəlman qadınlara, o cümlədən, sənə müvəffəqiyyətlər arzu edirəm. Hələlik.

Bütün tanış ailələrə çatdır ki, cümə namazlarında İslam əsgərlərinin uğuru üçün dua etsinlər!

Xudahafiz!

Əbdülmehdi Məğfuri

# Vəsiyyətnamə

**Bismillahir rəhmanir rəhim**

"İnni la ərəl-movtə illəs-səadə və ləl-həyatə məəz-zaliminə illa bərəma!"

"Ey müsəlmanlar, haqqın qarşısının alındığını və batilin baş alıb getdiyini görmürsünüzmü?! Odur ki, mən ölümü səadət və zalımlarla birgə yaşamağı zillətdən başqa bir şey bilmirəm!"[1]

"Sizə Allahın qoyduğu qadağalara qarşı pəhrizkar olmağı və işlərinizdə nəzm-intizama əhəmiyyət verməyinizi vəsiyyət edirəm..."[2]

"Və səbir edənlərə bəşarət ver ki, onlar müsibətlə üzləşərkən belə deyərlər: Biz Allah tərəfindən gəlmişik və ona doğru da qayıdırıq!"[3]

---

[1] İmam Hüseynin (ə) kəlamlarından bir parça.
[2] İmam Əli (ə)-ın vəsiyyətnaməsindən bir parça.
[3] "Bəqərə" surəsi, ayə 155-156.

"Ey bəndəm, mənə itaət et ki, səni də özüm kimi yüksəldim!"[1]

Cari həyat və dövran nə qədər uzansa da ötəridir. Bəs, nə yaxşı olar ki, bu qısa ömür Allahın yolunda onun razılığını qazanmaq üçün sərf edilsin.

Qardaşım!

Allah səni məxluqatın əfzəli xəlq edib və vücuduna saysız-hesabsız qüvvə və istedadlar bəxş edib. Bəndə haqq və doğru yolla ilahi dərgaha hərəkət etməklə Allahın xəlifəsi məqamına yüksəlir və onun cilvəsinə çevrilir.

Kiçik qardaşınız

Əbdülmehdi Məğfuri

---

[1] Qüdsi hədislərdən bir parça.

# Həyat yoldaşına vəsiyyəti

**Bismillahir rəhmanir rəhim**

"Və onlar "Ey Rəbbimiz, bizə zövcələrimizdən və uşaqlarımızdan (sənə itaətlə bizi sevindirərək) gözümüzün işığı (bəbəyi) olacaq övladlar bəxş et və bizi müttəqilərə imam (rəhbər) seç!" – deyərlər."[1]

Əzizim yoldaşım Zəhra!

Arzu edirəm ki, şəri vəzifələrinə və ilahi göstərişlərə layiqincə əməl edə biləsən. Etiraf edirəm ki, birgə yaşadığım müddətdə sənə yaxşı ər olmamışam və səndən xəta və səhvlərimə güzəştə getməyi və Allahdan bağışlanmağı diləyirəm. Özün yaxşı bilirsən və həmçinin indiyədək sənə aydın olub ki, mənə şəri göstəriş və vəzifəmə əməl etmək hər şeydən mühümdür. Çox vaxt öhdəsindən gələ bilməsəm də hər halda bunu sözlərimlə açıq demişəm

[1] "Furqan" surəsi, ayə 74.

və sənə də aydındır. Bəs, səndən istədiyim yeganə şey şəri vəzifələrinə əməl etməyin, Allahın və məsumların bəyəndiyi bəndə olmağındır. Həmçinin övladlarımızı da o cür tərbiyə elə (əlbəttə, bu mənim bütün dindar bacı-qardaşlara olan sifarişimdir).

Aşağıda neçə məsələni sənə xüsusi olaraq qeyd edirəm:

1. Evdə idarəmizə aid olan bütün avadanlıqları ora qaytar.

2. Mənim dünya malından elə də sərvətim yoxdur. Odur ki, cüzi varımın şəriətə uyğun bölünməyini istəyirəm. Evdəki kiçik ölçülü iki ədəd xalçanı atamın evinə yadigar vermək fikrim var. Həmçinin Sircanın "Şəhid Nəsiri-Lari fondu"na yeddi min tümən, Kermanın "Bəqiyyətullah fondu"na on yeddi min tümən və pasdar həmkarım Zəhaba beş min tümən borcum ödənsin. Eləcə də ondan xahiş etmişdim ki, atam xəstəxanada yatarkən oranın da xərcini öhdəsinə götürsün. Əgər xəstəxananın pulunu ödəyibsə, bu da əlavə borcum sayılır.[1]

Qeyd edilənləri motosikleti və bəzi avadanlığı satıb, ödəyə bilərsiniz. Uşaqları sənə tapşırıram və heç kimin onları səndən almağa ixtiyarı yoxdur. Onları İslam təlimlərinə uyğun gözəl tərbiyə elə və qətiyyən tərbiyələrinin pozulmağına icazə vermə!

---

[1] Əbdülmehdinin şəhadətindən sonra ağa seyid Kamal qayınatamgilə qonaq gəlmişdi. Söhbət zamanı bizim borc-xərcimizlə maraqlandı və vəsiyyətnaməni oxuyandan sonra dedi: "Heç nigaran qalmayın, borclarını özüm ödəyəcəyəm!" Biz də motosikletini satıb, kiçik torpaq sahəsi aldıq və sonralar oranı da satdıq.

4. Məndən sonra həyatın davamı sənin özünə aiddir (yəni evlənib-evlənməməyin) və heç kəs bu barədə sənin işinə dəxalət edə bilməz. Amma harada olsan həyatında Allahın razılığını mühüm san.

5. Vaxtaşırı uşaqlarla hökmən atamgilə baş çək. Bu barədə onlara vəsiyyətimdə qeyd etdiyim kimi sənə də tapşırıram ki, aranızda isti səmimiyyəti qoruyub saxlayın və küdurətə yol verməyin.

6. Əgər Allah yenə sənə övlad nəsib etsə – qız olsa, adını Mərziyə, oğlan olsa adını Murtəza qoy.

7. Yuxarıda qeyd edilən, həmçinin qarşıya gələ biləcək məsələlərlə bağlı heç kim sənə şəriətdən kənar hər hansı bir göstəriş verə bilməz. Fikrimdən çıxan və ya unutduğum sair məsələlər qarşıya gələrkən bu barədə nəzər və göstəriş vermək üçün atamı vəkil və həmçinin sənə qəyyum təyin edirəm. Belə ki, qeyd edilənləri nəzərə almaqla zəruri məsələləri hörmətlə və ata qayğısı ilə öhdəsinə alsın (əlbəttə, qabaqcadan möhtərəm atamdan üzr istəyirəm).

Daha başqa sifarişim yoxdur. Bir daha bu fürsətdən istifadə edərək övladlarım Məryəmi, Fatiməni və Mustafanı salamlayıram və ümidvaram ki, Allah onları da öz xalis bəndələrinin sırasına qoşsun, amin! Arzum budur ki, onlar da haqq yolunu tutsunlar. Onlara yaxşı valideynlik edə bilmədiyimə, yaxud nahaq incitdiyimə, qorxutduğuma, əziyyət verdiyimə və ya vəzifəmi layiqincə yerinə yetirə bilmədiyimə görə də üzr istəyirəm. Ümid edirəm məni bağışlayarlar və siz də Allah dərgahından bağışlanmağımı diləyin. Həmçinin salamımı ikimizin

də qohum-əqrəbamıza yetir və mənim tərəfimdən onlardan halallıq istə!

Vəssalam!

Allahın günahkar bəndəsi

Əbdülmehdi Məğfuri

30-04-1986

# Əlyazmasından bir parça

Cihad və mübarizə zamanı dünya qulları diplom-sənəd qəsdi ilə təlim ocaqlarında təhsili eşq məktəbində təhsildən üstün sanaraq rahat və etinasızlıqla qan dəryasına göz yumub, xam xəyalla onun fırtınası və dalğasından xilas olduqlarını güman etdikləri halda insanı tərbiyə edən, onu xilas edən və ona qanad verən əsil və həqiqi elm "kiçik" və "böyük" cihad və döyüş meydanlarında əldə edilir. Dünyanı mənimsəmə qəsdi ilə öyrənilən elm qanadları bağlayan falaqqa və zəncirə bənzəyir. Eşq məktəbinin on üç yaşlı şagirdi mübarizə meydanının əsil əsgəri, komandiri və rəhbəri sayılır, yüz illik mənəvi seyr-süluk yolunu yorulmaq bilməyən itaət və ibadəti sayəsində qanlı-qadalı rəşadət meydanında bir gecəyə seyr edir.

# Mündəricat


Birinci fəsil ....................................................................... 3
Yazılmayan sətirlər ......................................................... 3
İkinci fəsil ......................................................................... 9
Üçüncü fəsil ....................................................................... 13
Ulduz yağışı ...................................................................... 13
Dördüncü fəsil ................................................................... 20
Beşinci fəsil ....................................................................... 35
Xoş təsadüf ....................................................................... 35
Altıncı fəsil ....................................................................... 41
Bütün vücudu ilə ............................................................. 41
Yeddinci fəsil .................................................................... 54
Xatirələrimə qonşu ......................................................... 54
Səkkizinci fəsil .................................................................. 60
Doqquzuncu fəsil .............................................................. 67
Möhkəm qala .................................................................... 67
Onuncu fəsil ....................................................................... 72
On birinci fəsil .................................................................. 76
Həyəcanlandıran tənhalıq ............................................. 76
On ikinci fəsil .................................................................... 83
Kədərləri boğmalı idim .................................................. 83
On üçüncü fəsil .................................................................. 91
Kerman – kərimlər diyarı ............................................... 91
On dördüncü fəsil .............................................................. 97
Seyid Kamal Musəvi ........................................................ 97
On beşinci fəsil ................................................................. 104
Cümə qüslü ...................................................................... 104
On altıncı fəsil .................................................................. 110
Şəhid Ələkbər Bəxtiyari ................................................. 110
On yeddinci fəsil .............................................................. 118
Abbas getsə qayıtmayacaq ............................................ 118

On səkkizinci fəsil ........................................................ 124
Qərarsız günlərim ........................................................ 124
On doqquzuncu fəsil ........................................................ 136
Əbdülmehdidən sonra ........................................................ 136
İyirminci fəsil ........................................................ 138
Son söz ........................................................ 138
Əlavələr ........................................................ 145
Məktublar ........................................................ 145
Vəsiyyətnamə ........................................................ 148
Həyat yoldaşına vəsiyyəti ........................................................ 150
Əlyazmasından bir parça ........................................................ 154